Mehriban ƏLƏKBƏRZADƏ



# TARİXİN BİR GÜNÜ VƏ YA BİR GÜNÜN TARİXİ

2005
1485

AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ

MEHRİBAN ƏLƏKBƏRZADƏ

# TARİXİN BİR GÜNÜ
# və ya
# BİR GÜNÜN TARİXİ

ƏDALƏT M.VƏLİYEV
ADALAT M. VELIYEV

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2005

T3(2A)+Ф3(2A)

Az 2
Ə 47

Elmi redaktoru: **Nizami Cəfərov**
*professor, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi*

Rəyçi: **Kərim Şükürov**
*tarix elmləri namizədi*

Ə 47 **Ələkbərzadə M.** Tarixin bir günü və ya bir günün tarixi. Bakı, «Təhsil», 2005, 128 səh.

Tanınmış jurnalist-tədqiqatçı, Naxçıvan MR-nın əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin «Tarixin bir günü və ya Bir günün tarixi» kitabı müəllifin son illərdə SPACE televiziyasında getmiş, böyük ictimai, elmi-ideoloji maraq doğuran filmlərin ssenari-mətnləri əsasında hazırlanmışdır. Kitabda Azərbaycanın ən yeni tarixinin bir sıra unudulmuş və ya unutdurulmuş məqamları barədə yeni mənbələrə dayanılaraq geniş elmi-publisistik şərhlər verilir.

Ə $\frac{4702060204}{053}$ 2005 Az 2

© «Təhsil», 2005



## ÖN SÖZ

*Hər bir xalqın mənəvi-intellektual gücünün çox mühüm göstəricilərindən biri onun öz tarixini (prinsip etibarilə, özünü!) nə dərəcədə dərindən bilməsi, həmin tarix (və özünəməxsus «mən», yaxud milli mənlik!) üzərində nə dərəcədə inamla yüksəlməsidir. Bu baxımdan xalqlar, əsasən, üç yerə bölünür:*

*1) bu və ya digər səviyyədə mükəmməl, davamlı dövlətçilik ənənələri olan, ictimai yaddaşı zəngin mənbələrlə, həmin mənbələrə verilmiş ardıcıl, sistemli (və rəsmi!) interpretasiyalarla formalaşmış xalqlar;*

*2) dövlətçilik ənənələri davamlı olmayan, ictimai yaddaşı pərakəndə, müxtəlif mənşəli mənbələr, müxtəlif tendensiyalı interpretasiyalarla «formalaşan» xalqlar;*

*3) dövlətçilik ənənələri olmayan, yaxud çoxdan unudulmuş, ictimai yaddaşdan, ümumiyyətlə, məhrum olub ona ehtiyac duymayan, yaxud passionarlıq dövrlərində özünə saxta texnologiyalarla ictimai yaddaş yaratmağa çalışan və həmin yaradıcılıq konyunkturunu müəyyən etnosiyasi məqsədlərə çatmaq üçün sərf edən xalqlar.*

*Birinci qrup xalqları tarixinə (özünə!) münasibətdə bir növ* ***rahat****, ikinci qrup xalqları* ***narahat*** *xalqlar saymaq mümkündür; üçüncü qrup xalqlara gəldikdə isə, onların psixoloji vəziyyətini* ***rahatlıqda narahatlıq****, yaxud* ***narahatlıqda rahatlıq kimi*** *qiymətləndirmək olar.*

*Azərbaycan xalqı tarixinə (özünə!) münasibətdə bu gün narahatdır, həm də çox narahatdır... Və bu narahatlıq əsasən onda təzahür edir ki,*

*a) xalqın bu və ya digər dərəcədə intellektual təbəqələri, ümumən milli ictimai təfəkkür millətin həqiqi tarixinə sonsuz maraq göstərir;*

*b) son illərə qədər məlum olmayan, yaxud bu və ya digər siyasi-ideoloji məqsədlərlə xalqdan gizlədilən külli miqdarda mənbələr milli ictimai yaddaşa daxil edilir;*

*c) xalqa təlqin olunmuş rəsmi (fundamental!) tarix üzərində həm faktura, həm də metodoloji baxımından genişmiqyaslı redaktə işi aparılır.*

*Və məsələnin ən maraqlı cəhəti budur ki, xalqın böyük ehtiyac duyduğu həqiqi tarixinin yaranması, milli ictimai yaddaşının bərpası prosesi yalnız Akademiyanın institutlarında, Universitetlərin auditoriyalarında, tarixçi-mütəxəssislərin iş otaqlarında deyil, həm də «ənənəvi professionalizm»in qısqanc şübhələrinə baxmayaraq, daha kütləvi məkanlarda – qəzetlərdə, radiolarda, televiziyalarda, internetdə baş verir...*

*Burada söhbət hansısa ənənəvi professional tarixçi obrazının kütləvi informasiya vasitələrindən xalqa müraciət etməsindən, yaxud bu və ya digər məlum intellekt-idrak potensialının müasir texniki imkanlarından istifadə etməklə yeni özünüifadə texnologiyasına yiyələnməkdən söhbət getmir. Milli ictimai yaddaşın bərpası prosesi zamanın (və müasir intellektual-mədəni səviyyənin!) təkanı ilə məzmunca, keyfiyyətcə (və idrak texnologiyaları etibarilə) tamamilə yeni bir obraz: tarixçi-interpretator obrazı formalaşır... Və inamla demək olar ki, Azərbaycanda belə bir obrazın formalaşmasında jurnalist-tədqiqatçı Mehriban Ələkbərzadənin xidmətləri müstəsnadır. O, tarixini (özünü) bilməyə (və tanımağa!) kütləvi ehtiyac duyan millətinin qarşısına intellektual-mənəvi cəsarət, peşəkar mədəniyyəti və mənsub olduğu xalqa sonsuz, təmənnasız övlad məhəbbəti ilə çıxaraq tarixdən, bütün çoxtərəfliliyi, çoxspektrliliyi ilə məhz tarixdən danışır. Onun tarixçi-interpretator obrazı ona görə tam, mükəmməl və mötəbərdir ki, müəllif bilavasitə*



*1) tarixi mənbələrə əsaslanır (yalnız o mənbələrə yox ki, ənənəvi tarixçilərin əsərlərində istifadə olunmuş, yaxud elmi dövriyyəyə məhz onlar tərəfindən daxil edilmişdir... Əsaslandığı xeyli mənbələri onun özü müxtəlif xarakterli «arixivlər»i gəzərək ortaya çıxarmışdır);*

*2) tarixi mənbələrə, həmin mənbələrdəki faktlara bizim bəzi tarixçilər kimi «hesabdar məntiqi» ilə yanaşmır, tarixə üzvi vəhdətdə, bütöv bir kompleks (tale kompleksi!) olaraq baxır, tarixi adlar arxasında tarixi şəxsiyyəti, tarixi rəqəmlər arxasında tarixi hadisələri bütün canlılığı ilə görə (və göstərə) bilir;*

*3) tarixin fəlsəfəsinə enir, keçmişdən bu günə, bu gündən gələcəyə, hətta keçmişdən gələcəyə belə idrak çətinliyi hiss etdirmədən maneəsiz keçməklə dövrləri, zamanları xronologiyanın çərçivəsinə sığmadan elastik bir təfəkkürlə, rahat bir məntiqlə müqayisə edir;*

*4) tarixin xarabalıqlarında, eklektikasında bugünün problemlərini axtarır; harada düz, harada səhv etdiyimizi tapmağa çalışır; tarixə akademik pedantlıqla yox, bugünümüzün keçmişi, bu günə isə tarixin davamı kimi baxır;*

*5) ən ümumi, ən universal mülahizələrində də öz tarixçi-interpretator «mən»ini (əslində «fövqəl-mən»ini) cəsarətlə, qürurla (və mədəniyyətlə!) nümayiş etdirir.*

*«Tarixin bir günü və ya Bir günün tarixi»ndə olduğu kimi...*

***NİZAMİ CƏFƏROV***



# H. Əliyev və Azərbaycanın milli hərbi strategiyası

**H.Əliyev deyirdi:**

***«Əsas məsələ ondadır ki, belə hərbi istiqamətli məktəbin yaradılması mənim hələ o zaman gözlədiyim nəticəni indi çox uğurla doğruldur. İndi Naxçıvanski adına olan bu hərbi məktəb suveren Azərbaycanın milli ordusunun və hərbi kadrlarının bazasına çevrilib».***

Əslində, atılmış məhz bu addım Azərbaycanın tarixində dövlətçilik naminə mütləq görüləcək işin yekun mərhələsi idi. Və biz indi, dönüb arxaya baxsaq dəqiqliklə bu mənzərəni görərik... 1918-ci ildən Ə.Şıxlinski tərəfindən başlanmış milli hərbçi kadrların yetişməsi ilə bağlı məqamın sona çatdırıla bilinmədiyini... sonra... 1941–1945-ci illərdə M.C.Bağırovun axına qarşı gedərək azərbaycanlılardan ibarət milli diviziyaların təşkilində böyük rol oynamasını, lakin məcburi tərxis əmrinə mütləq tabe olmasını... 26 il keçəndən sonra yenə də sovet məkanında H.Əliyev tərəfindən milli hərbi məktəbin yaradılması və dondurulması faktı... Nəhayət ki, yalnız və yalnız H.Əliyevin HƏRBÇİLƏR yetişdirmək üçün əvvəl orta, daha sonra ali təhsil məktəbləri açaraq onu qorumağa qübrəti çatdı. Azərbaycan üçün ən vacib, həlli çox müşkül olan işi təkcə o görə bildi. O istəyirdi ki, içindəki yiyəlik hissi ilə Azərbaycanı qoruyacaq zabitlərin milliyyəti azəri türkü, soyadları isə ƏLİ, VƏLİ, MƏMMƏD olsun.

XIX əsrdə çar Rusiyası bizi hərb sənətindən mümkün qədər uzaq saxladı. Azəri TÜRKLƏRİNƏ etibar edilmədiyindən onlar hərbi mükəlləfiyyətə cəlb edilmirdilər. Böyük sərkərdə adını daşıyacaq hərbçilərimiz də, başqa dövlətin bayrağı altında tanınırdı. Bu məlum dövlətlər Azərbaycanın müstəqil dövlət olmasına, müstəqil ordu yaratmasına imkan vermirdilər. XIX əsrdə ölkəmizin Rusiya

ilə İran arasında bölünməsi də həmin məqsədə xidmət edirdi. 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndən sonra, HƏRBİ NAZİRLİK öz milli ordusunu yaratmaq yolunda əsaslı iş aparsa da və bu işin başında Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski kimi sərkərdələr dayansa da...Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan, yəni SSRİ-nin işğalından sonra milli ideallar naminə görülən işlər kimi, bu cəhd də yarımçıq qaldı. XX əsrdə bolşeviklər bu ənənəni bir başqa cür davam etdirdilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qurulmuş milli ordunu və onun ən yaxşı kadrlarını məhv etmiş bolşeviklər, türk oğullarını tikinti və arxa təminat üzrə digər batalyonlara cəlb etməklə, onları əsl hərb sənətindən uzaqda saxlayırdılar. Düşünülmüş siyasət idi.

1920-ci ildə Sovet hakimiyyəti öz ordu və donanmasını yaratsa da, 1922-ci ildə Zaqafqaziya respublikaları orduları Xüsusi Qafqaz Ordusunun diviziyalarına çevrildi. Daha sonra məlum 1937–1938 repressiya illəri milliyətcə azəri türkü olan hərbçiləri də bu maşından xüsusi canfəşənlıqla keçirtdi. Təbii ki, məqsədli şəkildə. Gələcəyə türk xalqından olan yüksək çinli zabit saxlamaq... az qala Pyotru unutmaq demək idi. Baxmayaraq ki, Böyük Vətən müharibəsi dövründə Azərbaycandan 600 mindən çox adam səfərbər edildi, azərbaycanlılardan ibarət Milli diviziyalar yaradıldı və SOVET İTTİFAQI QƏHRƏMANLARI da yetərincə oldu. Lakin bizə bu da məlumdur ki, hətta qəhrəmanlıq və itgi ilə qələbə çalaraq Berlinə qədər gedib çıxmış milli diviziyamız müharibədən sonra məcburi tərxis edildi. Məqsəd slavyan diviziyalarından fərqli olaraq, milli diviziyaların, BU qəhrəmanlıqda başqa millətlərin izini silmək idi. Qeyd edək ki, həmin proses də bizdə hərbə oyanmış marağı azaltdı. Amma SSRİ-nin ən rəşadətli qələbələrində danılmaz «azərbaycanlı hərbçisi» faktoru vardı. Nə qədər danılsa da... bu qəhrəmanların əfsanəvi şücaətini tam ört-basdır etmək mümkünsüz idi. Ancaq bütün bunlar Azərbaycanın gələcəyi üçün məhz milli hərbçi kadrların



mövcudluğu da deyildi... Yenidən azərbaycanlıların hərb sənətinə yiyələnməsinə ciddi maneələr yaradılırdı... **ÇÜNKİ... NƏ VAXTSA ÖZ MİLLİ MƏNSUBİYYƏTİNƏ, DOĞMA TORPAQLARININ SƏRHƏDLƏRİNİ QORUMAQ İNSTİNKTİNƏ QAYIDIŞ QORXUSU VARDI.** İllah da ki, kökümüzün TÜRK, dinimizin müsəlman, ilk və son missiyamızın TURAN olduğunu biz unutsaq da, onlar unutmurdular. PYOTRDAN üzü bəri bütün xristianlar bu qorxu ilə bizləri bütün üsullarla yox eləməyə, yaxud da ki... zərərsizləşdirməyə böyük cəhd göstərərək məqsədlərinə nail olurdular. Bu o dərəcədə hiss olunan idi ki... biz bununla hətta, təəccüblənmədən barışırdıq. Ya beynəlmiləl ailə tərkibi, ya da milli mənsubiyyətinə tam yadlıq mütləq idi... Həm də bu vəzifə, səlahiyyət sahibləri üçün müsbət sayılacaq şərt idi. Belə zamanda milli mənafe üçün yetişəsi kadr, əlbəttə ki, mümkünsüz idi. Milli oyanış əlamətləri hiss edilən respublikaların, xüsusilə Azərbaycanın rəhbərliyinə qarşı təzyiqlər vardı. Mərkəz hər dəfə bu xalqı qorxutmaq, özünə tabe etmək üçün xüsusi üsulla məhz Dağlıq Qarabağ məsələsini ortaya atırdı. Ermənistan ermənilәri və Azərbaycan DQMV-dəki erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb edirdilər. ANTİTÜRK əhvalı zaman-zaman qızışdırılırdı. Həmçinin 60-cı illərdə də.

1964-cü ildə Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyi bayram ediləndə bu, geniş ictimai-siyasi kompaniyaya çevrildi. Azərbaycan tarixçilərindən bu bayramın keçirilməsinin əleyhinə çıxanlar oldu. Qeyd edək ki, əslində milli azadlıq uğrunda mübarizə aparan bu nəsil 60-cı illərin əvvəllərindən artıq formalaşmışdı. Azad fikirli öncüllər gəncləri gizli dərnəklərdə siyasi mübarizə ruhunda tərbiyələndirirdilər. 1962-ci ilin dekabrın 17-də 95 nəfərin iştirakı ilə gizli yığıncaqda Milli Azərbaycan Qərargahı da təşkil edilmişdi. 1969-cu ilin martında Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin Elmi Şurasında tarixçilər bəyan etdilər ki, Azər-

baycan XIX əsrin əvvəllərində Rusiyaya birləşməmiş, onu çar Rusiyası zəbt etmişdir. Bu çıxışa görə görkəmli alimlər uzun müddət təzyiq və təqibə məruz qaldılar.

Düzdür, HEYDƏR ƏLİYEV hakimiyyətinin ilk ilinin ilk plenumunda tarixçilərin bu addımını çox kəskin tənqid etdi. Qeyd edək ki, HEYDƏR ƏLİYEV heç bir vaxt yaranmış vəziyyətə və şəraitə görə hərəkət etmir, vəziyyəti ancaq öz baxışı, həmçinin nəzarəti altında saxladığı... həmçinin vacib bildiyi anda qərar qəbul edirdi. Kəskin tənqidi münasibətindən sonra o, məhz bu tarixçilərin digər millətlər tərəfindən də vurulduğunu görüb taktikanı dəyişdi. O, HEYDƏR ƏLİYEV idi. O, özü-özünün tarixçisi idi. O, hər zaman tarixin yazıldığını unutmurdu. Tarix isə sabah deməkdir. Bu fərdlərin xilası, müdafiəsi çox çətin və mümkünsüz idi. Birinci səbəb onların millətçi və türk olması idi. Lakin güclü fərdlər – o fərdlər ki, üst qatda liberal... dərin qatlarda isə milliliyini, sabaha məxsus olduğu millətin işıqlı addımlarıyla çıxmağın mütləqliyinə əmin olduğu üçün təhlükəli... vacib işlər görən güclü fərdlər vardı. Bu güclü fərdlərin ən güclüsü isə Əliyev soyadlı Heydər idi. O ƏLİYEV ki... Dövlət Təhlükəsizlik Komitəsinin ilk azərbaycanlı sədri pilləsinə danılmaz istedadı ilə çıxdı. Ancaq adı ilə dəhşət və vəhşət doğuran DTK-nın ən böyük fiquru ola-ola, Sovet quruluşunun bizi daima öz asılılığında saxlayan qüdrətli hakimiyyətinin özündən əvvəlki icraçılarına rəğmən milli zəmində təhlükə doğuranları hədəfdən çıxararaq məhv etmək təhlükəsindən qorudu... hər halda, minimuma endirdi. Bunu hansı fəndlə, ağılla, manevrlə etdi, önəmli deyil. Önəmlisi budur ki, milli qabarmalar... azad insan və millət dərki boğulmadı.. mərkəz üçün nümunəvi oyun nümayiş etdirilərək, müəyyən zamanda fəaliyyətləri dondurulmaq bahasına olsa da saxlanıldı, qaldı. Qaldı ki, nə vaxtsa yaşayacağımız müstəqil məmləkətin vətəndaşı kimi bizlərə əslimiz TÜRK xalqının azadlığını damızdırsınlar. Kökümüzdən və missiyamızdan hali etsinlər. Qalsınlar ki, etsinlər... Etdilər də.



**QISA XRONİKA.** 60-cı illərin ortalarında Ermənistan SSR-də növbəti antiazərbaycan hərəkatı qızışdı. Erməni daşnaklarının Qarabağ ssenarisi öncə Naxçıvanda gerçəkləşməliydi. Dünyanın müxtəlif yerlərindən ermənilər «tarixi vətənləri» Naxçıvana köçməli, yerli maddi-mədəniyyət abidələrini erməniləşdirməli və Azərbaycanın bu dilbər guşəsini də Ermənistana birləşdirməliydilər. Bu niyyət 18-ci ildə Andronikin Zəngəzur və Mığrını işğal etdiyi bir zamanda əsaslı şəkildə qoyulsa da, NAXÇIVAN tarixi qətiyyətlə bu tələdən qurtuldu. 20-ci ildə bolşeviklərin köməyi ilə Andronikin işğal etdiyi ərazilərə Zəngilanın Nüvədi kəndi də əlavə edilərək Azərbaycanı Azərbaycandan ayıraraq dəhlizi 46 km-ə çatdırdılar. 1965-ci ilin aprelin 23-də uydurma erməni genosidinin 50 illiyi, cəllad Andronikin 100 illiyi Ermənistanda geniş qeyd edildi. Bu, ata-baba torpaqları olan Qərbi Azərbaycandan azərbaycanlıların növbəti dəfə sıxışdırılmasına, qovulmasına güclü təkan oldu. Və bu, ermənilərin illər boyu apardığı mübarizənin nəticəsi idi. Hətta erməni mətbuatında «Biz Azərbaycana daha nəyi güzəştə getməliyik? Onsuz da tarixi torpaqlarımızın bir hissəsi kimi Naxçıvanın da azad edilməsini yarıda dayandırdıq, onları türklərə güzəştə getdik» fikirlərini açıq-açığına bildirərək, əməli olmasa da, tarixi müharibəni beyinlərdə apardılar. Bizdən fərqli olaraq, 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqında hələ 1938-ci ildə verilmiş qərarı təsdiq etdi. Lakin az sonra Azərbaycan rəhbərliyinə gələn Heydər Əliyev bu qərarın icrasına yol vermədi.

Azərbaycanda 69-cu ilə qədər fəaliyyət göstərən Bakı şəhəri Ali Soveti adına Ali Ümumqoşun Komandirləri məktəbində əsas postları, yeni idarəçilik və rəhbər statusu ruslara, xüsusilə ermənilərə məxsus idi. Məktəbin rəisi siyasi işlər üzrə müavin AVAKYAN idi. Hətta Azərbaycanda nə vaxtsa açılacaq hərbi məktəbin yaranması üçün görülən işlər haqqında məlumat da Moskvaya O və

onun qan qardaşları tərəfindən ötürülürdü. Bu məktəbdə azərbaycanlılar qəti qəbul edilmirdi. Avakyan çox nadir hallarda beynəlmiləl ailələrdən olan azərbaycanlıların qəbulunda güzəştə gedirdi. Eynilə Bakıdakı KİROV adına Ali Dənizçilik Məktəbi də bu proqramla işləyirdi. Bu məktəb isə tamamilə rusların səlahiyyətində idi və burda, ümumiyyətlə, azəri istisnası yox idi. Ancaq 1969-cu ildən Azərbaycanda olan Hərbi Məktəblərdə azərbaycanlıların qəbulunun mütləqliyi tapşırığından sonra bu proses başlandı. Bütün müqavimətlərə rəğmən 1969-cu il hərbi-tədris müəssisələri üçün gənclərin seçilməsi problem kimi qeyd edilərək əsas məsələ kimi Azərbaycan KP MK-nın QEYDLƏRİ, yəni Azərbaycan millətindən olan gənclərin hərbi məktəblərə seçilməsinə diqqətin olmaması, yaxud yayınması problem kimi qaldırılır. Həmçinin hərbi peşənin vacibliyindən silahlı qüvvələrdə zabit peşəsinin şərəfli peşə olması təbliğinin lazımınca aparılması tapşırılır.

Daha sonra... Azərbaycan KP MK-nın 21 oktyabr 1969-cu il tarixli BÜRO iclasında Naxçıvan və Dağlıq Qarabağ vilayət komitələrinə, həmçinin Bakı, Əlibayramlı, Kirovabad (indiki Gəncə), Şəki və s. rayon komitələrinə hərbi çağırışlarda siyasi orqanlarla birgə gənclərin hərbi məktəblərə və hərbi qulluğa cəlb edilmələriylə bağlı vətənpərvərlik ruhunda hazırlığın qənaətbəxş olmadığından onun yüksək səviyyədə olması tələb edilir. Hərbi məktəblərə gənclərin cəlbi üçün ucqar kəndlərdən belə seçilmələri də tapşırılır. 1969-cu ildə Respublikanın Birinci katibi seçilən ƏLİYEV HEYDƏR ƏLİRZA oğlu bütün yeni iqtisadi, siyasi, mədəni inqilabi baxışları ilə bir spektrdə görünməsi məsləhət bilinməyən milli strategiyanı da düşünürdü. Mərkəz – MOSKVA onu özününkü bilsə də, bu qəbildən olan qadağan edilmiş şərtləri ona xatırlatmamış olmazdı. Heydər Əliyev isə artıq 1-ci addımı atmaq üçün düşünülmüş planı həyata keçirirdi. O planı ki, deyəsən, çoxdan düşünülmüşdü. BİZ İNDİ ELƏ BU MƏQAMA İŞIQ SALACAYIQ.



O addıma ki, məhz 18-ci ildə milli yunkerlər məktəbinin banisi olan məşhur sərkərdəmiz Ə.Şıxlinskidən sonra 71-ci ildə H.Əliyev tərəfindən totalitar rejimin sərt məngənəsində ikinci belə bir məktəb yaradıldı. Bunun təxirəsalınmaz bir vəzifə, iş kimi gündəmdə saxladığını isə onun hələ 69-cu ilə qədərki fəaliyyəti, həmçinin həmin ildəki plenum və büro iclaslarındakı çıxış və qeydlərindən sezmək mümkün idi. Və indi görürük ki, burda o qədər də dərin sözaltı məna axtarmaq gərək deyilmiş. Hər şey mahiyyət etibarıyla yetərincə aydın deyilmişdi. Əslində, bu onun artıq atacağı addımlar üçün – o addımlar ki, məhz məxsus olduğu millətin sabahı naminə öz milli ordusu – zabiti və əsgəri olmalıdır kimi gizli həqiqət naminə idi. Bu bir xəbərdarlıq siqnalı idi... Təbii ki, vətən və millət hissi olanlar üçün. Bununla bərabər, böyük imperiyaya – onun siyasətinə, sərt formada olmasa da, etiraz – əks mövqe idi. Bunu digərləri daha tez anladı. Azərbaycanlıların hərbi peşələrə yiyələnməsi yolunda daha ciddi maneələr yaradıldı. Məqsədində israrlı olan ata Əliyev bütün elm sahələrində milli kadrların yetişdirilməsi ilə bərabər, bəlkə də, daha vacib bildiyi hərbdə qeyri-millətlərin çoxluğunu eləbelə qəbul edə bilmirdi. Hətta partiya, sovet fəallarının yığıncağında, fəhlələrlə görüşlərdə belə O, azəri gənclərin peşə seçimində zabitlik peşəsini unutmamağını məsləhət görürdü. Valideynləri, müəllimləri bu istiqamətə – tam açıqlaya bilmədiyi məqsədə yönəltmək üçün maksimum anlaşma aparırdı. İstədiyi nəticəni ala bilmədiyini görəndə Heydər Əliyev böyük riskə gedərək Maarif Nazirliyi sistemində çalışan qrup ilə görüşərkən respublikada hərbi təyinatlı məktəbin yaradılması mütləqliyini açıq söyləmişdi. Və şəxsən maarif naziri Mehdi Mehdizadəyə tapşırmışdı ki, tezliklə MƏRKƏZİ KOMİTƏYƏ bu barədə təklif bildirsin. O hətta bu məktəbin qərar layihəsini hazır şəkildə vermişdi.

**Əslində bu, gizli şəkildə İMPERİYA oyunlarının ziddinə gedərək MİLLƏTÇİ damğasını qazanmaq bahasına olsa da, gizli formada vassallığa etiraz idi. Öz hərbi təyyarəçisi, öz zabiti, öz generalı olan TÜRK ORDUSU yaratmağın nə olduğunu kim bilməsə də, HEYDƏR ƏLİYEV, həmçinin Moskva da bilirdi. Ancaq AÇIQ OYUN zamanı yetişmədiyindən ƏLİYEV bunu aşağıdan gələn təklif kimi, Maarif Nazirliyinin təşəbbüsü kimi səciyyələndirdi. Çünki bilirdi ki, bu məsələlər yuxarı dairələrdə – MƏRKƏZDƏ sakit qarşılanmayacaq.**

1970-ci ilin avqustunda isə O eyni israrla **Respublika Hərbi Komissarına** Azərbaycan Milli Diviziyasının ilk komandiri general CƏMŞİD NAXÇIVANSKİNİN 75 illiyi ilə əlaqədar olaraq MK-ya müraciət etməyi tapşırmışdı. Azərbaycan Respublikasının hərbi komissarı general-mayor MURTUZ QULİYEV və siyasi şöbənin rəisi polkovnik ABBASOVUN Azərbaycan KP MK-ya ünvanlandırdığı **12 avqust 1970-ci il tarixli 72 nömrəli məktubunda** Azərbaycan xalqının böyük oğlu, ilk diviziya komandiri, peşəkar hərbçi CƏMŞİD NAXÇIVANSKİ haqqında arayış təqdim edərək, onun misilsiz xidmətlərini nəzərə alaraq müəyyən tədbirlərin keçirilməsi üçün köməklik göstərilməsini xahiş edirdi. Təbii ki, cəmisi bir neçə gündən sonra H.Əliyevin imzası ilə Azərbaycan KP MK bürosunun «CƏMŞİD NAXÇIVANSKİNİN adının əbədiləşdirilməsi haqqında» qəraqı respublika mətbuatında dərc olunur. Hətta bu qərarın bir maddəsində göstərilirdi: «Yeni yaradılacaq respublika hərbi təyinatlı orta internat məktəbə də Cəmşid Naxçıvanskinin adı verilsin».

1971-ci il 16 iyun tarixli məktubla Azərbaycan Respublikasının maarif naziri **Mehdi Mehdizadə** Azərbaycan KP MK-ya məktub göndərir.



«Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə

Azərbaycan KP MK Bürosunun **29 aprel 1971-ci il tarixli 3 nömrəli** «Partiya, sovet, komsomol təşkilatlarının respublika hərbi komissarlıqlarının gənclərin sovet ordusu sıralarında xidmətə hazırlanması və hərbi məktəblərinin kompleksləşdirilməsi üzrə işi haqqında» qərarının 7-ci bəndini icra edərək, Maarif Nazirliyi, Azərbaycan SSR hərbi komissarlığı və Azərbaycan LKGİ ilə razılaşdırılmış «Bakı şəhəri Zığ qəsəbə 2 nömrəli 8 illik internat məktəbinin respublikanın hərbi təyinatlı orta internat məktəbi kimi yenidən qurulması» barədə qərar layihəsini təqdim edir».

Bakı şəhərində Zığ qəsəbəsi kimi göstərilən rayon, əslində o zaman ŞAUMYANIN adını daşıyırdı. H.Əliyevin təkidi ilə isə bu ad qərar layihəsində Zığ qəsəbəsi kimi rəsmiləşdi. Bu soyadlı məkanda Naxçıvanski məktəbi heç olmasa məramına görə yerləşə bilməzdi. Sovet quruluşunun bütün beynəlmiləlçilik tələblərinə rəğmən!.. Cəmi bir neçə gündən sonra H.Əliyevin rəhbərliyi ilə Azərbaycan KP MK-nın bürosu bu layihəni müzakirə edərək qərara alır:

1 – Azərbaycan SSR Maarif Nazirliyinə 1971–1972-ci tədris ilində Bakı şəhər Zığ qəsəbəsindəki 2 nömrəli 8 illik internat məktəbinin respublikanın hərbi təyinatlı orta internat məktəbi kimi yenidən qurulmasına icazə verilsin.

2 – Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Respublika hərbi təyinatlı orta internat məktəbinin şagirdlərinin təchizatının pulsuz təmin edilməsinin maliyyələşdirilməsi məsələlərinə baxsın və həll etsin.

3 – Göstərilən məktəb üzərində hamilik Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Hərbi Ümumqoşun komandirləri Məktəbinə tapşırılsın.

4 – Maarif Nazirliyinə Azərbaycan SSR Hərbi Komissarlığı ilə birlikdə 3 ay müddətində «Respublika hərbi təyinatlı orta internat məktəbi haqqında əsasnamə»nin hazırlanması və təsdiq edilməsi tapşırılsın.

M.F.

Və çox kiçik zaman fasiləsindən sonra düşünülmüş 2-ci addım atılır. İxtisaslaşdırılmış bu hərbi məktəbə Azərbaycanın böyük sərkərdəsi, həmçinin keçmiş SSRİ-nin də yetərincə tanıdığı general **Cəmşid Naxçıvanskinin** adı verilir.

Bu, sadəcə cəsur bir generalın adının əbədiləşdirilməsi, yaxud onun adına layiq olacaq kursantlar üçün mayak da deyildi… Bu, məxsus olduğu millətin sərkərdələr sülaləsinə məhz bu nöqtədən baxışı və onların yenidən yaddaşların – oyanmalı olan genlərinin qaysağını qopartmaq idi. Bu, Zamanı üçün mümkünsüz sayılacaq iş idi. Bu, konkret milli şüurları formalaşdırmaq üçün nəzərdə tutulmuş tapşırıq idi.

…Və lazım bildiyi zaman, yaxud məkanda ata ƏLİYEV deyirdi:

**«KİM Kİ BU TƏŞƏBBÜSƏ QARŞI ÇIXIR, O, BİZDƏN DEYİL. O, AZƏRBAYCANI SEVMİR, ONUN GƏLƏCƏYİNƏ İNANMIR».**

***Sual qaçılmazdır…***

Maraqlıdır, niyə məhz **Naxçıvanski**? Niyə, Kəngərli generalının işığında? İllah da ki, burda erməni faktoru qaçılmazdır… Şıxlinskisi, Mehmandarovu, Xoyskisi olan xalqın hərbi məktəbi niyə onların adını daşımadı? Kim idi Cəmşid Naxçıvanski?

Rus İmperiyasında babasından özünə qədər general rütbəsi alıb, imperiyanın bütün müharibələrində xüsusi şücaət göstərərək ordenlərə, mükafatlara layiq görülən hərbi nəslin davamçısı… məşhur KƏLBƏLİ xanın nəslindən sonuncu KƏNGƏRLİLƏRİN son nümayəndəsi.

Bəli, bu o Naxçıvanski idi ki, 18-ci ildə Türk qoşunları Azərbaycanın əlahiddə korpusu ilə birgə **Bakını** ermənilərdən – düşmənlərdən təmizləyəndə onların içərisində Azərbaycanın müstəqilliyi uğrunda vuruşan da Cəmşid Naxçıvanski idi. Qarabağda erməni daşnaklarına qarşı vuruşan alay da Naxçıvanskinin idi. Sovet Azərbaycanının Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun ŞUŞAYA təcili teleqram göndərərək BAKIYA milli ordu hissələrinin təşkilinə çağırdığı da alay komandiri polkovnik-leytenant Naxçıvanski idi. Elə həmin vaxtda Milli diviziya yaradan NAXÇIVANSKİ Birləşmiş Komanda Məktəbinin rəisi oldu. Moskva Ali Akademiya təhsilindən sonra Moskvada saxlansa da, Azərbaycan generalı xan Naxçıvanski kimi, o da repressiyaya məruz qaldı…məhv edildi. Və indi, məhz onun adının əbədiləşdirilməsi sadəcə hansısa generalın bəraətinin təsdiqi yox, Azərbaycan deyilən məmləkətin hərbi strategiyasında xan Naxçıvanskilərin yolunu davam etdirməyin bu millətin məhz borcu – sülaləni yaşatmaq məcburiyyəti idi. Çəkinməyək… Hərb sənətinə maraq bizdə öldürülmüşdü. Hələ indi-indi HƏRBÇİLİYİN – qəhrəman türk əsgəri olmağın şərəf, milli özünüdərkdən keçəndən sonra KİŞİLİK olduğunu anlayırıq.

O İSƏ ELƏ O ZAMAN BİLİRDİ Kİ… ulu bir xalqın nə vaxtsa işğal içində çabaladığı, həmçinin gələcəkdə müstəqil şəkildə özü-özünü qorumağı üçün bu addımlar, gec olsa da, heç olmasa onun zamanında atılmalıydı… atıldı.

Bəli… MOSKVA müdaxilələri və sualları başlandı. Sovet İttifaqı, vahid sovet xalqı olan yerdə… İllah da İkinci Dünya müharibəsindən sonra… O zaman ki hər bir gənc böyük SSRİ-nin istənilən hərbi məktəblərində təhsil ala bilər… SUVOROV, NAXİMOV adına hərbi məktəblər olan yerdə bu məktəbin nə olduğunu anlasalar da, qəbul edə bilmirdilər.

Yoxlamalar… israrla məktəb bağlamaq əmrləri… hətta xüsusi etiraz! Bu böyük **xəbərdarlıq** idi. Hədsiz narazılıq isə Əliyevin Azərbaycanda milli hərbi kadrlar yetişdirmək istəyi idi. Necə ola bilərdi ki, Azərbaycan öz hərbi məktəbini yaratsın? SSRİ Maarif Nazirliyindən dəfələrlə gələn yoxlama briqadaları ittifaqda səs-küyə səbəb qeyri-qanuni açılmış bu məktəbin bağlanılması əmrinə etiraz edən ƏLİYEVƏ «Siz bunu nə üçün edirsiniz?» sualına O, ca-

vab verməli idi. ƏLİYEV isə həmişə ƏLİYEV olub. Cavabı da qaçılmaz həqiqət kimi dəmir məntiqə söykənən reallıq idi. Bunu inkar etmək, ya da düzəliş vermək mümkün deyildi.

***Cavab isə belə idi:***

***«Sovet ordusunda, daha doğrusu, hərbi məktəblərdə məhz azərbaycanlı gənclərin – o gənclərin ki, UZUN ÖMÜRLÜLÜK genləri və fiziki sağlamlığı digər millətlərin nümayəndələrindən müsbət mənada çox fərqlidir... onların sayı isə orduda həddən artıq azdır. Səbəb isə sizin göstərdiyiniz kimi onların rus dilini bilməməsi faktorudur. Bu məktəbin, prinsipcə orta ümumtəhsil məktəbi olmaqla yanaşı, əsas məqsədi Rusiyadakı Hərbi məktəblərə hazırlamaqdır. Bütün təlim-tərbiyə qəsdən elə qurulub ki, bu məktəbin şagirdləri ali hərbi məktəblərə hazırlıqlı olsunlar. Sovet ordusu üçün həm fiziki, həm də hərbi biliklərə mükəmməl yiyələnsinlər. Böyük SSRİ-ni qorumaq üçün!..».***

Aydındır ki, bundan sonra bütün cəhdlərə rəğmən Azərbaycandakı bu ilk hərbi təyinatlı məktəbin bağlanması mümkün olmur. 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəb, ilk vaxtlarda çox çətin olsa da, sonralar neçə əsrlər davam edən hərbi peşədən uzaq düşmüş azərbaycanlıların bu peşəyə yiyələnmək həvəsini və mütləqliyini qaytardı. Bu məktəbun sabahkı məzunları artıq AZƏRBAYCANLI olacaqdı. Rusiyada min bir zülmlə təhsilini başa vurub az qala ruslaşmağa məcbur olan azəri hərbçilərdən fərqli olaraq, bu zabitlər hərb sənətində ilk kövrək addımlarını və bərkimiş hərbçi yerişlərini öz doğma torpağında atdığından daha inamlı və yiyəlik hissinə daha yaxın olurdular. Sonrakı təhsilini harda davam etdirməsindən asılı olmayaraq, yenidən yiyəsi olduğu torpağa QAYIDIŞ mütləq idi. Özünün öz məmləkətində, öz torpağında gərəkliyinin təsdiqi üçün. Nəticə əvvəldən hesablanmışdı. Bu **güclü** fərdin çox uzaq gələcək naminə gördüyü işlərin ən vaciblərindən biri və ən əsaslısı idi. Nə vaxtsa müstəqil olacaq məmləkətin, düzü o illərdə



bu çox fantastik görünə bilərdi, amma hər hansı bir dövlətin qüdrəti onun ordusundadır – orduda isə peşəkar zabit korpusu olmalıdır həqiqətini bilən ƏLİYEVİN ən böyük addımlarından biri idi. Sonralar Müstəqil Azərbaycanın Prezidenti olan **HEYDƏR ƏLİYEV** deyəcəkdi:

***«...indi mən hərbi hissələrdə, döyüş bölgələrində, cəbhədə olarkən zabitlərlə rastlaşdım. Çoxları mənə tanışdır. Naxçıvanski adına hərbi məktəbin məzunlarının hamısı ilə görüşmüşdüm... Mən hər dəfə 13, 14, 15 yaşında oğlanların orda hərbi paltarda, hərbi intizamla, əsgəri addımlarla bizim önümüzdən keçib gedən görəndə gözlərimdən yaş gəlirdi. Mən onlara baxdıqca düşünürdüm ki, nə yaxşı ki, biz bu işləri vaxtında görmüşük... Bu iş indi Azərbaycanın bu günü üçün nə qədər lazımmış!»***

BAYRAĞI qəbul edənin ANDI: **Namusuma və canıma and içirəm ki, bu müqəddəs keşikdə bir saniyə də olsun gözümü ondan ayırmayacağam. Onu həmişə uca tutacam. Rənginin əvəzi qanım olsun. Parçasının əvəzi canım olsun. Ay-ulduzuna varlığım fəda olsun. Yazısını vicdanımdan tər-təmiz saxlayacağam. Ağacını milli imanımla bərk tutacam. Baftası iman dolu qanımda namus, çökməz çiyinlərimdə ən şərəfli məsuliyyət olaraq qalacaqdır. Bu bayrağı məndən sonra sağ qalana təhvil vermədən ölmək mənə haram olsun. Keşiyini bir ibadət kimi tutacağam. İçdiyim bu anda sadiq qalacağımı göstərmək üçün bayrağımı öpür və təhvil alıram.**

Bu gün bu kursantlar müstəqil məmləkətin bəlli sərhədlərini qorumaq, dövlətinin güclü ordusunun zabiti olmaq mütləqliyindən başqa daha mühüm, geri qaytarmağa məhkum olduğumuz itirilmiş torpaqlarımız naminə çox çətin, ancaq şərəfli bir həyat tərzi seçiblər. Mən qəsdən PEŞƏ sözünü işlətmirəm. Onlar müstəqilliyini yenidən qazanmış dövlətimizin bütövlüyünü təmin etmək naminə düzgün seçim edərək ATA ƏLİYEVİN etimad və inamını doğrult-

maq üçün TÜRK ZABİTİ adını doğrultmaq məramındadırlar. Dünən onların sayı 49, bu gün isə Yüzlərlədir.

Məhz peşəkar kadrların hazırlanması mütləqliyi bir ölkə cavabdehi kimi, onsuz da onun diqqət və marağında idi. Ancaq xüsusi səy və ehtiyacla 1971-ci ildə Bakıda Cəmşid bəy Naxçıvanski adına hərbi kadrlar yetişdirəcək məktəb açmaqla o, məhz milli kadrların – yiyəlik hissini formalaşdıracaq azərbaycanlı zabitlərin – bu məmləkəti nə vaxtsa bütövləşdirəcək peşəkarların yetişməsi üçün bu addımı atdı. Maneələr çox idi. Həm kənardan, həm də daxildəki yad millətlər yetərincə möhkəm müqavimət göstərirdilər. Bütün maneələrə, səddlərə baxmayaraq, xüsusən 60-cı illərdən respublikada milli zabit kadrları yetişirdi. Ancaq onlar vətənə yox, SSRİ-yə xidmət edirdilər. Azəri zabitləri Əfqanıstanda beynəlmiləl borclarını yerinə yetirərkən, Rusiya ilə Çin sərhəddini qoruyarkən həlak oldular. Bu qaçılmaz idi. Sonradan güclə olsa da yetişməsi mütləq olduğuna əmin olan ata ƏLİYEV bu mərhələdən keçməyin zəruriliyini hamıdan tez anlamışdı. Ona görə gizli qatları hələ indi açılan o vaxtkı səylər Müstəqillik Dövrünün İlk illərində bizi milli hərbi kadrların istisnasından xilas elədi və ən azı minimum itgi ilə biz vəziyyətdən çıxdıq. Vaxtıyla Azərbaycanın şimal bölgələrinin birində bu hərbi məktəbin filialının açılışı bizim istədiyimiz nəticəni vermədi. Bizim milli şüura xidmət etməyən NƏTİCƏ... Əslində başqa nəticə də gözləmək düzgün deyildi. Çünki məkan düsturu diqtə etməli idi. Milli kadrlar yox – başqa millətdən olan hərbçilər, əslində sovet ideologiyasının əsas hissəsi idi. Bu addım isə Bizim milli şüura xidmət etmirdi. Təbii ki, böyük səbr və manevrlə bu filial uzun müddət, hətta indiki ordumuzda izi qalsa da ləğv edildi. Neçə illik fasilədən sonra Hərbi məktəbin digər, məqsədə daha uyğun bir bölgəmizdə, təmiz türk qanlı hərbçilər yetişdirmək üçün filialı açılacaqdı. BAKIDA yox, strateji baxımdan vacib bilinən yerli hərbçi kadrların mükəmməl şəkildə artırılması



üçün, məhz Naxçıvanda... Ancaq bu hələ gələcəkdə olacaqdı... Daha sonralar, türk dünyasının yetirdiyi bu nəhəng şəxsiyyət Kremldə böyük vəzifə tutduqdan sonra tarixi düşmənlərimiz görmədiyimiz, görmək istəmədiyimiz düşmənlərimizin əli ilə, lap elə içərimizdəki manqurtların dəstəyi ilə müxtəlif yollarla mübarizə aparmağa başladılar. Və Ermənistanda «beynəlxalq» erməni terrorizmi torunda Heydər Əliyevi aradan götürmək üçün baş çatladılırdı. H.Əliyev deyirdi: ***«Açıq deməsələr də, bəzi rəhbər işçilər vasitəsilə mənə çatdırmışlar ki, biz gərək Ermənistanla Azərbaycanın xəritəsini dəqiqləşdirək. Guya burda müəyyən səhvlər var. Mən isə hamıya deyirdim ki, bizim sərhədlərimiz məlumdur və heç nəyi dəyişməyə ehtiyac yoxdur.***

«Daşnaksütyun» partiyası isə bəyan etmişdi:

**«Heydər Əliyev aradan götürülməzsə, QARABAĞ bizə vətən yox, məhbəs olacaq».**

VƏ ERMƏNİLƏR 60-cı illərdə özlərinə Tarixi vətən saydıqları NAXÇIVANIN işğalı ssenarisinin məhz ƏLİYEV tərəfindən alt-üst edilməsini yəqin ki, heç bir zaman unuda bilməyəcəklər. Bu fakta Naxçıvanın 90-cı illərdəki müdafiəsini də əlavə etsək, ermənilərin baxışlarını açıqlamamaq da olar. Hələ 1969-cu ildən «QARABAĞ» ssenarisinin çoxdan yazıldığını bilən Heydər Əliyevin milli ordu yaratmaq cəhdinin o zaman kimləri və niyə narahat etməsinin də, müstəqil məmləkət qura bilmək yuxusunu belə görməyənlərin (Moskvanın manqurtlaşdırdığı nakəslərin) də qəzəbinin səbəbi aydındır. Bu türk oğlunun Kremldəki fəaliyyəti və təbii ki, Azərbaycan təəssübü onun ordakı düşmənləri ilə barabər erməni lobbisini, içimizdəki Əliyevə qarşı yaradılmış qrupun fəaliyyəti milli şüurun formalaşması naminə görülən bir sıra məsələləri nəinki inkişaf etməyə qoymadı, hətta tamamilə üstündən xətt çəkdi. «Türk oğlu Kremli də fəth etdi» – acısını yaşayanlar onu Kremldən uzaqlaşdırandan sonra də sakitləşmədilər. Vaxtı ilə onun respublika-

da gördüyü dövlət əhəmiyyətli işlərə kölgə salmaq taktikasına keçdilər. Əslində elə məqsəd də onun məhz bu dövlət üçün etdiklərini yox etmək idi.

O, üç müxtəlif zaman və hakimiyyət yaşadı. Yox, O, sadəcə yaşamadı, onu keçdi. Ən maraqlısı isə odur ki, O ən çətin zaman şərtlərində, çox ziddiyyətli dövrlərdə belə ...hətta, məğlub olduğu vaxtlarda belə, qələbə ilə, uğurla çıxdı vəziyyətlərdən, bütün hallarda məğlub imicini özünə yaxın buraxmadı. «Hər şeyi gələcəyə saxlayan» təsirini bağışlasa da, ən gizli qatlarda o bütün TÜRK ellərini – mən qəsdən ölkələrini demirəm bir yerə yığmaq, müxtəlif zirvə toplantıları adı altında çoxdan bir-birindən uzaq, soyuq, biganə düşmüş eyni millətin müxtəlif qollarını bir yerə yığıb, bir konsensusa gətirmək məqsədini güdürdü. O bunu qəsdən açıqlamırdı. Sadəcə iş görürdü. Çünki O da bilirdi ki, 40 nar çubuğu bir yerdə olanda qüdrətlidir. Çubuqları tək-tək sındırmaq asandır... O – HEYDƏR ƏLİYEV, sovet hakimiyyətinin ən güclü qurucularından biri olduğu halda, milli mənafe və düşüncəsinə görə ondan imtina etdi. Bu siyasətçi böyük Rus imperiyasının PYOTRDAN üzü bəri bütün xaçpərəstlər nəslinin ehtiyatla yanaşdığı Türk birliyinə nail olmaq istəyirdi. Yəqin ki, o da ATATÜRKDƏN sonra əmin idi ki, **Türkün türkdən başqa dostu yoxdur**.

Və 1989-cu ildə C.Naxçıvanski adına hərbi məktəb daha çox tənqid hədəfinə məruz qalır. Hətta Respublika Maarif Nazirlyi burada təmizlik işləri aparır, uzun illər bu təhsil ocağına rəhbərlik etmiş və bir növ Əliyev tapşırığını yerinə yetirən RAUF QULİYEV vəzifədən azad edilir. Təbii ki, yeni təyinat digər tapşırıq yerinə yetirməli idi. Valeh Bərşadlının gəlişinə qədər məktəb güclə əldə etdiyini, demək olar ki, itirmək təhlükəsində idi. Bərşadlı bu məktəbi tamamilə dağılmaq təhlükəsindən xilas etdi. İstər Moskva, istərsə də bədxah qonşularımız C.Naxçıvanski adına Hərbi Liseyin gələcəyini görürdülər. Onlar yaxşı bilirdilər ki, hər hansı bir xalqın, dövlətin gücü onun ordusundadır. Ordunun əsasını isə onun zabit korpusu təşkil edir. Haçansa Azərbaycan müstəqil bir dövlət olarsa, bu, düşmənlərimiz üçün böyük təhlükə olacaqdı. Odur ki Azərbaycana qarşı torpaq iddiası irəli atılanda milli şüuru formalaşdıran bu hərbi məktəb faktoru yaddan çıxa bilməzdi.



Əvvəlcə C.Naxçıvanski adına ixtisaslaşdırılmış orta hərbi məktəb, sonra ali komandirlər məktəbi, daha sonra HƏRBİ LİSEY, Dənizçilik məktəbi, Aviasiya məktəbi... nəhayət, pedaqoji institutda xüsusi kurs – ali hərbi təhsil... Və indi... əgər o zaman bu məktəb yaradılmasaydı, yaxud da hərbi milli kadrların – zabitlərin mütləqliyi gündəmdə belə israrla durmasaydı... konkret olaraq indiki müharibə şəraitində kimlərdən, hansı millətdən olan əsgər-zabitlərdən yiyəlik hissi uma bilərdik?

Sonralar H.Əliyevin Moskvadan Naxçıvana gəlməsi və sərhəddə mövcud olan ağır vəziyyətin stabilləşdirilməsi istiqamətində apardığı işlərin, illah da ki, TÜRKİYƏ ilə olan əsrlik ayrılıqdan sonra qardaş münasibətlərini bərpa etməsi tezliklə, xüsusi olaraq hərbi və blokada məsələlərində öz bəhrəsini verdi. 1992-ci ilin mayında Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilucu «ÜMİD» körpüsünün açılışı oldu. Bəlkə də, O elə məhz bu addımla bizim Naxçıvanı itirməyimizin qarşısını aldı. Və H.ƏLİYEV faktoru ermənilərin Naxçıvan işğalı planını 60-cı illərdən sonra 3-cü dəfə, yəqin ki, axırıncı dəfə alt-üst etdi. Azərbaycanın digər ərazilərinin işğalı fonunda Naxçıvanın müdafiəsi böyük Azərbaycanın bərpası üçün ermənilərə təhlükəli və psixoloji bir fakt oldu. Azərbaycan dövlətçiliyi naminə Bakıya gələrək Azərbaycanı bütövlükdə milli natamamlıq kompleksindən xilas etmək üçün bu böyük general məhz hərbi strategiyada konkret addımlar atdı. Nə vaxtsa böyük TURANIN bir hissəsi olacaq Azərbaycanın zabitləri ilə möhtəşəm türk ordusu arasında qardaşlıq körpüsü yaratdı. Türk zabitlərinin Bakıya gəlişi – iftixar və qürur doğuracaq nümunəvi ordu hər bir azəri gəncinin

içində vətənpərvərlik hissi ilə bərabər, qüdrətli ola bilmək mütləqliyi də yaratdı.

1997-ci ildə Cəmşid Naxçıvanski adına Bakı İbtidai Hərbi Məktəbi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 noyabr tarixli sərəncamında «Respublika ixtisaslaşdırılmış internat məktəbi»ni müasir standartlara uyğunlaşdırmaq məqsədi ilə həmin məktəbin «Cəmşid Naxçıvanski adına Hərbi Lisey» adlandırılmasına qərar verilir. 1998-ci ildə isə Azərbaycan ordusunun peşəkar hərbi kadrlara olan tələbatını daha mükəmməl ödəmək, ərazi etibarıyla Azərbaycandan təcrid olunmuş Naxçıvanın müdafiə qüdrətini daha da yüksəldilməsi, gənclərin hərbi təhsil alması üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması qərarını verdi ata Əliyev.

Bu həm də qədim Naxçıvan torpağının gənclərinə genlərində xan Naxçıvanskilərin davamçısı olmaq şansını oyatdı. Maraqlı bir fakt!.. Həm Bakıda Naxçıvanski adına Hərbi Liseyin, həm də Naxçıvan filialının ilk məzunlarının sayı 49 nəfər idi. Fərq onda idi ki, Bakının 1973-cü il məzunlarından 5 nəfər, Naxçıvanın 2001-ci il məzunlarının isə hamısı ali hərbi məktəblərə daxil olmuşdu. Blokadada yaşayan Naxçıvan və naxçıvanlılar üçün bu, həm də son Kəngərli generalının yenidən hərbçilər sülaləsini yaratmaq şücaətini göstərmək imkanı idi. Bu məsuliyyəti tamlığı ilə dərk edən Naxçıvan hərbçiləri blokada şəraitində belə düşmənin qıcanmış dişləri, dəfələrlə hücum cəhdinin qarşısını əsl xan Naxçıvanskilər kimi dəf etmiş... bir qarış belə torpaq itgisinə imkan vermədilər. Bu günə kimi də məmləkətin bu sərhədləri əsgər və zabitlər tərəfindən nümunəvi şəkildə qorunur. «Azərbaycanı azərbaycanlılar qorumalıdır» fikrini söyləyən general, əslində MİLLİ QÜDRƏTLİ ORDU yaratmaq arzusunda idi.

**«MƏNİM ÜÇÜN HƏR BİR ƏSGƏR, DÖYÜŞÇÜ, ZABİT AZƏRBAYCAN VƏTƏNDAŞLARININ HƏR BİRİNDƏN QİYMƏTLİDİR, DAHA YÜKSƏKDİR»**



Bu ata ƏLİYEVİN Azərbaycan hərbçisinə verdiyi qiymət idi.

Yəqin ki, nə vaxtsa, Azəri türkü olan hərbçi bu qiyməti tam doğruldacaq!

...Və bütün bütöv AZƏRBAYCANIN bərpasından sonra azərbaycanlı gənclərin əksəriyyəti xan Naxçıvanskilərin davamçısı olacaq, bu qiyməti qazanmaq üçün azərbaycanlılarda hərbçi ləyaqətinə ehtiramın formalaşdığını da görəcəyik. Onda hər bir azəri türkü dövlətin əsas gücünü göstərən möhtəşəm ordusunun zabiti olmaq şərəfini qazanmaq arzusu ilə yaşayacaq. Bax onda bu dövlətin torpaqları bir daha heç bir təcavüzə məruz qalmayacaq.

Çünki bu qürurlu zabitlərin milliyyəti azəri türkü, soyadları isə ƏLİ, VƏLİ, MƏMMƏDDİR.

Elə O da bunu istəyirdi...

**«Naxçıvanski adına LİSEY mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax belə də baxacam»** – deyirdi böyük general.

Yəqin ki, nə vaxtsa hər bir azəri türkü dövlətin əsas gücünü göstərən möhtəşəm ordunun zabiti olmaq şərəfini qazanmaq arzusu ilə yaşayacaq. Və biz azərbaycanlıların hərbçi ləyaqətinə ehtiramımızın formalaşdığını da görəcəyik. Nəhayət, inanmalıyıq ki, bir gün «HEYDƏR ƏLİYEV məktəbi»nin – Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bax bu məzunları, heç olmasa övlad borcunu vermək üçün tariximizə QƏLƏBƏ səhifəsini yazacaqlar ...

## *EPİLOQ*

Bu epiloqdursa...

...Qoy zaman öz acı həqiqətlərini yazsın, tarixin boş səhifələri çevrilsin... biz də çox gec olsa da, bu tarixi oxuyacayıq. Tarixin boş səhifələrində çox mətləblərə yer ayıracaq. Həqiqətləri də, yalanı da, fədakarlığı da, xəyanəti də yetərincə dəqiqliklə saxlayacaq.

Amansız vaxt öz görmə bucağından bu həqiqətləri zaman-zaman, dəyişkən, ya ki, öz rəngində göstərə bilər. Ancaq zamanın hansı səmtə dəyişməsindən asılı olmayaraq, deyəcəklər ki...

**O, HEYDƏR ƏLİYEV idi. Müxtəlif zaman kəsiyində, müxtəlif şərtlərlə yaşasa da... Nə vaxtsa, milli kökünə qayıdacağına əmin idi. O, çoxsaylı millətlərə qoynunda yer verə-verə Azərbaycan kimi çox mürəkkəb coğrafi şəraitə malik bir ərazidə müstəqil dövlət qurmağı və onu özündən sonrakı nəslə ötürməyi bacardı. Bu dövlətlə hesablaşılmaq mərhələsinin əsasını qoydu.**

ONU TAMAM İNKAR ETMƏK HEÇ KİMƏ NƏSİB OLMAYACAQ.



*Azəri türklərinə edilən növbəti qətliam*

1990-cı ilin yanvar hadisələri Azərbaycanın XX əsr tarixindəki ən qanlı səhifələrdən biridir. Sovetlər hakimiyyəti dövründəki faciəli tarix kitabımızın ancaq bir vərəqidir. SSRİ-nin güc strukturlarının 90-cı ilin yanvarında törətdiyi vəhşilikləri müqayisə etsək, 89-cu ildə Tbilisidə, 91-ci ildə Vilnüsdə törətdikləri hadisələrlə amansızlığıyla müqayisəedilməz həddə çatdırdı. Bu artıq oyanmış milli hərəkatın özünüqoruma və ərazilərinin itirilməsinə daha güclü müqavimət göstərmə instinktini oyatdı. Və bütün baş verənləri silah gücünə yatırtmaqla, həmçinin özünü dərk edərək oyanmaqda olan digər respublikalara dərs vermək üçün İmperiya atacağı qanlı addımlara başqa ad verirdi. Mixail Qorbaçov adlı cəllad hələ yanvar hadisələrinə qədər xarici jurnalistlərə «Azərbaycanda nəyin bahasına olursa-olsun, İslam Dövləti qurmaq istəyirlər. Biz, əlbəttə ki, qəti tədbir görəcəyik» bəyanatını vermişdi. Sovet dövründə SSRİ Konstitusiyasına rəğmən tədbirin başlanmasına qərar verdi. Tədbir amasızlıqla bir xalqın qeydsiz-şərtsiz qırılmasına qədər gəlib çıxacaqdı... Əslində, isə AZƏRBAYCANDA nə islam fundamentalizminə, nə də silahlı müqavimət göstərməyə real qüvvə yox idi. Bu Bakıya yeridiləcək silahlı orduya verilmiş mütləq həyata keçməli qırğın əmri üçün sadəcə bəhanə idi. Amma baş vermiş QANLI YANVAR adlandırdığımız bu facəni – TARİXİN BİR GÜNÜNÜ daha dolğun dərk etmək üçün biz hələ ki, ən azı iki il əvvələ bir xronoloji nəzər salaq.

## *1988-ci il*

**25 yanvar.** Ermənistanın – Qafan və Mığrının (Mehri) daimi sakinləri olan yüzlərlə azərbaycanlı qovularaq qaçqın vəziyyətində Azərbaycana pənah gətirdilər.

**8 fevral.** Xankəndində DQMV- nin Azərbaycandan ayrılaraq Ermənistanın tərkibinə qatılması tələbiylə İMZALAR toplamağa başladılar.

**12 fevral.** Sovet Xankəndində DQMV-nin Ermənistana verilməsi tələbiylə ilk mitinqlər başlandı.

**18 fevral.** Bir-birinin ardınca zorla doğma yurdlarından – Qərbi Azərbaycandan qovulmuş azərbaycanlı əhalinin – qaçqınların sayı artıq 4 mini keçirdi.

**21 fevral.** Xankəndində yerli hakimiyyət 110 səslə lehinə, 17 səslə əleyhinə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan çıxarılıb Ermənistana verilməsini qərara alır... və Azərbaycanın, həmçinin Ermənistanın Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edərək bu qərarın təsdiq edilməsi xahiş edilirdi.

**22–23 fevral.** Bakı və Sumqayıtda «Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir» şüarlı İLK mitinqlər başlandı.

**24 fevral.** Ağdam-Xankəndi yolunda Əsgəran və Ağdam sakinlərinin etiraz mitinqləri qarşıdurmaya səbəb oldu. İki azərbaycanlı gənc qətlə yetirildi.

**26 fevral.** SSRİ KP MK-nın baş katibi M.S.Qorbaçov Azərbaycan və Ermənistan əhalisinə müraciət etdi.

**27 fevral.** Xankəndində ermənilər bütün müəssisələrdə öz fəaliyyətlərini donduraraq «Bizə su, çörək yox, anamız Ermənistan gərəkdir. Azərbaycanı istəmirik» şüar və plakatlarıyla genişmiqyaslı mitinqlərə başladılar.

**28 – 29 fevral.** Sumqayıtda gözlənilmədən kütləvi basqın və özbaşınalıqlar həyata keçirildi. Qeyd edək ki, bu, azərbaycanlıların ayağına yazılmış müdhiş bir böhtan idi, sonradan hadisənin törədicilərinin məhz ermənilər olduğu sübut olundu. Amma, bu həqiqət heç kimə lazım deyildi.

**1 mart.** Sumqayıtdan qaçmış ermənilər Stepanakert adlandırdıqları Xankəndində yerləşdirildi.



**2 mart.** Zəngilan və ətraf rayonlardan, kəndlərdən qovulmuş azərbaycanlılar acınacaqlı şəkildə yeni qaçqınlar dalğası yaradır. Məhz elə bu tarixdə də Xankəndində Sumqayıtda ölən ermənilərin xatirəsinə abidə tikilir.

**10 mart.** SSRİ MK-nın iclasında hər iki respublikanın rəhbərlərinin regiondakı vəziyyətlə bağlı məlumatları dinlənildi. İclasda Qorbaçov da çıxış edir.

**18 mart.** Azərbaycan DQMV-nin partiya komitəsi öz plenumunda DQMV-nin Ermənistana birləşdirilməsi qərarını verir.

**23 mart.** SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu qəbildən olan milli və ərazi problemli çətin məsələlərin yerli orqanlara təzyiq və güc yolu ilə həllinə etirazını bildirir. Və bir gün sonra «1988–1995-ci illər üçün DQMV-də sosial-iqtisadi məsələlərin sürətlə yaxşılaşdırılması tapşırığını verir». Və... Ermənistandan Azərbaycana mindən çox növbəti qaçqın göndərilir.

**18 may.** Bakıda Lenin adına meydanda on minlərlə azərbaycanlı Ermənistandan – doğma yurdlarından qovulmuş qaçqınların müdafiəsi üçün etiraz mitinqinə başladı.

**22 may.** Xankəndində üçüncü mitinq başlandı. Buna, fərziyyələrə görə, SSRİ MK-nın katibi Liqaçovun Bakıda olarkən «DQMV ilə bağlı mübahisələrə son qoyularaq bir daha müzakirəyə çıxarılmayacaq» bəyanatı təkan oldu.

**İyun.** Daha bir qaçqınlar dalğası. Cəmi bir- iki gün ərzində Ermənistandan 2 min azərbaycanlı təhqir və təqiblə qovuldu. DQMV-də yaşayan azərbaycanlıları iş yerlərinə buraxmayaraq, tələblə vilayəti tərk etmək əmri verilir.

**14 iyun.** Dövlət statistikasının verdiyi məlumata görə, respublikaya Qərbi Azərbaycandan daha 4 min azərbaycanlı qovulur.

**İyunun sonu.** Ermənistandakı mübahisəli şərait Azərbaycana yenə minlərlə qaçqının gəlməsinə səbəb olur. Artıq onları Çadır şəhərciklərində yerləşdirmək məcburiyyəti yaranır.

**12 iyul.** DQMV-nin millət vəkilləri öz sessiyalarında Azərbaycandan çıxmaq qərarını qəbul edir.

**13 iyul.** Azərbaycan SSR bu qərarı qanunsuzluq kimi qiymətləndirir.

**18 iyul.** Daha geniş formatda keçirilən SSRİ-nin Ali Soveti DQMV-ni Azərbaycanın tərkib hissəsi kimi təsdiq edir.

**3 sentyabr.** Xankəndindən Kərkicahan atəşə tutulur. «Azərbaycanlılar, Sizə ARSAQ torpağında yer yoxdur» – vərəqləri yayılır.

**12 sentyabr.** Xankəndində erməni kütləsi yerli vilayət prokurorluğuna hücum çəkərək 8 sentyabrda hüquq-mühafizə idarələrinə zor tətbiq edərkən saxlanılmış şəxslərin azad olunmasını tələb edirlər.

**18 sentyabr.** Bir neçə yüz Xankəndi erməniləri Xocalı kəndini yandırmağa cəhd göstərərək kənd sakinlərini atəşə tutur. Azərbaycanlılardan xeyli yaralanan və bir nəfərin qətli qeydə alınır.

**21 sentyabr.** DQMV-də və Ağdam rayonunda xüsusi vəziyyət tətbiq edilir.

**16 noyabr.** Şuşa yaxınlığındakı Topxana meşəsi – Azərbaycanın qoruq sahəsi kütləvi şəkildə məhv edilərək yeni qeyri-qanuni açılan sexin tikintisi başlayır. Meşə məhv edilir.

**18 noyabr.** Bakıda Topxana meşəsinin məhv edilməsi ilə bağlı etiraz mitinqləri başlayır.

**18 noyabr–5 dekabr.** Bakıda Lenin adına meydanda səngiməyən mitinqlər davam edir. Mitinq iştirakçıları Topxana meşəsinin qırılmasının dayandırılmasından başqa, DQMV ilə bağlı bütün problemlərin həll edilməsini tələb edir.

**22 noyabr.** Azərbaycanın digər şəhər və rayonlarında bu etiraz dalğaları yayılır. Gəncədə ordu ilə kütlə toqquşması baş verir. Üç hərbçi həlak olur.

**23 noyabr.** Topxanadakı qanunsuz tikinti dayandırılır.

**24 noyabr.** Bakıda, Naxçıvanda, Gəncədə xüsusi vəziyyət tətbiq edilir.



**5 dekabr.** 5 Dekabr gecəsi Bakıda Lenin adına meydandakı mitinqçilər sovet ordusu tərəfindən təmizlənir.

**5 dekabr.** Bakıda meydan əməliyyatında həlak olmuş azərbaycanlıların qətlinə etiraz olaraq kütləvi etiraz aksiyaları, iğtişaşlar baş verir. Daha 3 nəfər həlak olur.

**Dekabrın ikinci yarısı.** Əvvəlkilərdən fərqli olaraq, böyük qaçqınlar kütləsi – qovulmuş, qorxudulmuş, evlərindən nə isə götürməyə macal verilməmiş azərbaycanlılar piyada, yarıçılpaq, güllə yağışı altında itgi verərək Azərbaycanın digər ərazilərinə qaçırlar. Soyuqdan donmuş, həmçinin aldığı güllə yarasından ölmüşlərdən başqa, sağ qalmış neçə yüz insanı qarlı uçurumlardan mülki aviasiya xilas edir. Yolda itgin düşmüş, Arazı keçərkən boğulmuş, güllələnmiş, donmuş, ölmüş azərbaycanlılardan başqa, sağ qalan qaçqınların sayı isə artıq 165 mini ötür.

## *1989-cu il.*

**12 yanvar.** Azərbaycanın DQMV-də xüsusi idarə forması– **Xüsusi Təyinatlı İdarəçilik Komitəsi** yaradılır.

**19 aprel.** Spitakda baş vermiş zəlzələyə görə on minlərlə ermənimin Xankəndində yerləşdiriləcək qərarına etiraz olaraq Bakıda mitinqlər başlayır.

**20 aprel.** SSRİ Nazirlər Şurası Azərbaycan və erməni millətindən olan qaçqınlarla bağlı yardım edilməsi haqqında qərar verir.

**27 aprel.** Azərbaycan SSR NK qaçqınların Abşeron rayonunun Altıağac və Xızı zonalarında yerləşdirilməsi qərarını qəbul edir.

**Mayın birinci yarısı.** Azərbaycanın – Qarabağın ətraf rayon və kəndlərindən iş, həmçinin yaşayış yerlərindən qovulmuş azərbaycanlılar üçün açılmış sənaye obyektlərinin açılması Xankəndində ermənilərin etiraz mitinqinə səbəb olur. Yerevanda Ermənistan SSR Ali Sovetində DQMV-nin taleyinin müzakirəsi və həll edilməsi tələb edilir.

**May-iyun.** SSRİ xalq deputatlarının birinci iclasında SSRİ-nin Ali Soveti Dağlıq Qarabağ məsələsinə yenidən baxılmasına qərar verir.

**İyul.** Xankəndindəki erməni dəstələri tərəfindən Kərkicahan ov tüfənglərindən atəşə tutulur. Daxili qoşunların müdaxiləsi ilə hücum dayandırılır.

**11 iyul.** DQMV-də vəziyyət qəfildən kəskinləşir. Xankəndi yaxınlığında ermənilər tərəfindən 19 hərbi qulluqçu yaralanır. Bütün bunların müqabilində 3 azərbaycanlını qətlə yetirirlər.

**20 – 27 iyul.** SSRİ Ali Sovetinin DQMV üzrə komissiyası muxtar vilayətdə fəaliyyətinə başlayır.

**29 iyul.** Azərbaycandan Qərbi Azərbaycana – Ermənistana gedən qatarların hərəkəti erməni tərəfin dəfələrlə basqın və qətllərindən sonra dayandırılır. Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşür.

**1 avqust.** Ermənistanın Ararat rayonu ilə Azərbaycanın İliç rayonu arasında KƏRKİ kəndi yaxınlığında qarşıdurma – toqquşma baş verir.

**16 avqust.** Xankəndində «DQMV-nin səlahiyyətli nümayəndələri» Azərbaycanın tərkib hissəsi kimi onun muxtariyyətində qalmağı rədd edirlər.

**27 avqust.** Azərbaycan SSR Ali Soveti DQMV-dəki səlahiyyətli nümayəndələrinin 16 avqust 1989-cu il qərarını qanunsuz hesab etdi.

**2 sentyabr.** SSRİ MK-da Azərbaycanın və Ermənistanın MK Büro üzvlərinin və namizədlərinin görüşü keçirildi.

**Sentyabrın sonu.** Ermənistanda düşünülmüş məqsədli kütləvi hərəkata başlanılır. Azərbaycanlıların dəmir yolunun bağlanılması təxribatı, dünyaya bəyan edilmiş Ermənistan blokadasına səbəb – azərbaycanlıların etiraz aksiyası.

**6 oktyabr.** Azərbaycan və Ermənistan arasındakı dəmir yolu açılır.



**Oktyabrın sonu.** DQMV-də əhalisinin 97-% azərbaycanlılardan ibarət Şuşa rayonuna gedən avtomobil yolu ermənilər tərəfindən bağlanılır.

**Noyabrın ikinci yarısı.** Yenidən Ermənistan ərazisində Azərbaycanın dəmir yolunda təxribat – qatarlara hücum başlanılır. Blokada vəziyyəti yaranır. Azərbaycana məxsus qatarlar yenidən Ermənistan ərazisində saxlanılır.

**1 dekabr.** Ermənistan SSR Ali Soveti SSRİ konstitusiyasına zidd olaraq «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi» qərarını verir. Ermənistan parlamenti, hətta Dağlıq Qarabağın iqtisadi inkişafı ilə bağlı 1990-cı il üçün müəyyən plan da qəbul edir.

**Dekabrın 1-ci və 2-ci yarısı.** Ermənistanla həmsərhəd olan Azərbaycanın rayon və kəndləri erməni silahlı dəstələri tərəfindən hücuma məruz qalır. Erməni silahlı quldur dəstələri artıq yerli əhalini sıxışdıraraq Azərbaycanın Xanlar və Şaumyan rayonlarına qədər gəlib çıxırlar.

**7 dekabr.** Azərbaycanın Ali Soveti Ermənistanın 1 dekabr 1989-cu il tarixli qərarını suveren Azərbaycanın daxili işlərinə və ərazi bütövlüyünə yol verilməsi mümkün olmayacaq kobud müdaxilə kimi qiymətləndirir.

## *1990-cı il.*

**9 yanvar.** Ermənistan SSR Ali Soveti 1990-cı il üçün büdcə və plan üzrə Dağlıq Qarabağın sosial inkişafına xüsusi diqqət ayırır.

**11 yanvar.** Azərbaycanın Ali Soveti Ermənistanın bu aksiyasını pisləyərək Yenidənqurma ideyasına edilən təxribat kimi qiymətləndirir.

**13 – 14 yanvar.** Bakıda təxribatçılar tərəfindən törədilmiş kütləvi özbaşınalıq başlayır. 50 nəfərə qədər insan həlak olur.

**15 yanvar.** SSRİ Hərbi Şurası tərəfindən «DQMV-də və həmsərhəd rayonlarda fövqəladə vəziyyət» qərarı elan edilir.

**17–19 yanvar.** Azərbaycan KP binası qarşısında Rəhbərliyin İSTEFASINI tələb edən mitinqlər başlayır. Şəhərə daxil olmaq istəyən silahlı ordunun gəlişinə etiraz olaraq bütün yollar silahsız əhali tərəfindən piket və səddlərlə qorunur.

**20 yanvar.** Gecə ikən şəhərə yeridilən sovet ordusunun 29 000 əsgəri yollarda onların gəlişinə etiraz üçün dayanan insanlara avtomat silahlardan atəş açaraq, dinc sakinləri tankların altına salaraq, səddləri vurub dağıdaraq nəinki şəhərə daxil olur, hətta metrodakı insanları, binaların eyvanlarındakı adamları da güllələyirlər. Bakıda fövqəladə vəziyyət tətbiq edilir.

***«20 YANVAR – həm qəhrəmanlıq, həmdə böyük fəcıə səhifəsidir.***

***Biz tarixi hadisəni qeyd edirik, biz şəhidlərin məzarı qarşısındayıq. İndi Azərbaycan müstəqil dövlətdir. Siz də bu müstəqil dövlətin azad vətəndaşlarısınız. Bu azadlıq bizimçün hər şeydən vacibdir. Biz bu azadlıq naminə qurbanlar vermişik və bundan sonra da verəcəyik.***

***Xalqımıza qarşı göstərilən ədalətsizliyə görə Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə ayağa qalxdılar. Sovet İttifaqının qoşunları ölkəmizə basqın edərək onu əzmək istədi. O faciəli gün baş verdi. Biz şəhidlər verdik. Bu şəhidlərdən sonra da öz torpaqlarını qorumaq üçün, erməni təcavüzünə qarşı döyüşlərə gedən Azərbaycanın qəhrəman oğulları da burdadır. Şəhidlər şahidlərlə yanaşıdır. Azərbaycan dövləti özü-özünə başsağlığı verir».***

**Heydər ƏLİYEV**

**21 yanvar.** Azərbaycan SSR-nin Ali Soveti ordunun Bakını tərk etməsini tələb etdi.



**22 yanvar.** 20 yanvarın günahsız qurbanlarının dəfn mərasimində 1 milyon insan iştirak etdi.

Bu, bəlkə də, xronologiyanın tam görünən tərəfidir. Amma elə bu ardıcıllıqdan müəyyən etmək çətin deyil ki…

Təxribatın müəllif hüquqlarının ermənilərə məxsus olması aydın olsa da, digər tərəfin – Rusiyanın mövcudluğunun mütləqliyi də qaçılmazdır. Məsələlərin Dağlıq Qarabağda yox, Moskvada və Ermənistanda həll edilməsi, sinxron olaraq Ermənistanla Qarabağda separatist dəstələrin hərəkət inkişafı, mərkəzin məqsədli şəkildə tam laqeydliklə donmuş fəaliyyəti – birbaşa olaraq erməni separatistlərinin fəallaşması üçün əsas oldu. Bakının sistemsiz mövqeyi – Qərbi Azərbaycanda baş verənlərə biganəlik, yaxud hədsiz dözüm göstərməsi... Nəticə olaraq, Azərbaycana ən azı bu iki tərəfin 1990-cı ilin 20 yanvar adlı Qorbaçov zərbəsi ilə nəticələndi.

Səhəri küçəyə çıxan hər bir bakılı yollarda, səkilərdə qanına qəltan olmuş insan meyidləri, sahibi bəlli olmayan əllər, ayaqlar, başlar gördülər. Şəhərin başı üstündə isə aramsız uçan vertolyotlar dünən gecədən şəhərdə fövqəladə – komendant vəziyyəti elan edildiyini bildirən vərəqələr səpələyirdilər. «Günahkar rus ordusudur» – bu xalqın fikri idi. Rusların ünvanına söylənilən hər hansı ittihamlar da bu fəcıələrdən sonra yarandı. Tezliklə Rusiyada azərbaycanlı şovinizmindən əfsanələr danışaraq ordunun məhz rusları qorumağı məqsədini kütləvi informasiya vasitələri ilə yaymağa başladılar. Moskva qurduğu planı tam reallaşdıra bildi. Təbliğatı qurduğu mexanizmlə işlətməyə başladı. Əslində Azərbaycan həmişə müdafiə mövqeyini, mərkəzə sədaqət prinsipini əsas götürdüyündən onu başqa tale də gözləyə bilməzdi. Ermənilərin aqressiv mövqeyindən fərqli olaraq həmişə dözmək, tab gətirmək istəyən bizlərin bu gün ən azı sadaladığımız həqiqətlərə dünyanı inandırmaq cəhdimiz də müvəffəqiyyət qazanmır. Ən azı ona görə ki, vaxtıyla Azərbaycan-

da baş vermiş hər hansı bir etiraz, bəyanat Ermənistanda böyük hay-küy və birə-beş əvəzlə nəticələnirdi. Baş vermiş hadisələrdən sonra Azərbaycandan öz xoşu ilə getmiş ermənilər qaçqın salındıqları üçün Yerevanda böyük hay-küy qoparırdılar. Halbuki Ermənistanda dövlət səviyyəsində düşünülüb həyata keçirilmiş Qərbi Azərbaycandan və Qarabağdan bütün azərbaycanlıların deportasiyası planı həyata keçirilib «uğurla» bitmək üzrə idi. Biz isə dözüm nümayiş etdirirdik... Sovet hakimiyyətinin Qorbaçov dövründə arzularına tam çatan ermənilər üçün Azərbaycan təkcə at oynatmaq üçün nəzarətsiz meydan deyildi. Bu əsrlərlə ruslara etdiyimiz yaxşılıq və həmrəyliyin əvəzi idi. Bakıya vəhşicəsinə edilən hücum isə Qorbaçovun bu millətə xüsusi ikrahından başqa həm də bütün ədalətsiz mövqelərə cavab istəyəcək xalqın ruhunu tamamilə əzmək istəyi idi. Burda da ermənilər onu tək qoymadılar. Artıq bizə bəllidir ki, şəhərə yeridilərək insan cəsədlərinin üstündən keçən xüsusi ordunun tərkibinin yarısı ermənilərdən ibarət idi. Bu artıq təkzibedilməz faktdır. Bu gün biz 20 Yanvar hadisələrini çoxlarının inandığı kimi, SSRİ-nin dağılmaqda olan zəncirinin ən boş halqasını nəyin bahasına olursa-olsun saxlamaq kimi də qəbul edə bilərdik... Böyük qardaşın göz çıxardaraq o birilərinə dərs verməsi kimi də anlaya bilərdik... İmperiyanın ovcundan çıxıb çoxdan donmuş, indi oyanmış öz milli heysiyyatını qorumaq istəyinin vassallıq alçaqlığına məğlub olması kimi də qiymətləndirə bilərdik... Amma yox...

Bu, əslində məxsus olduğumuz millətə və artıq onun oyanmış milli şüuruna, indiyə qədər itirdiyi vətənini geri qaytarmaq israrına... ən nəhayət, azadlıq tələb edənlərin iradəsinə qarşı gözləmədiyimiz, ancaq mütləq gözləməli olduğumuz bir imperiya siyasəti idi ki... Zaman, hakimiyyət dəyişilsə də biz TÜRKLƏRƏ son anda göstərilməsi vacib olan xristianların CƏZA dərsi idi. Bu dəhşətli hadisələr biz azərbaycanlılara qəfil şillə kimi dəysə də, Azərbaycanın o zamankı «sahibləri» bu aqibətlə məlumatlandırıldığından nəticəni bilməyə bilməzdilər. Amma məxsus olduğu millətin dərdini birlikdə çəkməyi – öz acizliklərini boyunlarına alsalar da, bacarmadılar. Buna sadəcə, icazələri yox idi. Moskva onlara ancaq icraçı və iştirakçı rolunu tapşırmışdı... özfəaliyyəti onlara bağışlamazdı. Qadağaları keçmək – özündən, nökər mövqeyindən keçmək demək idi. Bütün zəhmətlərindən sonra «malades» almaq daha sərfəli idi, axı... Məhz bu «qanlı tamaşada» lal və kar rollarının kommunist ifaçılarına rəğmən İMPERİYADA tutduğu mövqe və şəraitin ən təhlükəli vaxtında milli geni hər şeyə üstün gələn ata ƏLİYEV isə kənarda qala bilmədi. Ümumilikdə, İMPERİYA SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, respublikaya qanunsuz olaraq yeridilmiş ordu 133 insanın qəddarlıqla öldürülməsinə, 744 nəfərin yaralanmasına, 5 nəfərin itgin düşməsinə, 841 nəfərin həbs edilməsinə nail oldu. Bundan başqa, 200-dən artıq evlər və mənzillər qarət edilərək yandırıldı, 80 avtomobil, həmçinin təcili yardım maşınları BTR-lərlə əzildi. Dövlətə məxsus müəssisələrin dağıdılması, partladılması isə 5637286 manat hesabında zərər vuruldu. Yekunlaşdırsaq... 1990-cı ilin 20 yanvarı erməni qəsbkarlarına Qorbaçovun hərbi əməliyyatlara başlamaq siqnalı idi... hətta belə bir parol da eşidildi: **«İspaniyanın səması buludsuzdur»**.

Xristianlar... Mən qəsdən erməni və rus ifadələri işlətmirəm. Onlardan fərqli olaraq, mən millət haqqında yox, böyük əksəriyyət haqqında danışıram. Onların müəyyən zamanlarda yerləri dəyişsə də, missiyaları dəyişmədi. Hətta son akkordu da babalarının – XI qızıl ordu heykəli qarşısında vurdular. Sonralar biz bu QƏTLİAMDA (xahiş edirəm, bu sözü unutmayın) həlak olanlara şəhidlər də deyəcəyik, qəhrəman da... və xüsusi olaraq o biri qətliamlardan ayıraraq QARA YANVAR deyəcəyik. Baxmayaraq ki, ilahi qanunauyğunluqdan burda 18-ci ilin ŞƏHİDLƏRİ yatır, onlar da qətliam şahidləri idilər. Bu, təsadüfi deyil. Düzdür, sonradan bizi Xocalı soyqırımı

faciəsi də gözləyirdi... Ancaq o da qətliam idi. O qətliam ki, bu millətin taleyinə xristianlar tərəfindən zaman-zaman yazılır. Biz onları fərqləndirsək də, onlar eyni məqsəd daşıyır. 90-cı ilin qətliamı – 90-cı ilə qədərki deportasiya ən azı 18-ci ilin davamı, SOYQIRIM siyasətinin növbəti mərhələsi kimi qəbul edilməlidir... Ardınca Xocalı soyqırımı da, həmçinin. Yoxsa, bu məqsədin ANA XƏTTİ itər. Edilən qətliamları növbəti faciə kimi qəbul etməklə, onları bir-birindən ayıraraq müxtəlif səbəblərlə izah edirik. Bu da düşünülüb çox peşəkarcasına həyata keçirilən, biz türklərin qətliamının məqsədinin itməsinə səbəb olur. Dəqiqləşdirək... Bizə indiyə qədər edilmiş milli qırğınların müəllifi zamanından, ictimai quruluşundan asılı olmayaraq, **xristianlardır**. Biri digərinin əlində alət olan zaman da var, vasitəyə çevrilmiş aqibət də, müxtəlif tərəfləri birləşdirəcək mənafe, sərvət, ərazi... daha nələr... Əminəm ki, proqramı idarə edən təkcə xaç daşımır. **Turan** məhv etmək missiyası daşıyır. Ən azı PYOTRDAN üzü bəri.

## I PYOTRUN
### vəsiyyətnaməsi

1725-ci ildə yazılsa, da 1738-ci ildə elan edilib. Tam məxfi olaraq... Bütün övladlarım bir-birindən sonra Avropa ölkələrində hökmran olacaqlar. Rus səltənəti daim yaşamalıdır. **Mən** bu vəsiyyətnaməni yazıram ki, gələcək nəsillərin əlində **Təlimat** olsun. (Bəlkə də, Pyotrun bütün vəsiyyətləri üzərində dayanmaq lazımdır, lakin biz bu günümüz üçün vacib ola biləcəklərin təhlilinə varsaq daha məqsədəuyğun olar.)

Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İSTANBUL olsun. Tez və yerli-yerində çalışıb, türklərə sahib olan şah dünyada ilahi şah olacaq. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə İran arasında fitnə-fəsad törətmək, dava-dalaş salmaq lazımdır. Bu işdə sünni-şiə məzhəbləri də çox kömək edə bilər. Rusiya nüfuzunu Asiyada qaldırmaq üçün sünni-şiə ixtilafı yaxşı vasitədir. Elə eləmək lazımdır ki, heç bir vaxt İranla Türkiyə dövlətləri bir-biriylə dil tapa bilməsin. Türklərin Avropa xalqları ilə təmas tapmasına isə qəti imkan verməməli. Əgər bu millət göz açıb öz hüquqlarını bir də qansalar, bu bizə böyük zərbə olar. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq xristian dini əqidəsini və mədəniyyətini ciddi təbliğ etmək, yaymaq zəruridir.



## *MƏXFİ QALSIN*

«Mən ruhaniləri dövlət işlərindən kənarlaşdırıb onları kilsələrdə məhdudlaşdırdım. Bizə gərək olacaq din siyasətini özümüz yerində həm yaymalı, həm də istifadə etməliyik.

...Cürbəcür tədbirlər görməliyik ki, müsəlmanlar pulsuz, ticarətsiz qalsın. Xüsusi ilə İranı tabe edib o hala salmaq lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu zəhmətsiz öldürməyə qadir olsun. Amma Türkiyə dövləti məhv olmadan İranın canını almaq məsləhət deyil. İran Türkiyədən üz döndərə bilər. Türkiyə isə cənubdakı türklərinə görə onlara rəhm edə bilər. ...Qafqaz xətti – şah damar mütləq əldə edilib, əldə saxlanılmalıdır. Biz bu damara Rusiyanın neştərini ilişdirə bilsək, min Əflatun belə çarəsiz qalar. Onda İran ölkəsi dəvə kimi müti...Türkiyənin isə axırıncı şöləsi sönəcəkdir. Vaxtı fövt etmədən Qafqazı zəbt və işğal edib, İranın daxili hakimlərini özünüzə xadim və müti edərsiz. Sonra Hindistana qəsd etməli. O məmləkət böyük ticarət yeridir. Əgər ələ keçirmiş olsaz, İngiltərə vasitəsi ilə hasil olunan pullar əvvəlkindən daha çox Hindistandan ixrac oluna bilər. Hindistanın açarı da Türkiyənin paytaxtındadır.

...Türkiyəni Avropadan mütləq ayırmalı. Yaxın ölkələrdəki türklərin birləşməsinə qəti yol verməməli. Yunanlarla sülh və dostluq etməli. Müharibə zamanı onlar sizə imdad edərlər. Yunanlar həmişə türklərdən zərər görüblər... onlara qarşı ittifaqa həmişə hazır-

dırlar. Əgər bunlara tam əməl edə bilsəniz bütün dünyaya sahib ola bilərsiniz».

1828-ci ildəki Rusiya ilə İran arasında bağlanmış «Türkmən-çay» müqaviləsindən sonra iki yerə parçalanmış Azərbaycan istər cənubdan, istərsə də şimaldan işğal olundu. QAFQAZI əldə edən ruslar bir qul kimi tabeliyində dayanan ermənilərə Azərbaycan torpaqlarında «Erməni vilayəti» yaratdı. İrandan, Türkiyədən ermənilərin böyük axınla Qərbi Azərbaycanda rusların köməyilə yaradılmış erməni vilayətinə köçləri başladı. Bu qurulmuş hərəkət xətti «Böyük Ermənistan» siyasətini hissə-hissə həyata keçirmək üçün ilkin başlanğıc idi. 1914-cü ildə Birinci Dünya müharibəsindən istifadə edən ermənilər «Böyük Ermənistan» siyasətini reallaşdırmağa çalışdılar. İllər boyu türk torpaqlarında türklərin özünə divan tutan ANDRONİK indi də XIX əsrin axırında nail ola bilmədikləri türk ərazilərini – geniş torpaqları ermənilərin ixtiyarına vermək üçün rus zabitlərini belə heyrətləndirən vəhşiliklə misli görünməmiş soyqırım edirdi. O bu əraziləri türklərdən tam təmizləməklə həm rusların imperiya siyasətinə xidmət edir, həm də onlara yol açırdı. Bu isə gələcəkdə Türkiyədə Erməni dövləti yaratmağın əsas bəndlərindən biri idi. Osmanlı imperatorluğunda bu məqsədinə çatmayan erməni Andronik Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsinə gələrək məqsədli şəkildə fəaliyyətini – türklərin qətliamını davam etdirməyə başladı. Andróniklə eyni vaxtda bolşevik kimi təqdim edilən Amazasp, Lalayan, Əmiryan da Azərbaycanın müxtəlif bölgələrində türk torpaqlarını türklərdən təmizləmək – özü də heyvani ehtirasla vəhşiliklər törədərək «Türk yoxdur – onun torpaq problemi də yoxdur» şüarıyla «Böyük Ermənistan» üçün digər ərazilər uğrunda daha amansız qırğınlara əl atdılar. Çox qəribədir ki, son vaxtlara qədər «Bütün xalqların xilaskarı» kimi tanınan və təbliğ edilən Rus bolşevikləri 1917-ci ildə dövlət çevrilişi etsələr də, əqidəcə ulu babalarına sadiq qaldılar. Demokratiya və milli azadlıq şüarlarıyla



«Bölünməz Rusiya» yaratmaq eşqiylə yaşayanlar müstəqil dövlət qurmaq istəyən xalqlara, xüsusən də Azərbaycan türklərinə qarşı xüsusi amansızlıq göstərdilər. Bu arzunu elə beşiyindəcə boğmağa çalışdılar. Bu zaman onların karına (Pyotrun dediyi yunanlar uzaqda idi) erməni daşnakları gəldi. İllah da ki, ermənilər özləri bu sevdada maraqlı idilər. Ən azı ona görə ki, ermənilər Qafqazda məskunlaşdıqları vaxtdan – xüsusi ilə I Pyotrun dövründən müstəqil dövlətlərini yaratmaq arzusunda idilər. Onlar gizli şəraitdə müəyyən mübarizələr də aparırdılar. Rus qoşunları ilə birgə Azərbaycanı işğal etməyə gələn erməni keşişləri, eləcə də erməni generalları əslində elə bu missiyanı həyata keçirmək üçün çalışırdılar. Nəhayət, Rusiya-İran müharibəsindən sonrakı bizə məlum tarixdə Azəri-türk torpaqlarında erməni vilayətinin yaradılması da bu siyasətin davamı idi. Rusiya da heç nə itirmirdi. Daim ona müti din qardaşından zaval gözləmirdi. Çarizmin xristianlaşdırma siyasətinin davamı kimi XX əsrin əvvəllərinə qədər Azərbaycanda 1 milyondan çox erməninin məskunlaşması həyata keçirildi.

Şaumyan əsrin əvvəllərində «HNÇAK»dakı, «Daşnaksütyun»dakı ermənilərdən fərqli olaraq, millətinin siyasi şüurunun inkişafından sonrakı mərhələni rus bolşevizmi ilə bağlayırdı. Onun Leninlə yazışmalarında millətin mənafeyi əsas yer tuturdu. O, 1905-ci il erməni-müsəlman qırğınlarında müqəddəs panislamist türklərin günahkar olduğunu bildirirdi. O, «erməni xalqı heç bir zaman öz səltənətini yaratmaq arzusunda olmamışdır» fikrini təkrar etsə də, əslində «erməni xalqı heç vaxt öz səltənətini yaratmaq arzusundan əl çəkməmişdir» işini görürdü. Qatı millətçi Şaumyan özünü bolşevik kimi göstərərək «Tələsmək lazımdır» əsərində göstərir ki... erməni əyalətləri siyasi şüurdan məhrumdurlar, buna görə erməni-müsəlman qırğınları davam edir. O, erməni əyalətləri dedikdə İrəvan, Qars, Şamaxı və başqa şəhərlərin də əsrin əvvəllərində erməni şəhərləri olduğunu iddia edir. Bir bolşevik kimi Rusiyaya tapınaraq bu

erməni millətinin də öz müqəddəratını həll etmək uğrunda çalışmasını arzulayır... MƏRKƏZ Stepan Şaumyanı Bakıda xüsusi səlahiyyətli fövqəladə bolşevik komissarı təyin etdi. O Şaumyan ki, Bakı Sovetinin iclasında heç kimdən, heç nədən çəkinmədən deyirdi:

**«Bakı Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir...»**

Avam müsəlman olan bizlər isə ona əl çalırdıq. Əlində Lenin mandatı olan Şaumyan Bakıdakı Qırmızı ordu hissələrinə rəhbərlik etməyi «Böyük Ermənistan» yaratmaq eşqilə yaşayan erməni millətçilərinə tapşırmışdı. Hər iki tərəf öz məqsədinə yetmək üçün uğurlu ittifaqa girdilər. Bədbəxt və sadəlövh Nərimanov... erməni daşnakların əməllərini LENİNƏ məruzə edərək ondan imdad diləyirdi... O, doğrudan da, xalqların xilaskarı Leninə ümid edirdi. Şaumyan isə tapşırığa layiqli hazırlaşmışdı. Məhz bu Bolşevizmi qəbul etmək istəməyən millətçilərin – türklərin qırğın planı artıq hazır idi. «Bu sahədə daşnakların ən görkəmli liderləri Andronik, Mikoyan, Amazasp, Lalayan, Saakyan, Əmiryan və başqa daşnaklar da yardımçı idilər». Ən maraqlısı isə o idi ki, Şaumyanı nəinki Bakı Sovetindəki daşnak əqidəli bolşeviklər, nəinki özünü dərk edən türkləri susdurmağı dövlət siyasətinə çevirmək istəyən rus şovinistləri, erməni milli komitəsi və yerli hakimiyyət də dəstəkləyirdi. 1918-ci il mart qırğınları (mən bu faktı QƏTLİAM adlandıracağam) məhz türkə nifrət edən ermənilərin köməyilə həyata keçirildi. Mərkəzin bu milləti özünə tabe etməsi üçün bütün üsulları məqbul bildiyindən daşnaklar nəinki sabah torpaqlarına sahib çıxacağı türkləri qıraraq həm ürəklərindəki nifrəti boşaldır, həm sabahkı BÖYÜK ERMƏNİSTAN ərazisinin genişliyinə işləyir, həm də böyük sahibin vəd etdiyi payı – erməni dövlətinin yaradılmasını istəyirdilər. Şaumyan bolşevizm bayrağı altında həyata keçirdiyi soyqırım nəticəsində 10 minlərlə azəri türkü öldürüldü. Rusiyaya Bakı Soveti Volqa ilə 80 mln pud neft göndərə bildi. Qırğınların səbəblərinin biri də neft Bakısını, təbii sərvətlərlə zəngin Azərbaycan torpaqlarını qan axıtmaq bahasına olsa da, əldə saxlamaq idi. Rusiya neftini itirmir, ulu bir xalqı vassallıqda saxlayır... Bu əməliyyatda ona dəstək olan ermənilərə gələcəkdə hansısa bir ərazi verəcəyi eyninə də gəlmirdi. Ermənilər isə bizi qırıb-qurtarmaqla tarixi türk torpaqlarının sahibinin izini silərək, oraya erməni əhalisi köçürdür, yalan tarixlə sabahkı torpaq sahibi kimi ermənilər daimi sakinləri olan yurd yerlərindən türklərin maddi mədəniyyətini yox eləməklə məşğul idilər. Biz isə Sosializmə inanaraq beynəlmiləlçilik ruhuna sadiq olduğumuzun sübutu üçün dəridən- qabıqdan çıxırdıq. Dünyanın qarışıq vaxtından istifadə edərək Zəngəzurda yerini möhkəmləndirən, türk dünyasının qatı cəlladı Andronikin dəfələrlə Qarabağa hücumu onun məğlubiyyəti ilə nəticələnmişdi. 20-ci ilin aprel çevrilişindən sonra ermənilər ruslarla intensiv danışıqlar aparmağa nail oldular. S.Orcenikidzenin Leninə, Çiçerinə, Stalinə vurduğu teleqramda deyilirdi: **«Mənim fikrimcə, Qarabağ və Zəngəzur təcili olaraq Azərbaycana birləşdirilməlidir. Mən Azərbaycanı məcbur edərəm ki, bu vilayətlərə muxtariyyət versin. Müqavilədə göstərilməmək şərti ilə»**. Azərbaycan qəzetinin 1920-ci il 2 aprel tarixli nömrəsində dərc olunmuş «Ermənistan birləşir» məqaləsində isə «Qars, İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ Ermənistanın xəritəsinə daxil edilib. İndi isə onu həyata keçirirlər. Bununçün də əvvəlcə İrəvan, Eçmiədzin, Sürməli, Bəyazid müsəlmanlardan təmizlənməlidir» sözləri yazılmışdı. Sovet hakimiyyəti ermənilər üçün əsrlərlə düşündüklərini həyata keçirməyə imkan yaratdı. Ermənistan sovetləşdikdən sonra SSR bəyan edir: Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasında heç bir sərhəd mövcud deyil. Naxçıvan və Zəngəzur Ermənistana keçir, Qarabağın dağlıq hissəsinə isə öz müqəddəratını təyinetmə hüququ verilir. Qərarda bu deklorasiyanın elanı N.Nərimanova tapşırılır. Dekabrın 1-də Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr edilmiş təntənəli iclasda Nərimanov deyir:

«Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratlarının təyini üçün tam hüquq verilir». Özünü Qafqazın əsl sahibi kimi aparan Orcenikidze elə həmin iclasda Nərimanovun çıxışını qəsdən təhrif edərək deyir: «N.Nərimanovun çıxışı çox xarakterikdir. Zəngəzur, Naxçıvan, Qarabağ sözlərinin mənasını anlamaq istəməyən ruslar üçün heç bir əhəmiyyəti yoxdur.

Hansısa Zəngəzur – məhsulsuz dağlar, suyu yox, çörəyi yox... orada heç nə yoxdur. Hansısa Dağlıq Qarabağ... Nə var, axı bu Qarabağda? Heç nə yoxdur. Bax, yoldaş Nərimanov deyir: «Onları özünüz üçün götürün. Götürün bu məhsul verməyən torpaqları Ermənistan üçün». Nərimanovun isə Orcenikidzelərin, Şaumyanların, Sarkislərin, Serebrovskilərin yanında lap bağırsa da səsi eşidilmirdi... 23-cü ilin 7 iyulunda Bakıda imzalanmış dekret Dağlıq Qarabağla bağlı qərarı tam bərkitdi. Cəmi bir ay sonra Dağlıq Qarabağın paytaxtı Şuşadan Xankəndinə köçdü, daha bir neçə ay sonra Xankəndi adlı ərazinin qədim adı dəyişilərək ona daşnak-erməni Stepan Şaumyanın adı verildi. Əlbəttə ki, ruslara verdikləri məruzədə isə STEPANAKERTLƏ Bakı kommunasının erməni bolşevikinin adını əbədiləşdirmək ifadəsi vardı. Ancaq 24-cü ildə qanuni status alan DQMV sonradan erməni tarixçiləri tərəfindən həmişə Ermənistanın tərkibində ola-ola, Azərbaycan muxtariyyətini daşıdığı göstərilirdi... 1930-cu illərdə tərtib etdikləri xəritələrdə Laçın dəhlizi adlanan ərazinin DQMV-yə və təbii ki, Ermənistana aid olduğu halda, Azərbaycanın ərazisi kimi təqdim edildiyinə etirazlarında israrlı idilər... 1963-cü ildə Xruşşova göndərilən teleqramla 2500 qarabağlı erməni Bakının bütün mövqe və qərarlarını rədd edərək Azərbaycandan imtina etdiklərini bildirdilər.

Moskva cavab vermədikdə ermənilər Qarabağda özbaşınalıq törədərək 18 azərbaycanlıya xəsarət yetirdilər. Gərginliyi 68–70-ci illərə apara-apara yerlərdə erməni əhalisinin sayını 80 % qədər artırdılar. Bizə indi bəlli olan şəkildə təbii ki, 1965–69-cu illərdə Naxçıvanın, Qarabağın Ermənistana verilməsi məsələsi daha çox hallandırılır, guya məsələnin artıq həll olunduğunu da söyləyirdilər.



**H.ƏLİYEV sonralar o günləri belə xatırlayırdı:**

***«1950–60-cı illərdə mən DTK-da işləyirdim. Biz bu məsələlərin qarşısını bir neçə dəfə almışdıq. 1967-ci ildə Dağlıq Qarabağın mərkəzində qanlı bir hadisə oldu. Ermənilər o vaxt 3 azərbaycanlını avtomobilin içindəcə yandırmışdı. Mən o zaman oraya getdim, 15 gün orda qaldım. Böyük bir komissiya yaradılmışdı, mən də o komissiyanın tərkibində idim. Dəhşətli vəziyyət yaranmışdı. Onda da ermənilər ayağa qalxmışdılar ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır».***

Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın tərəqqisi SSRİ kimi nəhəng imperiyaya səs salmışdı. Azərbaycan artıq dünyada öz iqtisadi potensiyası və tərəqqisi ilə tanınırdı. Mərkəzin ayırdığı dotasiya hesabına yaşayan, Sovetlər birliyində ən son yerlərdən birində olan Ermənistanda isə bütün bunların əvəzinə millətçilik gün-gündən güclənirdi. Koçinyan dövründə millətçilər, patriotlar daha da artırdı. Ölkədə yüksək postlara qatı millətçilər, şovinistlər – bir sözlə Türk dünyasına nifrət edənlər təyin edilirdi. Təbii ki, düşünülmüş şəkildə. Koçinyan Qarabağ, Naxçıvan uydurmalarını, kütləvi şəkildə olmasa da, respublika daxilində qatı millətçiliyi, antiazərbaycan, antitürk siyasətini gücləndirirdi. Sonralar, 1988-ci ildə Koçinyan deyəcəkdi: «Mənim rəhbərlik etdiyim dövrdə QARABAĞ məsələsi dəfələrlə qaldırılmış, lakin H.Əliyevin nüfuzu və Mərkəzdə sözünün daha çox kəsəri olduğu məhz mənim məsələni həll etməyimə mane oldu». Bizə bəllidir ki, Əliyevin etirazları və müqavimətindən sonra SUSLOV Koçinyanı yanına çağıraraq **«хватит армянского национализма»** – demişdi. ATA ƏLİYEVİN ciddi-cəhdindən sonra Brejnevin dövründə erməni millətçiliyinə, «QARABAĞ», «NAXÇIVAN» problemlərinə nöqtə qoyuldu. Təbii ki, Brejnevin vəfatı İrəvanda bayram kimi qarşılandı. Koçin-

yan etiraf edirdi ki, daşnakların siyasətinin həyata keçməsində H.Əliyev ermənilər üçün böyük əngəl idi. 23 noyabr 1973-cü ildə Xankəndində Dağlıq Qarabağın yaradılmasının 50 illiyi yüksək səviyyədə qeyd olunan mərasimdə ata Əliyevin dəmir məntiqli çıxışı Yerevana dözülməyəcək yara vurdu. Sonralar, illər keçsə də, ermənilərin heç cürə bağışlamayacaqları ata Əliyev şüarı isə belə idi:

***«Bəzi millətçi dairələr şayiə yayırlar ki, guya DQMV Ermənistan SSR-nin tərkibinə verilməlidir. Dağlıq Qarabağ həmişə Azərbaycanın tərkibində olub, bu gün də Azərbaycanın tərkibindədir, sabah da belə olacaq!».***

Sonralar, məhz ƏLİYEV hakimiyyətdən tamam uzaqlaşdırıldıqdan sonra ermənilər bu çoxillik cəhdlərinə nail olacaqdılar...

Bakıya vəhşicəsinə ordu yeridildi... Söhbət, doğrudan da, sivil və demokratik quruluşdan gedirsə, ordunu faşizm başlanan yerlərə yeritmək düzgün olardı. Bütün Ermənistanda, 1988-ci ildə yerli hakimiyyətin köməyi ilə azərbaycanlılar yaşayan sahələrin avtobus dayanacaqlarında, darvazalarda, evlərin bloklarında, ictimai-iaşə binalarının girəcəyində aşağıdakı məzmunda vərəqlər yapışdırılırdı:

**«Erməni milləti! Sən 1915-ci ildəki qanlı dəhşətləri unutma! Tələt paşanı, Ənvər paşanı, Camal paşanı unutmaq olmaz! Kim erməni adını daşıyırsa... həmişə Xatırla və yaşa. Türkü tarixi torpağından qov! Ona erməni bulaqlarının suyunu vermə! Erməni qadınlarının bişirdiyi çörəyə türk əli dəyməməlidir. TÜRKLƏR... bizim ölkədən rədd olun!»**

Və QARABAĞIN işğalına qədər Qərbi Azərbaycanı Ermənistan adlandıran ermənilər azərbaycanlıların yaşadığı 185 kəndi tamamilə əhalidən təmizlədilər, 230 000 azərbaycanlını qovaraq yurdlarından qaçqın saldılar. Azərbaycanlılara məxsus 31 000 ev, 165 kolxoz və sovxoz qarət edildi. 216 azərbaycanlı vəhşicəsinə öldürüldü...



1154 nəfər isə yaralandı. 100-dən çox azərbaycanlı oğullarının – ermənilər onlara türk deyirdi – doğmalarının yanında eynilə 1915 və 1918-ci illərdəki kimi, gözləri çıxarıldı...

Azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldığı illərə aid sənədləri araşdırarkən dəhşətli vəhşiliklər törədən ermənilərin etdiklərini bir-bir sadalasam sizdə qarşısıalınmaz dəhşətli qisas hissi oyadaram ki... sonra məni qeyri-humanizmdə günahlandırarlar. İçimi yeyən sual isə budur ki, doğrudanmı, zaman-zaman edilən bu vəhşiliklər bu məmləkəti idarə edənlərin milli heysiyyatına toxunmayıb?

Toxunubsa... torpaqlarımızın müəyyən hissələrini onlara sadəcə peşkəş verməyi ləyaqətlərinə necə sığışdırıblar? Çox ritorik səslənsə də, bizim milli şüurumuz niyə belə gec formalaşır? Əslində ermənilər Qarabağın onların olmasını onunla əsaslandırırlar ki, tarixən bu yerlərdə ermənilər yaşamışlar. İndiki vəziyyətləri isə hindu aborigenlərinin aqibəti ilə üst-üstə düşür. Guya Qarabağda ermənilər yerli əhali olsa da, gəlmə etnoslar tərəfindən onların torpağı zəbt edilmişdir. 1801–1828-ci illərdə Rus imperiyasının apardığı siyasət nəticəsində **bütöv** Azərbaycan iki, sonra üç yerə bölündü. Şimali Azərbaycan ruslar tərəfindən, cənubi Azərbaycan farslar tərəfindən mənimsənildəndən sonra... üstəlik qoynunda yer verdiyi – indi ona qənim kəsilən gəlmə ermənilərin vilayəti də yaradıldı. XIX əsrin sonunda zəngin neft yataqlarına malik Bakıya ermənilərin nəinki kütləvi axını başladı, ermənilər məhz bu sahədə, demək olar ki, bütün məsul vəzifələri tutmağa cəhd göstərərək buna nail oldular. Onlara kömək edən, təbii ki, ruslar və rus bolşevikləri idi. Din faktoru ən güclü faktorlardan olsa da, neftdən götürəcəyi mənafe daha vacib məqsəd idi. Yerli əhali olan azərbaycanlılarla ermənilər arasında nifaq mütləq idi. Qanlı toqquşmalar BAKIDA başlansa da, son-

radan Şuşada – Qarabağda daha böyük vüsət aldı. 10 000 qurban bahasına başa gəldi budəfəki toqquşma. Və səbəb də, əslində görünən deyildi. İlk Sovet hakimiyyəti də elə Azərbaycanda quruldu... Bolşeviklərə neft lazım idi, axı... Qızıl ordu Bakıya daxil olanda Azərbaycan onun Zəngəzur, Naxçıvan, Qarabağ ərazilərinə iddialı olan ermənilərlə müharibə aparırdı. Noyabrda böyük vədlərdən sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Sovet hakimiyyəti dövründə bu müharibələr bir qədər səngisə də, bu, ermənilərə edilən güzəştlər bahasına oldu. Azərbaycanın torpaqları yavaş-yavaş ermənilərin ixtiyarına verildi. Qarabağ, Zəngəzur, Naxçıvan... Ermənilər rus dəstəyi və sursatı ilə yerli əhalini ya tamam qılıncdan keçirib, izini bu torpaqdan tamam silirdi, ya da göstərdiyi işgəncələr nəticəsində onların birdəfəlik bu ərazini tərk etməsinə nail olurdu. Ərazidə erməni millətindən olan əhalini yerləşdirərək nə vaxtsa bu ərazilərin sakinlərinin ancaq ermənilərdən ibarət olduğu təsdiqi siyasətini aparırdılar.

Azərbaycanın bədnam tarixi isə yazılmaqda idi. 1918-ci ildə Azərbaycan rəhbərliyi İrəvan ərazisini ermənilərə güzəştə getdi. 1920-ci ildə Yeni Bəyazidin Basarkeçər mahalı və Zəngəzur qəzası da ermənilərə bağışlandı. Sonra Qazax qəzasının cənub hissəsi Dilican da əldən çıxarıldı. Sovet hakimiyyəti dövründə istəklərini birə- beş artıran ermənilər azərbaycanlıların müqavimətinə rəğmən 22-ci ildə Göyçəni, 23-cü ildə Naxçıvanın 9 kəndini, 29-cu ildə Qazağın 5 min hektar ərazisini, Cəbrayıl qəzasının böyük bir hissəsini mənimsədilər. 46-cı ildə də 4 min hektar sahə ermənilərə verildi. Düşünülmüş şəkildə Azərbaycan üçün strateji baxımdan çox əhəmiyyətli Naxçıvanı ondan ayırdılar. Naxçıvanla Azərbaycan arasındakı bütün ZƏNGƏZURA yiyələndilər ki, dişlərini çoxdan qıcadıqları Naxçıvanda etnik təmizləmə apararaq türksüz Ermənistan



torpaqları siyasətinə daha asan nail olsunlar. Yenə də türk qardaşlarımızın və həmişə nümunə olacaq yerli əhalinin qətiyyətinə minnətdar olaraq ermənilər bircə bu arzularına çata bilmədilər. Maraqlı fakt budur ki, sovet dövründə yerlərdə kəsilən türk başlarının izahı Mərkəzə qəhrəman sərkərdə Andronikin – Sovet hakimiyyətinə kömək göstərən bolşevikin, Sovet hakimiyyətini Türkiyə müdaxiləsindən və yerli millətçilərdən təmizləməsi kimi təqdim edilirdi. Türk ordusunun köməyi nəticəsində Azərbaycanın müstəqilliyə qovuşması, 2 il azad yaşaması... 15 sentyabrda Bakını erməni və ruslardan alıb həqiqi sahiblərinə verməsi... türk ordusunun bu hərəkəti Rusiyanı qəzəbləndirməyə bilməzdi. Rusiya rahat istifadə etdiyi Bakı nefti üzərindəki hədsiz mülkiyyət haqqını itirmişdi. Mənafe öz yerində, keçmişləri də xatırlasaq, ruslar Böyük Turanın bir hissəsi kimi bu ərazilərin də məhz türklərdən təmizlənməsində maraqlı idilər. Pyotru xatırlayın...

Vəli Həbiboğlunun qeyd etdiyi mühüm bir fakt: ermənilər bu vəhşilikləri milliyyətcə türk olan müsəlmanların başına açmışlar. Müsəlman anlayışı çox geniş olub, təkcə türkləri özündə əhatə etmir. Ermənilər yalnız milliyyəti türk olan müsəlmanlara qarşı belə soyqırım siyasətini həyata keçirmişlər. Çox dəqiq anlaşmadır. Zaman-zaman ermənilərin bu siyasəti məhz, türk qardaşlarımızın köməyi ilə səngiyib, söndürülüb, dayandırılıb. Elə 18-ci ildə də Nuru paşa başda olmaqla Bakının xilası – bütövlükdə Azərbaycanın daşnaklardan xilası ancaq türklərin köməyi ilə mümkün oldu. S.Şaumyan «Milli-mədəni muxtariyyət» adlı məqaləsində yazırdı: «Gələcək azad Rusiyada yeni inzibati bölgü olmalıdır. İqtisadi və məişət şəraitdən başqa milli tərkibi nəzərə almaqla xırda mahalların, qəzaların, vilayətlərin sərhədlərini dəyişdirməlidir». Budur Şaumyan fəaliyyətinin ana xətti. Çox böyük uzaqgörənliklə irəli sürülmüş bu

fikirlə sonradan hesablaşan Lenin Ermənistan Respublikası yaranan zaman Nərimanov hayqırtısına məhəl qoymadan özünü hamıdan tez Rus bolşevizminin qucağına atmış Azərbaycanın tarixi torpaqlarını alıb Ermənistana verməklə ilk Ermənistan dövlətini yaratmışdır. 1923- cü ildə isə Azərbaycan ərazisində ikinci erməni dövlət qurumu olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına sərəncam verdi. Bu artıq **«Böyük Ermənistan»**ın tərkib hissəsi idi. Hidayət yazır: 1969-cu ilin iyul ayının 14- də H.Əliyevin Azərbaycan KP MK-nın 1-ci katibi seçilməsi o illərdə Ermənistanın 1-ci katibi Anton Koçinyanı çox maraqlandırmışdı. H.Əliyev DTK-dan gəlirdi, axı. Zəng edib onu təbrik də etmiş, yaxın günlərdə Dilicana tanışlıq görüşünə gəlməsini də xahiş etmişdi. Koçinyan narahat idi. Ermənistan ötən 10 illiklərdə Azərbaycana qarşı törətdiyi təcavüzləri yenə də davam edə biləcəkmi? Və növbəti dəfə Azərbaycan torpaqlarının Ermənistana pay verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında problem yaranacağını – özü də H.Əliyev tərəfindən yaranacağını ağlına da gətirə bilməzdi. Üzdə olan, açıqlanan maraq əməkdaşlıq məsələləri idi. Deyilməyən şəxsi maraqlar isə daha qabarıq idi. Koçinyan Əliyevlə olduqca tez görüşmək istəyirdi. Əliyev də onunla görüşə maraqlıydı. İlk növbədə qonşu respublikada genişlənməkdə olan millətçilik, antiazərbaycan kompaniyasını söndürmək üçün danışıqlar aparmaq və yəqin ki, bu siyasətə qarşı Azərbaycanın kəskin mübarizə aparacağını bildirmək üçün. Qazaxdakı görüşdən sonra H.Əliyev Koçinyana, sonra Moskvaya qəti şəkildə bəyan etmişdi:

**«O QƏRARLARIN KİFAYƏT QƏDƏR ƏSASI OLMADIĞI ÜÇÜN, İCRASINA İMKAN VERƏ BİLMƏRƏM».**

Bu bəyanat o vaxtacan 49 il Sovet hakimiyyəti dövründə Azərbaycan rəhbərlərinin Ermənistan hakim dairələrinə və Moskvaya



ilk sərt etirazı idi. SSRİ-nin Ali Sovetində DQMV-nin rəhbərlərindən biri sayılan Dadamyan qeyd etdi ki, Bakıda törədilən Qanlı Yanvar sovet ordusunun Azərbaycana Sumqayıt hadisələrinin əvəzində verilən cəza idi. Sumqayıt hadisələrini erməni separatistləri SSRİ-nin KQB-si ilə birlikdə hazırlamaqlarına baxmayaraq, Qorbaçov Azərbaycan xalqından bunun intiqamını aldı. Bu o vaxtlar bizi çox heyrətləndirən ikili standart idi. Növbəti qırğın üçün təxribatlar isə davam edirdi. Primakov Qafqazın şeyxi A.Paşazadəyə hakimiyyəti əlinə almağı təklif edir. Təbii ki, bundan imtina edən şeyx onu və məmləkətini nələr gözləyəcəyini yəqin edə bilərdi... O zaman sovet təbliğat maşını Azərbaycanda dinin hakimiyyətə gəldiyini – İSLAM dövləti olduğunu, yeni islam fundamentalizm qorxusunu bağıracaqdı. Arkadi Volski demişdi: «Primakov digər siyasətçilərdən fərqli olaraq harda, nə dediyini çox gözəl bilir. Onun dediyi fikrin arxasında nə dayandığını yerli hakimiyyət anlaya bilməzdi». Primakov məharətlə fikirlərinə başqa don geyindirdi. Xatırlasaq... PRİMAKOV 1918-ci ildə Şaumyanın getdiyi yolu eynilə, həm də çox ustalıqla təkrar edirdi. Şaumyan Leninə 1918-ci il 13 apreldə verdiyi məlumatda yazırdı: «3 gün ərzində, 30–31 mart və 1 apreldə Bakıda iki tərəf – bizim Qızıl Ordu ilə bərabər vuruşan erməni milli dəstələrilə müsavat partiyasının rəhbərlik etdiyi müsəlmanlardan ibarət «vəhşi diviziya» arasında qanlı döyüşlər getdi. Bizə aviasiya məktəbinin qüvvələri də kömək edirdi. Bu döyüşdə biz parlaq bir qələbə əldə etdik. Düşmən darmadağın edildi. Hər iki tərəfdən 3 min nəfərə yaxın ölənlər var. Əgər onlar qalib gəlsəydi... qeyri-müsəlmanların taleyi haqqında danışmamaq da olardı». Bunlar quldur Şaumyanın lazım bildiyi informasiya versiyası idi. Əslində o çox gözəl bilirdi ki, ancaq Bakıda öldürülmüş, özü də dinc müsəlman, daha doğrusu, türk millətindən olan sakinlərin sayı 12 mini ötmüşdü. Əlbəttə, bilirdi... xüsusi tapşırığı da özü vermişdi. Amma verdiyi

məlumat başqa idi. Bakıdakı 90-cı ilin yanvar qətliamının da traktovkası Primakova gün kimi aydın idi. Ancaq o da Şaumyan kimi yanlış informasiya verirdi. Dəsti-xətt eynidir. Fərq onda idi ki, Şaumyan Leninə, Primakov isə Qorbaçova məruzə edirdi. Əslində böyük məqsəd baxımından heç bunda də fərq yox idi. Dəyişən soyadlar idi... əməl və taktika yox. Və elə 90-cı ilin 20 yanvarında da Bakıda edilən qətliamdan sonra rus və erməni qardaşları Azərbaycanın digər bölgələrində fövqəladə vəziyyət elan edilənə – 25–26 yanvara qədər qırğınlar törətməkdə davam etdilər. «LE MOND»un müxbiri Bernar Qetta Spitakdakı zəlzələdə həlak olmuş erməni uşaqlarının cəsədinə baxan SSRİ-nin baş katibi Qorbaçovun göz yaşları axıtdığını yazırdı. Amma Bakıda ordu tərəfindən vəhşicəsinə öldürülən azərbaycanlıları görmürdü. Budur ikili standart. Əgər Qorbaçovun vaxtında Ermənistana hərbi yardım qeyri- rəsmi xarakter daşıyırdısa, Yeltsin buna daha fundamental, daha uzunmüddətli xarakter verdi. Ən əsası isə Rusiya ilə Ermənistanın hərbi əməkdaşlığı Yeltsinin düşərli əli ilə tamamilə Azərbaycanın əleyhinə yönəldi. Müstəqilliyinin ilk illərində Azərbaycan avamlıqla BMT-yə inanırdı, böyük ümidlər bəsləyirdi. Ermənistan Kəlbəcəri işğal edəndə Ə.Elçibəy bəyan etdi ki, nəhayət ki, BMT-nin Ermənistanı işğalçı bir ölkə kimi tanımağı və onun haqqında lazımi tədbirlər görməyi üçün təkzibedilməz fakt yarandı. Azərbaycanın BMT-dəki nümayəndəsi də dövlət televiziyası ilə, həyəcanla bu fikri təsdiq etdi. Onları başa düşmək olardı. O zaman biz dünyanın bizə bu qədər amansız və ədalətsiz olduğunu bilmirdik. Biz buna çox sonralar əmin olacaqdıq. Məlum vertolyot qəzası zamanı – Azərbaycanın ziyalı seçmələrinin erməni terrorçuları tərəfindən müəmmalı qətlindən dərhal sonra, o zaman istər dövlət, istərsə də hakimiyyətdə heç bir məsul vəzifəsi olmayan V.Polyaniçko hadisə yerində peyda oldu. Ən maraqlısı isə o idi ki, orda olan yüksək çinli zabit, hətta generallar belə dəqiqələrdə bir ona yaxınlaşıb məruzə edirdilər. Növbəti məruzədən – ermənilərin bu ərazidəki sonuncu Azərbaycan kəndini tam yandırdığı xəbərindən sonra, o xeyli düşünüb, sonra astadan «indi bircə Xocalı qaldı» – deyir. Azərbaycanlı jurnalist ona «Viktor Stepanoviç, siz ki hakimiyyəti təmsil etmirsiniz. Niyə generallar sizə məruzə edir?» sualına o, əsəbiləşmədən, xeyli pauzadan sonra, «sizin başqa sualınız var?» – deyə soruşdu. Xocalı faciəsinə isə cəmisi bir neçə gün qalırdı. VƏ...TÜRKLƏRƏ edilən növbəti, ancaq bir az genişmiqyaslı qətliam – XOCALI faciəsi edilən vəhşiliklər mənzərəsinə görə dünyanı silkələdi. Butros Qali, Sayrus Vens, bütun TÜRKİYƏ və onun rəhbərləri, İran, hətta Ceyms Beyker, Corc Buş... daha kimlər minlərlə günahsız qurbanlar üçün kədərləndiklərini bildirdilər. Təkcə Yeltsin cinayətkarcasına susdu. Hətta, protokol xatirinə başsağlığı da vermədi – bunu Pompeyev yazır. Amma 31avqust 1997-ci ildə Rusiya Rrezidentinin mətbuat xidməti «Yeltsinin şahzadə Diananın həlak olma xəbərindən dərindən kədərləndiyini, matəmə batdığını» elan etdi. XOCALI qətliamı onun eyninə də gəlmədi. Yenə ikili standart. Həmin o Yeltsinin Xankəndində qardaş adlandırdığı erməni separatistlərini bağrına basaraq «Biz sizi bu bəladan qurtaracağıq» – deməsi sonradan Dağlıq Qarabağdakı erməni terroristlərinin dilindən uzun müddət düşmədi. Hətta Daşkənddəki müşavirə zamanı da L.Ter-Petrosyanı qucaqlayaraq «Mən o türkləri sənin qarşında diz çökdürəcəm» – demişdi. Yeltsin Azərbaycana qarşı siyasi məkrini heç gizlətmək fikrində də deyildi. 1991-ci ilin avqustunda Yeltsinə «Bakıdan gələn demokratlar sizi qələbəniz münasibətilə təbrikə gəliblər» – deyə məlumat verəndə, o, ikrahla: «Mən onların erməni qanına bulaşmış əllərini sıxa bilmərəm» – demişdi. V.Q.Mityayevin yazdığına görə, 1993-cü il 6 sentyabr tarixində Əliyev Rusiya – Azərbaycan münasibətlərini aydınlaşdırmaq üçün Moskvaya gəldi. Yeltsinlə görüşdən sonra H.Əliyev

bu görüşlə Azərbaycan – Rusiya münasibətlərində yeni – ilk addımın atıldığını bildirdi. 26 sentyabrdan Azərbaycan MDB-nin bir üzvü oldu. 1987-ci ildən artıq ermənilərin açıq-aşkar Azərbaycana və onun vətəndaşlarına qarşı terror aktları həyata keçirməsinə baxmayaraq, Avropa parlamenti «Ermənilərin soyqırım gününün anılması»nı qəbul etməklə məhz ermənilərin tərəfində olduğunu nümayiş etdirdi. 1996-cı ildə isə Azərbaycanın 20% ərazisini işğal edən ermənilərin «soyqırım gününü» Yunanıstan parlamenti təsdiq etdi. Bütün Rusiyanın patriarxı Aleksey Yerevana gedib, sonra Varonejdə ermənilərin soyqırım günü ilə bağlı konfrans təşkil edir... Stavropolda erməni kilsəsi açır... Hal-hazırda ermənilərin nə etdiklərini isə görmürlər... Bunlar neçəli standartlara aiddir, görəsən? Bir sözlə, ermənilərin Azərbaycanda həyata keçirdiyi qətliamları – heç olmasa Bakıdakı və Xocalıdakı faşizmi «öldürmək olmaz» prinsipiylə mövcud olan Roma katolik kilsəsi də pisləmədi. Ukraynada erməni kilsəsinə xüsusi olaraq təşrif aparan Roma papası Ermənistana məqsədli şəkildə gedərək milyon tamaşaçı qarşısında Qarabağ terroristləri – Köçəryan və Qukasyanla görüşərək Qarabağla Vatikandakı xristian missionerlərinin internet əlaqəsinin vacibliyindən danışdı. Azərbaycana gəlişi zamanı isə nə azərbaycanlıların qətliamları, nə də bugünkü soyqırımları haqqında bir kəlmə də demədi. Yerevanda olduğu zaman isə Türkiyə rəsmilərini qıcıqlandırmamaq üçün Roma papası soyqırım ifadəsini işlətməyə ehtiyat etsə də, onu faciə ilə əvəz elədi... özü də ermənicə EQERNİ adlandırdı. Mənası ermənicə elə soyqırım deməkdir. Yerevan muzeyinə hədiyyə edilən Roma papası XV Benediktin Soltan Məhəmmədə Osmanlı İmperiyasındakı ermənilərə zəmanət verməsi haqqında 1915-ci il 10 sentyabr tarixli məktubun əlyazması həmişə erməniləri qanadı altına alan əbədi kilsə siyasətindən xəbər vermirmi? İslam fundamentalizmi, türk qaniçənliyi haqda bağıran xristianlar heç nədən çəkinmədən özlərinə missiya bildikləri qənimimizə çevrilmək işini görürlər. Bizlər isə hələ də düzgün başa düşülməyəcəyimizdən qorxuruq. Oljas Süleymenovun SSRİ Ali Sovetində Spitaka kömək üçün uçan, hələ də səbəbləri açılmayan qəzada həlak olan azərbaycanlılar üçün abidə qoyulması təklifi ilə çıxış edən zaman ona dikilən baxışların nifrətinin bir səbəbi vardı – O da TÜRK idi. Demək olar ki, bütün dövlətlər ermənilərə çətin vaxtında kömək etdikləri halda, Azərbaycana Türkiyədən başqa, demək olar ki, heç kim əl uzatmadı. Və bu vəhşiliyinə görə daima sülh çağırışçıları, dünyaya sivil dərsi keçənlər ermənilərə hətta siyasi formada olsa da, narazılıq etmədilər. Çünki onlar xristiandırlar. Türkdilli ölkələr isə yenə yeni bir nümunə göstərdilər. Türkdilli ölkələrin sammitində Türkiyənin Prezidenti Süleyman Dəmirəl türk ölkələrinin həmrəyliyi və Qarabağ məsələsində daha həssas olmağı bəyan edər- etməz Orta Asiya və Qazaxıstan adından Nazarbayev etirazını bildirərək qeyd etdi ki, bu sammitdə türkdilli ölkələrin mədəni əlaqələri müzakirə olunacaq. Bax belə... doğma türk mənşəlilər...



Müsəlman ölkəsi İran isə Ermənistanı tamlıqla ən çox ehtiyacı olan ərzaq və başqa mallarla təmin edir. Bir zamanlar Ter-Petrosyan deyirdi: «Əgər bircə gün İranla Ermənistan arasındakı ticarət müqaviləsi pozulsa Ermənistan diz çökər». İRANIN bu nəcib addımını və təbii ki, köməyini Azərbaycan heç bir zaman unuda bilməz. Müsəlman ölkələrinin ərazi və əhaliləriylə bağlı layihələrin rəhbəri «ASALA»nın sovetlər dövründə əsas siyasi hərəkət xətti o zamankı sərhədlər daxilində Dağlıq Qarabağdakı ərazi və əhalinin qəsbi ilə başladı. «Müasir terrorizm» adlı kitabında KOYUŞKO yazır: «ASALA TERRORÇU TƏŞKİLATDIR. Onun əsas məqsədi Ermənistanı BÖYÜK ERMƏNİSTANA çevirməkdir. Söylədikləri tarixi torpaqlarını geri qaytarmaq üçün bütün vasitələrdən istifadə etmək onlar üçün məqbuldur. Tarixi torpaqları isə – şərqi Türkiyə, yəni

QARS, ƏRZURUM, VAN, ARTVİN, həmçinin Şimali İran, Azərbaycandan isə əsas Naxçıvanı bütövlükdə və Dağlıq Qarabağ». Kimlərisə oyatmaqdan çəkinən BİZİMKİLƏR... Hələ də bu günə qədər bu və ya başqa qətliamları bir- birindən ayırıb müxtəlif adlar qoyuruq. Günahkarı içimizdən axtarıb qara haşiyəyə alırıq, əks hücuma keçmək haqqında isə düşünmək istəmirik. Ermənilər tarixi müharibəni paralel olaraq həm milli şüurlarda, həm də əməllərində aparırdı. Biz isə hələ indi-indi anlayırıq ki, milli şüurların formalaşması üçün səssiz müharibə başlamalıdır. Dünən Pyotr idi, sonra Lenin, sonra Qorbaçov, Yeltsin...kim dedi ki, sonu var? Və kim deyə bilər ki, ermənilər başqa müttəfiq tapmayacaqlar? İllah da ki, Azərbaycan adlı məmləkətlə bağlı onların mənafeyinə uyğun daha başqa güclü dövlətlər də var, axı... Hər birinin də türklərin məhvində maraqları birləşir. Türk qanına susamaq öz yerində, ermənilər Xocalı qətliamında həm də strateji baxımdan onlar üçün çox vacib məkanı – 7000 əhalisi olan şəhəri əldə etdilər. Ağdam-Şuşa, Əsgəran-Xankəndi yolunu, Qarabağda yeganə hava limanını ancaq öz nəzarətində saxlamaq vacibliyi var idi. Nəticə: 613 nəfər vəhşicəsinə öldürüldü. Onlardan 63-ü uşaq, 106- sı qadın, 70-i qoca idi. 8 ailə tamamilə məhv edildi. 25 uşaq tam valideynsiz qaldı. 130 uşaq atasını itirdi. 487 adam yaralandı. 1275 azəri əsir götürüldü. 150 adam itkin düşdü. Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisindəki iki mindən artıq azəri türk yaşayış məskənləri müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törədərək kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

***Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirlərdə ədalətin bərqərar olunmasına nail olmaq, soyqırım siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir də təkrar edilməməsi üçün ciddi tədbirlər görmək lazımdır. Öz ağrılarına, miqyasına və nəticələrinə görə xalqımızın başına gətirilən müsibətlər həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdırlar. Hamı əmin olmalıdır ki, müasir dünyada «Günəş altında daha geniş yer» axtaranlar, «Böyük Ermənistan» xülyası ilə başqa xalqlara nifrət və total müharibə ideologiyasını təbliğ edənlər, qonşularına qarşı təcavüzkar siyasət yeridənlər nə vaxtsa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar. Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələr və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.***



**Heydər ƏLİYEV**

## EPİLOQ

Yekunlaşdırsaq... Dünya siyasəti bir əlinə sülh göyərçini xristian dünyasına tam demokratiya, həmçinin özbaşınalıq, o biri əlinə də qılınc verib Şərqi – müsəlmanları, daha da vacib, türkləri qırmağı qarşısına məqsəd qoyub. İndi, ulu bir xalqın milli fəlakət və işğal içində çabaladığı bir zamanda, hər tərəfdən ədalətsizlik, yalan gördüyümüz bir vaxtda yurddaşlara torpağına məhəbbət aşılamaq, bir məsləklə bir yerə yığmaq, vətəninə yiyəlik hissi aşılamaq çətindir... ancaq mütləqdir.

Birdəfəlik dərk edək, Türklərin qətliamında ermənilərə ərazi, digərlərinə isə mənafe maraqlıdır. Edilə bilinəcək bütün cəhdləri gözləmək lazımdır ki, hazırlıqlı olaq. Heç olmasa günahsız qurbanlar verməyək.

Bu yurdu ancaq düşmənlərimizdən qisas alaraq geri qaytarmaq bizi bədnam nəsil kimi tarixdə qalmağımızdan xilas edə bilər. Və artıq...

Bizi TARİX çağırır...
Bizi TORPAQ çağırır...
Bizi ALLAH çağırır...



# Azərbaycandakı Xocalı soyqırımı

1992-ci ilin 26 fevralı... 7 mindən çox əhalisi olan Azərbaycanın XOCALI şəhərində erməni ordusu xüsusi amansızlıqla və düşünülmüş şəkildə qırğın törətdi. Ermənilərin indiyə qədər törətdiyi qətllərdən və yanğınlardan fərqli olaraq, daha böyük vəhşiliklə mülki əhalidən 613 nəfər işgəncə ilə öldürüldü ki, onun 63-ü körpələr idi. 25 uşaq tam valideynsiz qaldı. 487 adam yaralandı. 1275 azəri əsir götürüldü. 150 adam itkin düşdü. Erməni silahlı birləşmələrinin Xocalıya hücumu və qətliamı həm də qeostrateji məqsəd daşıyırdı. 7000 əhalisi olan bu şəhər Dağlıq Qarabağın paytaxtı Xankəndindən (ermənilərin Stepanakert adlandırdıqları şəhərdən) 10 km cənubda yerləşirdi. Qarabağ dağlarından AĞDAM–ŞUŞA və ƏSGƏRAN – XANKƏNDİ yolundakı yeganə hava limanı da Xocalı ərazisində idi. Həm də ermənilərin yerlə-yeksan etdikləri bu ərazidə maddi-mədəni abidələrin qalması sabah bu torpaqların daimi sakinlərinin ermənilər olduğu fikrini inkar edən təkzibedilməz fakt olacaqdı. Bu dəhşətli qətllərin müəllifi ermənilərdir.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Bu, mənim nəvəmdir. Qızımı öldürdülər, ərini öldürdülər, iki qız nəvəmi də öldürdülər. Bu iki nəvəmlə məni ölümdən bizimkilər güclə qurtardılar. Qızımın ərini ağaca bağlayıb hissə- hissə yandırırdılar. Döyə- döyə, benzin töküb yandırırdılar. 9 yaşlı qız nəvəm erməninin ayaqlarını qucaqlayıb yalvardı ki, anamı, bacılarımı öldürün, atamı öldürməyin. Ayağını öpdü, yalvardı... Erməni onu ayağı ilə vurub itələdi, sonra atasının başına benzin töküb tamam yandırdı.

Bəli... Ölənlər azərbaycanlılar, öldürənlər isə ermənilərdir. Zaman-zaman azərbaycanlıları soyqırım edən ermənilər Azəri-türk torpaqlarında öz dövlətlərini qurmaq üçün yerli və daimi əhali olan

azərbaycanlıların izini silərək onların yaşadığı ərazilərə sahib çıxırdılar. İndi də bu üsulla QARABAĞA yiyələniblər.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Xocalı hadisələrindən sonra biz xocalılar... heç birimiz özümüzə gəlmirdik. Atam da 2 il can verdi. Axır sözü də o oldu ki, məni Xocalıya aparın. Mən onu necə apara bilərəm?

...Üzr istəyirəm.

Bu insanlar isə Qarabağdan qovulan, min bir əziyyətdən sonra sağ qalan azərbaycanlılardır ki, onlar tək doğmalarını yox, həmçinin ata-baba yurdlarını da itiriblər. Əsrlərlə nəsilbənəsil yaşadıqları ərazini erməni separatistlərinin təqibi, təzyiqi, zorakılığıyla tərk edərək, müvəqqəti olaraq çadırlarda, vaqonlarda yerləşdilər ki, yaxın bir vaxta geri dönəcəklər. Və onlar 10 –15 ildir ancaq ümid edirlər. Biz onlara qaçqın deyirik, köçkün deyirik, didərgin deyirik. Onların yeganə ümidi vətənə dönməkdir... sonuncu ölən də elə ümiddir.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Torpağımızı qaytaracaqlar? Biz öz torpağımıza qayıda biləcəyik?

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Hamıya – bütün insanlara yalvarırıq... Allaha yalvarırıq, bizi bu bəladan qurtarın. Qucaqlardakı körpələr ağlayır, gəlinlər ağlayır, qocalar ağlayır... Bizi bu bəladan qurtarın. Allah rəhm eləsin bizə...

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Ermənilər bizim vətənimizi darmadığın etdilər. Hər yeri yandırdılar!

Oddadılar! Oddadılar!



*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Hər tərəfdən Xocalını mühasirəyə almışdılar. Güllə yağış kimi yağırdı. Adamlar elə ev paltarında, başmaqda, alt paltarında birtəhər canını götürüb meşəyə qaçdı. Gecə idi. Göz-gözü görmürdü. Ermənilər meşəni də mühasirəyə almışdılar. Tələyə salıb xeyli də orda qırdılar. Birtəhər, sürünə-sürünə canımızı qurtardıq. Bir yerə toplaşmış ailələrin, körpələrin üstündən BTR-lər keçib onları torpağa qarışdırdı. Qurtulan çox az adam oldu. Böyük oğlum elə Xocalıda qaldı. Meyidini sonra xarici jurnalistlər gətirdilər. Kiçik oğlumu da orda itirdim. Bilmirəm, əsirdir, ya öldürüblər.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Tarix boyu yer üzünə hələ belə bir vəhşi millət gəlməyib. İnanın, 18-ci ildə etdikləri kimi, ermənilər körpələri nizəyə keçirirdilər. Qadınları doğrayırdılar. Bütün evləri yandırdılar. Hamı 5 mərtəbəli evlərin zirzəmilərində gizlənirdi. Ermənilər orda adamları torpağa çevirdilər. Gənclərin, uşaqların diri-diri gözlərini çıxarırdılar. Ananın gözü qarşısında oğlunun başını kəsirdilər.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Mənim dərdim tək ölən oğlumun dərdi deyil. Mənim başımda bir dənə də ağ saç yox idi. Torpaq dərdi mənim başımı ağartdı. Oğul torpaq yolunda ölər də, itər də... Bu gün torpaqlarımızı alsalar, sürünə-sürünə gedərəm. Heç olmasa, gedib oğlumun əkdiyi ağacların köklərini çıxarıb qoxlayaram. Onun əli dəyən hər şeydən oğlunun ətrini alaram.

1988–1993-cü illərdə Qərbi Azərbaycanda, Qarabağda, xüsusi ilə Xocalıda yerli əhalini məhv edərək, etnik təmizləmə apardılar. Ərazidə azəri millətinin kökünü kəsərək «Böyük Ermənistan» – «dənizdən-dənizə», yəni Qara dənizdən Xəzər dənizinə qədərki

torpaqlarda heç bir vaxt olmayan Erməni vilayətini yaratmaq ermənilərin əsas məqsədi idi. Ancaq XX əsrdə ermənilər tərəfindən 2 milyon azərbaycanlı öldürüldü. Baxmayaraq ki, 1905–1906, 1918–1920, 1948–1953, 1988–1993-cü illərdə ermənilərin bizə etdiyi soyqırımı, həmçinin bu soyqırımların biri olan Xocalı faciəsini yaşayan bizləri Avropa ölkələri görmək istəmirlər.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Bu uşaqlar mənimdir. Bütün nəsildən qalan bunlardır. Ürək ağrısı tapmışam. Bircə istəyim odur ki, vətənə gedib qohumlarımın qəbrini ziyarət edim.

(*ŞAHİD* – Xocalı sakininin dediklərindən)

Heç kimim qalmayıb. Təkəm. Nə qardaş, nə bacı, nə övlad... 7 ildir bax, bu çadırda yaşayıram. Neyləyim? Əlac var? Hanı çıxış yolu?

Qaçqın şəhərciklərindən təxminən 30–40 km aralı məsafədə olan bu şəhər isə **Bakıdır**. Azərbaycanın paytaxtı, qədim sivilizasiyadan xəbər verən Bakıdır. Burda isə sülh danışıqları ilə zəbt edilmiş tarixi torpaqlarımızın geri qaytarılması üçün cəhdlər göstərirlər. 15 ildir biz istəyirik ki, **Dünya** həqiqəti görsün. Erməni ideoloqlarının versiyalarına yox, erməni terrorunun nəticələrinə – bütün bu həqiqətlərə baxsınlar, inansınlar, əmin olsunlar. Biz sivil ölkələrin ədalətinə, hələ də inanmaq istəyirik...

*(Qaçqın, Qarabağlı uşaqğın söylədikləri)*

Ermənilər torpağımızı da, evlərimizi də əlimizdən alıblar... Bəs orda qalan yoxdu? Onların əlində ana- bacı- qardaşlarımız qalıb. Sən neyləmək fikrindəsən? Mən döyüşməyə gedib evimizi qaytaracam...



*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Allah tezliklə bizi öz torpağımıza qaytarsın. Heç kim öz yurdundan didərgin düşməsin. Kömək edin, vaqonlarda qalmışıq... istidə, soyuqda dəmirlər-təkərlər arasında günlərimizi sayırıq.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Azərbaycanın başqa rayonlarında da camaatı öldürüb, döyüb, qovub ərazidən çıxarırdılar. Amma bunu belə qəfildən heç kim gözləmirdi. Belə fəlakəti hələ heç kim görməyib. Hamısı hərbi geyimdə idi. BTR- lərlə, tanklarla... 366-cı diviziya ermənilərlə bir yerdə idi. Stepanakertdəki rus qoşunları ilə birləşmiş halda hücum etdilər. Sonralar dedilər ki, ermənilər bu ərazidən bir azərbaycanlının də sağ çıxmamağına əmr veribləmiş. Bu millət davası idi! Torpaq alan belə vəhşiliklər edər?

Ermənilərin törətdiyi XOCALI faciəsi FAŞİSTLƏRİN törətdiyi XATIN faciəsi kimi ərazinin yerli sakinlərinin 99%-nin yer üzündən silinməsi ilə nəticələndi. Siyahısı hələ də məlum olmayan minlərlə əsirlərin taleyindən danışmağa dəyməz... Çünki onlara verilən işğəncələrdən sonra əzablı ölümlə ölürlər. Erməni silahlı qüvvələri məlum rus imperiyasının dəstəyi ilə elə təkcə Qarabağdan 1 MİLYON sakinin qaçqın şəklində torpaqlarını tərk etməsinə, çadırlarda yaşamasına səbəb oldu. Azərbaycanın bu gün 20% torpaqları işğal altındadır. Və təkcə Xocalı faktoru, əslində bütün Qarabağın yerli əhalisində qorxu, psixoloji sarsıntı yaratmaqla, həm də işğal prosesinin sürətlənməsinə səbəb oldu.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Əsirlikdə olanda bizi gecə də 3 dəfə, gündüz də 3 dəfə döyürdülər. Kişilərin başına olmazın oyununu açırdılar. Bizim əllərimizi qapı arasında qoyub sındırırdılar. Qolumuzu arxadan dartıb çıxarır-

dılar – sümüklərin arası şişib göynəyirdi. İşgəncələr çox idi. Nə zülmlə gəlib çıxdıq... Ərimdən, qardaşımdan xəbərim yoxdur. Ölüb də... öldürüblər.

Rus imperiyası 1801–1828-ci illərdə Yaxın və Orta Şərqdə İngiltərəyə qarşı mövqeyini möhkəmlətmək və apardığı işğal siyasətini həyata keçirmək üçün ermənilərdən bir alət kimi istifadə edirdi. İmperiya Azərbaycan torpaqlarının hesabına qondarma Erməni vilayəti də yaratdı. Azərbaycanın bədnam tarixi isə yazılırdı... Ümumiyyətlə, son 200 ildə vaxtı ilə Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində iki mindən artıq azəri türk yaşayış məskənləri müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törədərək kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

*(ŞAHİD – Xocalı sakininin dediklərindən)*

Azərbaycanın başına gələn bu bəlanın çox dərin kökləri var. Onun da başında müəyyən maraqlı qüvvələr durur. SSRİ vaxtı bir cürə... dağılandan sonra Rus İmperiyası öz məqsədinə görə xalqları bir-birinə qırdırır.

Ermənilər – Azərbaycanın müxtəlif bölgələrində torpaqları yerli azəri türklərindən təmizləyərək (özü də heyvani ehtirasla vəhşiliklər törədərək «Türk yoxdur, onun torpaq problemi də yoxdur» şüarı ilə) «Böyük Ermənistan» üçün digər ərazilər uğrunda daha amansız qırğınlara əl atdılar. Və indi Azərbaycanın DAĞLIQ QARABAĞINI tam mənimsəyən ermənilər 1990–93-cü illərdə Laçını, Kəlbəcəri, Ağdamı, Cəbrayılı, Füzulini, Qubadlını və Zəngilanı işğal etmişlər və erməni əhalisini ora köçürərək indi oraya da öz əraziləri kimi sahib çıxmaq istəyirlər. Şahidi olduğumuz bu dəhşətli hadisələri biz soyqırım adlandırırıq... Bugünkü sivil dövlətlərlə



yanaşı duraraq onların dəstəyini qazanan erməni separatçıları bu vəhşilikləri törədib və törədir. Yaddan çıxarmayaq, bu qətllər hələ ki, bizim – azərbaycanlıların başına açılır. Kim zəmanət verə bilər ki, **ermənilər** şahidi olduğumuz vəhşiliyi sabah başqa millətlərə də şamil etməyəcəklər? Erməni separatistlərinin törətdiyi vəhşilikdən başqa, 200 mindən çox didərgini və 1 milyondan çox qaçqını olan, torpaqlarının 20%-i işğal edilən AZƏRBAYCAN hələ də dünyanın onun fəryadını eşidəcəyinə ümidlidir...

**BU İSƏ SON ÜMİDDİR... DEYİLMİ?**

## AZƏRBAYCANIN ERMƏNİLƏR TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİ

ŞUŞA
XANKƏNDİ
XOCALI
ƏSGƏRAN
XOCAVƏND
AĞDƏRƏ
HADRUT
LAÇIN
KƏLBƏCƏR
AĞDAM
CƏBRAYIL
FÜZULİ
QUBADLI
ZƏNGİLAN

Ermənilər bu ərazilərin hər birində AZƏRBAYCANLI izini silərək «Böyük Ermənistan» ideyasını həyata keçirməklə məşğul-

durlar. Biz isə sizə Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş 14 rayonundan cəmisi birindən – XOCALININ işğal tarixindən danışdıq.

Sizə təqdim etdiyimiz bu faktlardan bir nəticəyə gələ bilirsinizmi?

Bu gün Azərbaycanda 12 yaşlı uşaq vətənin harda olduğunu bilmir, çünki onun valideynlərini doğma torpaqları QARABAĞDAN 13 ildir ki, qovublar.



## *Tarixımizin 31 MART adlı soyqırım günü*

Bakıda başlanan, 1918-ci il 30 mart – 1 aprel tarixində üç gün davam edən bu qırğın, mahiyyət etibarı ilə dəhşət və vəhşət doğursa da, sonralar bizə aydın olacaqdı ki, erməni deyilən bu millət yeni bir iş görmüşdü. Onlar, əsrlərlə başladıqları əsas işə xristian, sonra isə bolşevizm məsləkli fəaliyyətlə nail olurdu. Düzdür, onlar get-gedə daha qəddar olurdular. Səbəbi... Səbəbi isə Azərbaycan adlı ərazidən müsəlmanların, daha doğrusu, Türklərin izini silmək, Pyotrdan üzü bəri Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi siyasəti idi.

Tarixi vərəqləsək, Pyotrla, Aleksandrla, Yekaterina ilə başlanan siyasətə daha konkret planla davam edən ermənilər, yenə də ruslarla, bu dəfə bolşevizm bayrağı altında birləşərək, bizim məmləkətdə 1918-ci ilin müsəlman qırğınını törətdilər ki, – biz bu faktı SOYQIRIM adlandıracayıq. Əslində baş vermiş, və ən azı türklər tərəfindən öz siyasi qiymətini almış bu dəhşətlər bizi ayıltmalı və 1988–1990-cı illərin faciəsindən qorumalı idi. Yəni qənimimiz olan erməni millətinə ən azı düşmən kimi yanaşmamız lazım idi.

Beləliklə, 1918-ci il. Martın 31-i. Ermənilərin vəhşiliyi o həddə çatmışdır ki, onlar törətdiyi vəhşilikdən dəli kimi zövq alırdılar. Bakıda mərkəzi küçələrin birində – indiki Nizami adına muzeyin yerində ermənilər öldürülmüş minlərlə azərbaycanlıların meyidi üzərində azəri qadınlarını qara zurna altında oynamağa məcbur edirdilər. Daha sonra, onlara da işgəncə verib, qılıncla doğrayırdılar.

Bakıda millət müharibəsi gedirdi.

S.ŞAUMYANIN LENİNƏ vurduğu teleqramda isə «Şəhərimizin milli tərkibi bizi çox narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakterindən qorxurduq. Biz, hətta erməni polkunun yardımı-

na belə əl atmalı olduq. Onların köməyindən imtina etməyi mümkün hesab etmədik. QƏLƏBƏ o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir» bildirilirdi. Məhz Şaumyanın bu torpağın sahibi olan türklərə qənim kəsilən ulu babası olan məliklərin, daha sonra Şaxnazaryan, Madatyan xəttinin İmperiyadan sovetlərə keçən maraqlarını məharətlə birləşdirə bilmişdi. İmperiyaya da, Sovetlərə də BAKININ sərvəti lazım idi. İlbəil artıb çoxalaraq, bütün Azərbaycanı bürüyən ermənilərə isə bütövlükdə Azərbaycan gərək idi. Rus bolşevikləri İmperiyanın zaman-zaman apardığı işğal siyasətinə başqa don geydirərək, Şərqə azadlıq gətirmək üçün sovetləşmək idyeyası ilə AZƏRBAYCANA gəldi. Sadəlövh və savadsız azəri inqilabçıları da ruslara, illah da ermənilərə qoşularaq çiyin-çiyinə məmləkətdə qardaş qanı tökərək PROLETARİATA azadlıq gətirməyə başladılar. Rusiya dövlətinin başçısı – sələflərinə sadiq qalan, nə qədər təəccüblü olsa da, bolşevizmin babası LENİN, onun özünə bəlli olan məqsədlə Stepan Şaumyanı Bakıya xüsusi tapşırıqla göndərərək ona həddən çox səlahiyyət verdi. Qafqazın fövqəladə komissarı vəzifəsi o zaman onun erməni millətçi təşkilatları ilə bağlı olmasında əsaslı rol oynadı. O təşkilatlar Türkiyə ərazisində Erməni dövləti qurmaq üçün mübarizə aparırdılar. Təbii ki, bu ermənilər Rusiya tərəfində vuruşurdular. Ruslar, müharibədə onlara can-başla qulluq göstərən ermənilərə onların hesabına tutduqları ərazilərdə – Türkiyənin QARS, ƏRZURUM, ƏRDƏHAN torpaqlarında ermənilərə muxtariyyət vermək fikrində idi. Bəlli tarixdən aydındır ki, 1917-ci ilin sonu, 1918-ci ilin əvvəli Türkiyə digər müttəfiqlərlə birləşərək ərazidə müharibəni dayandırmağa müvəffəq olur. Beləliklə, müharibə erməni və rus qoşunlarının məmləkətdən çıxarılması ilə nəticələndi. Üstəlik, Birinci Dünya müharibəsi dövründə hər bir erməni yaraqlısı Böyük Ermənistan naminə məhz Rusiya üçün əlindən gələni əsirgəmədiyi halda, Rusiya verdiyi vədə xilaf çıxmaq kimi qiymətləndirilən addımlar da atdı. Bu, Türkiyənin artıq zəbt edilmiş ərazilərində ermənilərin deyil, Don, Kuban, Sibir kazaklarının yerləşdirilməsi cəhdi idi. Başqa sözlə, bu, rusların ermənilərdən öz məqsədi naminə istifadəsi kimi qəbul olundu. Kaçaznuninin sözləri ilə desək: «Knyaz Lobanov–Rostovskinin məşhur «TÜRKSÜZ Ermənistan» layihəsi həyata keçirildi». Ermənilər gözlərində qalan arzularını – erməni millətinin planını hələ ki, QAFQAZ ərazisində, təbii ki, Azərbaycanda həyata keçirməyə başladılar. O cümlədən ANDRONİK öz milli siyasətini həyata keçirmək üçün yollar axtarmağa başladı və Qafqaz ərazisində yaşayan türklərə qarşı soyqırım etməklə, torpaqların təmizlənməsi ideyası ilə Ermənistana gəldi. Lakin Ermənistanda yaranmış DAŞNAK hökuməti ilə dil tapa bilmədiyindən, kəskin ziddiyyətlərin yarandığını gördüyündən Andronik həm daşnak hökumətindən, həm də Ermənistandan uzaqlaşdı. Bəlli səbəblərdən çox da uzağa gedə bilmədiyindən, o, Naxçıvana qayıdaraq, qüvvələrini möhkəmləndirmək, Qarabağdan keçərək Bakıda Şaumyanla birləşmək planını qurdu. Artıq onun 8 min əsgəri, 4 topu, 6 pulemyotu və xeyli hərbi sursatı vardı. Andronik Naxçıvanda nəzərdə tutduğu planı yerinə yetirməyə başladı. Naxçıvanın Culfa kimi böyük strateji yaşayaış bölgəsini ələ keçirdi. ANDRONİKİN bu ərazilərdə törətdiyi talan və qırğınlar əslində, sonradan Bakıda həyata keçiriləcək soyqırımın baş məşqləri idi. Andronik Şaumyana yazırdı: «Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizə verə bilərəm». Belə bir vaxtda Şaumyan erməni siyasətinin 2-ci mərhələsinə başlamağa qərar verdi. O, Andronikin fəaliyyətinə teleqramla belə cavab verirdi:

«Culfa. Xalq qəhrəmanı ANDRONİKƏ. Sizin teleqramı aldım. Teleqramın tam mətnini Moskvaya, mərkəzi hökumətə çatdırdım. Sizin simanızda öz tərəfimizdən əsl xalq qəhrəmanını salamlayıram».

Artıq Andronik arxasında bolşeviklərin dayanacağına əmin olduğu üçün, daha ciddi-cəhdlə ərazinin (Naxçıvan və Zəngəzurun) türklərdən müxtəlif yollarla təmizlənməsi üçün fəaliyyət dairəsini genişləndirdi. Andronik sovet hakimiyyətinə xidmət etmək adı altında öz qanlı planlarını həyata keçirmək üçün S.Şaumyana yazırdı: «Başçılıq etdiyim dəstə ilə özümü Rusiya Respublikasının ayrılmaz tərkib hissəsi hesab edirəm. Xahiş edirəm, elan edəsiniz ki, mən bu gündən etibarən öz dəstəmlə Rusiya hökumətinin tabeliyində və sərəncamındayam. Türkiyə qoşunlarının Naxçıvan ərazisinə daxil olmasına mane olmağa çalışacam. Cavab və sərəncam gözləyirəm. General-mayor Andronik».

Edilən işgəncə və qətllərin forması, həmçinin tətbiqi o qədər qanlı, vəhşətli mənzərə yaradır ki, sənədli faktdan çox, sadizmin uydurma təxəyyülünə bənzəyir. İllər keçsə də, qanlı izləri yuyub itirmək mümkün deyil. Türkə nifrət, türk ərazilərini mənimsəmək hissi erməniləri quduz YIRTICIYA çevirmişdi. Rəsmi məlumata görə, təkcə Zəngəzurda Andronik 115 kəndi yerlə-yeksan etmiş, 3257 kişini, 2276 qadını, 2196 uşağı işgəncə ilə öldürmüşdür. Mahalda 1060 kişi, 794 qadın, 485 uşaq şikəst edilmişdir. Andronik Erməni Milli Şurasına hələ tarixdə görünməmiş vəhşiliklər, soyqırım haqqında məlumat verərək bildirirdi: «Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən günü sabah Ərzuruma yola düşərəm...türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün öz rəşadətli dəstəmlə gedə bilərəm... və bu yolda məni heç kim saxlaya bilməz». O doğru deyirdi Ermənistan hökuməti isə, guya, ondan imtina etmişdi. Onun ingilislərə qoşularaq törətdiyi quldur hərəkətlərinin cavabını verməmək üçün. Maraqlıdır, ingilislərlə birgə fəaliyyət göstərən quldur Andronik, sonra bolşevik kimi ərazinin türklərdən qoruyan qəhrəmana, daha sonra isə general ANDRONİK OZANYANA necə çevrildi? Cavab bəllidir. Türk qanı tökməklə...



Şaumyan Bakıdakı ictimai-siyasi vəziyyəti öyrənəndən, ona bəlli olan həqiqətlərdən sonra düşündüyü planın həyata keçirilməsini hələ ki, mümkünsüz sayırdı. Bu Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar içində tərəqqipərvər ziyalıların toplandığı Müsavat partiyasının böyük nüfuza sahib olduğu zaman idi. Məhz bu partiya Azərbaycanın bütövlüyünü, müstəqilliyini saxlamaqda israrlı idi. Sovetləşmədə belə muxtariyyət qazanmaq istəyən müsavatçıları Bakı bolşeviki Şaumyan burjuaziyaya xidmət göstərməkdə tənqid edərək, Rus demokratiyasının bu addımı atmayacağına əmin olduğunu dəfələrlə bildirirdi. Təbii ki, əsəbləri dözmədikdə qatı daşnakçılıq üzə çıxaraq onun: «Azərbaycanın muxtar olmasını arzulayan müsavatçılar nəticədə xarabazara sahib olacaqlar...» kimi gizli istəyini faş edirdi. Çəkinmədən, «Bakinski raboçi» qəzetində bunu şərh edən Şaumyan sonralar sözünün üstündə möhkəm durdu. Azərbaycanın müstəqilliyi onun üçün yol verilməsi mümkün olmayan iş idi. Şaumyan nəzəri səssiz müharibənin kifayət olmadığını görüb, nifrətindən bütün Azəri türklərini qırğına vermək üçün hazırlıqlar aparmağa başladı. Ermənilər gizlincə silahlanır, öz aralarında təbliğat aparır... Böyük Ermənistan yaratmaq üçün növbəti pillələnlər qoymağa başladılar. Rusiyadan gəlmiş erməni silahlı qüvvələri müxtəlif bəhanələrlə Bakıda saxlanıldı. Bakıdakı Şura hökumətinin adına gələn bütün hərbi sursat ermənilərə paylandı. Əsas baza kimi isə qalan silahlar erməni sahibkarların zavodlarında saxlanırdı. Mətbuatda isə qəsdən Azərbaycan adlı ərazinin adına şübhə ilə yanaşmaqdan, milli heysiyyata toxunmaqdan, məsxərəyə qoyub gülməkdən də çəkinmədilər. Bütün bunlar müəyyən mənada kəşfiyyat proqramı idi. Bizim susub reaksiya vermədiyimiz halda, həddlərini daha da aşırdılar. Hətta mart qırğınları ərəfəsində LENİN Şaumyanı tənqid edərək yazırdı: «Rusiya marksistinə erməni toyuq hininə xidmət göstərən bir şəxs kimi fikir yürütmək sizə eyib deyilmi? Siz

ermeni korluğunuz sayəsində Puruşkeviçlərin və onların əlaltısına çevrilmisiniz».

Şaumyan bu tənqidi o qədər də ciddi qəbul etmədi. 1918-ci il martın 18-də V.İ.Lenin və **Respublika Bolşevik Partiyası** Mərkəzi Komitəsinin tapşırığı ilə İ.Stalinin «Müsəlmanlar muxtariyyət tələb etsələr, mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz qəbul etmək razılığı almaqla, onlara muxtariyyət vermək lazımdır» tapşırığını da eşitməməzliyə saldı. Çünki bu ona – Şaumyana – daşnak əqidəli ermeniyə gərək deyildi. **Onun tarixi missiyası** Azərbaycanın əldə edə biləcəyi hər hansı muxtariyyətə, müstəqilliyə mane olmaq idi. Çünki Şaumyan 1917-ci il 27 dekabr tarixində çar Nikolay tərəfindən qəbul olunmuş «Türkiyə Ermənistanı» dekretini həyata keçirmək haqqında düşünürdü. Ruslara Bakı – neft lazım idi. Ermənilərə isə Azərbaycan ərazisini azəri türklərindən təmizləyərək, artıq **Böyük Ermənistan** yaratmaq. Şaumyan hamıdan tez başa düşdü ki, müstəqil və gizli fəaliyyətə başlamalıdır. Lakin o bilirdi ki, müsəlman diviziyasını tərk-silah etmədən bu addımı atmaq olmaz. Hərçənd ki, Bakı kommunasının 70% ermənilərdən ibarət tam silahlı qüvvəsi vardı, ermənilərdən ibarət 18 minlik ordu onun əmrini gözləyirdi. Şaumyanın gözlədiyi fürsət də yetişirdi. Belə ki, görkəmli Azərbaycan xeyriyyəçisi H.Z.Tağıyevin faciəli surətdə həlak olmuş oğlu Məhəmmədin cənazəsini Lənkərandan Bakıya gətirmiş «Evelina» gəmisi Şaumyanın əmriylə Bakı tərsanəsində həbs edildi. Gəmidə isə Müsəlman diviziyası qərargahının bütün üzvləri və Azərbaycan əsgərləri də vardı. Əvvəlcə tərk-silah, sonra həbs əmrinə etiraz edən müsavatçılar və onların ardınca gedən Bakı əhalisi şəhərin küçə və məhəllələrində etirazlar keçirərək, daşnak silahlı qüvvələrinin həbsini tələb etdilər. Martın 30-da müsavatçılar Bakı sovetinə gedərək baş vermiş qanunsuzluqla bağlı məsələlərin aydınlaşmasını tələb edəndə, Caparidze komitə sədri kimi məsələni ayırd



etməyə başladı. Amma, artıq, şəhərin küçələrində silahlı toqquşmaların başlandığı bəlli oldu. Bunu təşkil edən Şaumyan əməliyyata başlamağın dəqiq vaxtını müəyyənləşdirdiyindən yubana bilməzdi. Paralel üç xətlə – siyasət, müharibə və Qafqaz qardaşı rolunun öhdəsindən ŞAUMYAN məharətlə gəldi. Hələ bu qırğınlara başlamamışdan əvvəl, 15 martda o açıq-açığına demişdi: «Bakı Soveti Vətəndaş müharibəsinin Zaqafqaziyada başlıca dayağı və mərkəzi olmalıdır». Sonralar Şaumyan yazacaqdı: «Biz, əslində, bunu dəf etməli idik. Biz isə düşmən tərəfdən ilk silahlı basqın cəhdindən istifadə edərək bütün cəbhə boyu hücuma başladıq. Daşnaksütyunun milli hissələri bizim ixtiyarımızda idi. Milli hisslərin iştirakı bu vətəndaş müharibəsini milli qırğına çevirsə də, buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verdik». Aydındır ki, vətəndaş müharibəsində azərbaycanlıların kütləvi şəkildə məhvi onun planında idi. Şaumyan bilirdi ki, xalq müsavatçılara inanır. O, daşnakların müsavatçılarla dil taparaq Bakı Sovetinə qarşı çıxması planıyla də çıxış etdi. Müsavatçılar daşnaklarla eyni mövqedə dayana bilmədikləri üçün etiraz etsələr də, Şaumyanın rəhbərliyi altında Bakı Soveti müsəlman silahlı dəstələrini tərk-silah edərək, şəhərdən çıxarılması məsələsini həll etdi. Ermənilər BAKI şəhərində ağlagəlməz vəhşiliklər törədəndə müsəlman hərbi hissələri şəhəri tərk edərək gedirdilər. Şaumyanın SOYQIRIM planını həyata keçirməyi üçün hər şey hazır idi. VƏ... başlandı. 1918-ci ilin 31 martında azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirildi. Hüseyn Baykara sonralar yazacaqdı: «Türk qadınları saç- saça bağlanaraq çılpaq gəzdiriləndən sonra müxtəlif işgəncələrlə öldürülürdü... başqa cinayətlər, təcavüzlər... bununla bitmədi. Erməni, rus və könüllü dəstələri Şamaxı, Salyan, Kürdəmir, Quba, Lənkərana da hücum edərək, Bakıdakı kimi qırğınlar törətdilər. Tarixdə görünməyən cinayətlər...».

1918-ci ildə ermənilər təkcə çar Rusiyasının işğal etdiyi Şimali Azərbaycan ərazisində deyil, həmçinin Cənubi Azərbaycanda – İranda da soyqırım həyata keçirirdilər. 1918-ci ilin martında Urmu, Salmas və Köhəşəhr şəhərlərində üç gün azərbaycanlılar qılıncdan keçirildi. Bu müddətdə 150 min nəfər Azərbaycan türkü qırıldı. Məlum olur ki, Andronikin quldur dəstəsi Naxçıvanda, Zəngəzurda, Qarabağda, İrəvanda qətllər törədəndən sonra Cənubi Azərbaycana keçmiş, xeyli azəri türkü qıraraq misli görünməmiş vəhşiliklər törətmişdir. Ən maraqlısı budur ki, 18-ci ilin martın 17-də Urmiyada Amerika Birləşmiş Ştatları konsulunun, Rusiya konsulunun, Fransa, İngiltərə və başqa ölkələrin nümayəndələrinin gözü qarşısında erməni qurdurları 1 gün ərzində 10 min azəri türkünü qətlə yetiriblər. Böyük Hayestanın sərhədləri naminə cənubi Azərbaycan, sonralar İran ərazisi adlanan torpaqlar da ermənilərin planında idi.

Ümumiyyətlə, Bakıda törədilən qətllər və qırğınların Azərbaycanın müxtəlif regionlarında paralel olaraq aparılması mərkəzdən idarəolunma mütləqliyini təsdiq edir. Bizə bəllidir ki, məhz Şaumyanın göstərişi ilə Gəncədə ermənilər özlərini dəhşətə salan qırğınlar törətdilər. Şaumyan daşnak köməkçilərinə xüsusi olaraq belə tapşırıq vermişdi: «Azərbaycanlıları kütləvi şəkildə məhv edin». Gəncədəki hərbi alayların ixtiyarında olan silahlar ermənilərin ixtiyarına verilmişdi. Gəncədə verilən tapşırıq Şaumyana layiq yerinə yetirildi. Şaumyanın daha layiqli davamçısı Stepan Lalayan oldu. Şamaxıda müsəlmanların, daha doğrusu, türk qırğınlarının vüsəti digər vəhşiliklərlə müqayisəedilməz idi. Məscidlərə yığılmış qocaları, uşaqları, qadınları diri-diri yandırmış, türk qadınlarını daha amansız şəkildə edam etmiş, məsum körpələr isə türkə nifrətin ifadəsi obyekti olmuşdu. Dindar türkləri daha dəhşətli aqibət gözləyirdi. Belə bir misal, Axund Molla Cəfərqulu məsciddə öldürüldü, ermənilər əvvəlcə onun gözünü çıxardılar. Sonra qulağını, burnunu və dilini kəsdilər. Sifətinin və başının dərisini soydular... sonra güllələdilər. Ermənilər nəinki türk qənimi kimi onları cismən məhv edirdilər, bundan əvvəl türkləri mənən məhv etmək üçün daha çox çalışırdılar. Türkün kişiliyini sındırmaq məqsədi ilə, onların gözləri qarşısında uşaqlarına verdikləri işgəncə, qadınlarının zorlanması mərhələsindən sonra kişiləri sadəcə öldürürdülər.



Lalayev və Əmirov adlanan Lalayanın və Əmiryanın Şamaxıdakı triumf tamaşalarından sonra Qubada Amazaspın xüsusi cəza dəstəsi 2000 nəfərlə ərazini əhali qarışıq alt-üst etdi. Cəza formalarından bəhs etməyin lüzumundan çox Amazaspın dediyi sözlər bizim gen yaddaşımıza işləməlidir. O deyirdi: «Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən siz türklərdən erməni qisası almağa gəlmişəm, hökumət qurmağa yox. Xəzər dənizinin sahillərindən Şahdağa qədər ərazidə yaşayan müsəlmanları mən məhv etməliyəm».

M.Əzizbəyov Şamaxıdan qayıdanda göz yaşlarını saxlaya bilməyərək vəhşicəsinə öldürülmüş uşaq cəsədlərində gözlə görünən işgəncə izlərindən danışır... Nərimanov yazırdı: «Onlar yaşına, cinsinə məhəl qoymadan bütün azəri türklərinə etdiyi dəhşətli edamlardan çəkinmirdilər. Onlar körpə uşaqlardan başqa, yeni doğulmuş, ya da ana bətnindəki körpəni süngü ilə yırtıb çıxarıb süngünün ucuna keçirərək heyvani həzz alırlarmış. Mənimçün aydın oldu ki, Bakıda Sovet hakimiyyəti ancaq daşnakların əlindədir». Şaumyan isə heç nəyə məhəl qoymadan: «Bizim siyasətimiz vətəndaş müharibəsi aparmaqdır. Kim bu siyasətə qarşı çıxırsa, o, düşmənlərimizin nökəridir» söyləmişdi.

H.Baykara «AZƏRBAYCANIN İSTİQLAL MÜBARİZƏSİNİN TARİXİ» kitabında qeyd edir: «Bakıda özünün rəhbərliyi altında Sovet hakimiyyəti quran Şaumyan azəri türklərinə demişdi: «Sizə Azərbaycan istiqlaliyyəti yerinə bir məzarlıq bəxş edəcəm».

Sonralar N.Nərimanov da yazacaqdı: «Müsəlman, hətta bolşevik olsaydı belə, ona aman verilmirdi. Daşnaklar deyirdilər ki, biz bolşevik tanımırıq, müsəlman olmağın kifayətdir».

Qeyri-bərabər döyüşdə, mütləq olaraq özünü qoruma mövqeyində də artıq dayana bilməyən müsavatçı qüvvələr və şəhər əhalisi milli qırğının misilsiz miqyas aldığını görərək, martın 31-də AĞ BAYRAQ qaldırsalar da, şəhərdə milli qırğın dayanmırdı. Ermənilər artıq əmr deyil, ürəklərindəki gizli niyyətlərini həyata keçirirdilər. Ancaq azərbaycanlılar yaşayan «Məmmədli», «Çəmbərəkənd», «Zibilli dərə» deyilən məhəllələrin əhalisi tamamilə məhv edilmişdi. Erməni quldurları həyət və məhəllələrə basqın edərək, sadəcə sakinləri öldürmürdülər. Onlar xəncər və süngü ilə uşaqları doğrayır, qocaları yanan evlərin içinə atır, türk qadınlarının işgəncəli qətllərindən heyvani həzz alırdılar. Təkcə bir məhəllədə qulaqları, burunları kəsilmiş, qarınları yarılmış 37 qadın meyiti tapılmışdır.

Onlar bolşevizm bayrağı altında müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, qadınlara, qocalara, hətta uşaqlara belə rəhm etmir, əksinə, daha qəddarlıq göstərirdilər. Şaumyan isə Leninə 1918-ci il 13 apreldə verdiyi məlumatında yazırdı: «3 gün ərzində 30–31 mart və 1 apreldə Bakıda iki tərəf – bizim Qızıl Ordu ilə bərabər vuruşan erməni milli dəstələrilə müsavat partiyasının rəhbərlik etdiyi müsəlmanlardan ibarət «vəhşi diviziya» arasında qanlı döyüşlər getdi. Bizə aviasiya məktəbinin qüvvələri də kömək edirdi. Bu döyüşdə biz parlaq bir qələbə əldə etdik. Düşmən darmadağın edildi. Hər iki tərəfdən 3 min nəfərə yaxın ölənlər var. Əgər onlar qalib gəlsəydi... qeyri-müsəlmanların taleyi haqqında danışmamaq da olardı». Bunlar quldur Şaumyanın lazım bildiyi informasiya versiyası idi. Əslində o çox gözəl bilirdi ki, ancaq Bakıda öldürülmüş, türk millətindən olan sakinlərin sayı 12 mini ötmüşdü. Əlbəttə, bilirdi... xüsusi tapşırığı da özü vermişdi. Amma verdiyi məlumat başqa idi. O yazırdı: «Mübarizədə bizim nəticəmiz çox gözqamaşdıran oldu. Düşmən büsbütün darmadağın edildi. Biz onlara öz şərtlərimizi diktə etdik, onlar da sözsüz tabe olub razılaşdılar». Lenin isə bütün olanlardan və Şaumyanın məruzəsindən sonra məktubunda onun mart qırğınlarındakı fəaliyyətini çox yüksək qiymətləndirərək yazırdı: «Sizin möhkəm və qəti siyasətinizə məftunuq. Bacarıb həmən siyasəti, indiki çox çətin vəziyyətin şəksiz tələb etdiyi çox etibarlı bir diplomatiya ilə birləşdirin». Şaumyan bacarıqla bu diplomatiya pərdəsindən də istifadə etdi. İTTİHAM: Soyqırımına məruz qalmış, cəzalandırılmış on minlərlə azərbaycanlı Bakı Kommunasına qarşı çıxmaları ilə bu cəzaya layiq idi. «Bakinski raboçi» qəzetində Şaumyan yazmışdı: «Bakıda olmuş vətəndaş müharibəsi zəruri idi». Şaumyanın sevincini bir də xatırlayaq...



## QƏLƏBƏ O QƏDƏR BÖYÜKDÜR Kİ... BU GERÇƏKLİYƏ AZ KƏDƏR GƏTİRİR...

Artıq hər şey tanış gəlir... Və bu gün, bu ərazilərin onların olması kimi absurd fikirlərini ermənilər onunla əsaslandırırlar ki, tarixən bu yerlərdə ermənilər yaşamışlar. İndiki vəziyyətləri isə hindu aborigenlərinin aqibəti ilə üst-üstə düşür. Guya Azərbaycanda ermənilər yerli əhali olsa da, gəlmə etnoslar tərəfindən onların torpağı zəbt edilmişdir. Amma **Tarixin Pozulmaz** səhifəsində olduğu kimi, 1801–1828-ci illərdə Rus imperiyasının apardığı siyasət nəticəsində Bütöv Azərbaycan iki, sonra üç yerə bölündü. Şimali Azərbaycan ruslar tərəfindən, cənubi Azərbaycan farslar tərəfindən mənimsəniləndən sonra, qoynunda yer verdiyi – indi ona qənim kəsilən gəlmə ermənilərin vilayəti də o zaman yaradıldı. XIX əsrin sonunda zəngin neft yataqlarına malik Bakıya **rusların** xeyrinə ermənilərin nəinki kütləvi axını başladı, ermənilər məhz bu sahədə, demək olar ki, bütün məsul vəzifələri tutmağa cəhd göstərərək, buna

nail oldular. Onlara kömək edən, təbii ki, ruslar və rus bolşevikləri idi. Din faktoru ən güclü faktorlardan olsa da, ruslar üçün neftdən götürəcəyi mənafe daha vacib məqsəd idi. Yerli əhali olan azərbaycanlılarla ermənilər arasında nifaq mütləq idi. Qanlı toqquşmalar BAKIDA başlansa da, sonradan Şuşada – Qarabağda daha böyük vüsət aldı. Bu dəfəki toqquşma 10 000 qurban bahasına başa gəldi...

...Və səbəb də, əslində görünən deyildi.

İlk Sovet hakimiyyəti də elə Azərbaycanda quruldu. Bolşeviklərə neft lazım idi axı... Qızıl ordu Bakıya daxil olanda Azərbaycan Zəngəzur, Naxçıvan, Qarabağ ərazilərinə iddialı olan ermənilərlə müharibə aparırdı. Noyabrda böyük vədlərdən sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Sovet hakimiyyəti dövründə bu müharibələr bir qədər səngisə də, bu, ermənilərə edilən xüsusi güzəştlər bahasına oldu. Azərbaycanın torpaqları yavaş-yavaş ermənilərin ixtiyarına verilirdi. Qarabağ, Zəngəzur, Naxçıvan... Ermənilər rus dəstəyi və sursatı ilə yerli əhalini ya tamam qılıncdan keçirib, izini bu torpaqdan silirdi, ya da göstərdiyi işgəncələr nəticəsində onların birdəfəlik bu əraziləri tərk etməsinə nail olurdu. Ərazidə erməni millətindən olan əhali yerləşdirərək, nə vaxtsa bu ərazilərin sakinlərinin ancaq ermənilərdən ibarət olduğunu təsdiq edəcək fakt siyasətini aparırdılar. Azərbaycanın bədnam tarixi isə yazılmaqda idi.

1918-ci ildə Azərbaycan rəhbərliyi İrəvan ərazisini ermənilərə güzəştə getdi. Sovet hakimiyyəti dövründə istəklərini birə-beş artıran ermənilər düşünülmüş şəkildə Azərbaycan üçün strateji baxımdan çox əhəmiyyətli Naxçıvanı ondan ayırdılar. Naxçıvanla Azərbaycan arasında bütün ZƏNGƏZURA yiyələndilər ki, dişlərini çoxdan qıcadıqları Naxçıvanda etnik təmizləmə apararaq, türksüz Ermənistan torpaqları siyasətinə daha asan nail olsunlar. Yenə də türk qardaşlarımızın və həmişə nümunə olacaq yerli əhalinin qətiyyətinə minnətdar olaraq, ermənilər bircə bu arzularına çata bilmədilər. Maraqlı fakt budur ki, sovet dövründə yerlərdə kəsilən türk başlarının izahı Mərkəzə qəhrəman sərkərdə Andronikin – Sovet hakimiyyətinə kömək göstərən bolşevikin Sovet hakimiyyətini Türkiyə müdaxiləsindən və yerli millətçilərdən təmizlənməsi kimi təqdim edilirdi.



Şərəflə təsdiq ediləsi isə budur ki, bütün Türklərin atası Mustafa Kamal Paşanın möhtəşəm Türk ordusunun köməyi nəticəsində Azərbaycanı erməni qırğınlarından qurtararaq məmləkətin və xalqın müstəqilliyə qovuşmasını, 2 il azad yaşamasını, 15 sentyabrda Bakını erməni və ruslardan alıb həqiqi sahiblərinə verməsi tarixi də yazıldı... Mən azəri türklərini SOYQIRIMA məruz qoyan erməni siyasətindən sonra bu məqamda mütləq dayanmaq istəyirəm. Yəni baş vermiş bu tarixi cinayətdən sonra əxz etməli olduğumuz mətləb üstündə.

...Ancaq indi, mümkünsə, bir az əvvələ qayıdaq.

Brest- Litovsk müqaviləsindən sonra Qars, Ərzurum, Ərdahan kimi əzəli torpaqlarını geri qaytaran Türkiyə taleyində çox əhəmiyyətli sayılacaq bu müqavilənin 4 bəndinə müvafiq Azərbaycanla sülh və dostluq sazişinə görə, ehtiyac yarandıqda hərbi yardım etmək mütləqliyinə imza atmışdı.

Tiflisdən Gəncəyə köçürülən Demokratik Respublika artıq burda onu milli qırğınlardan qorumaq üçün gələn Osmanlı qoşunları türk zabitləriylə rastlaşdı. Bu hakimiyyətə yardım və dəstək vermək məqsədində olan Nuru paşanın başçılığı altındakı Türk hərbi dəstələri birmənalı qarşılanmadı. Belə ki, Türkiyə–Azərbaycan TÜRK birliyinin gündəmində Azərbaycanın paytaxtı Bakını erməni daşnaklarından xilas etmək ən əsas vəzifə idi. Şaumyan isə özünü Azərbaycanın, illah da Bakının daimi sahibi – mütləq sayırdı. Üstəlik yaxın gələcəkdə Azərbaycan torpaqlarında quracaqları **İkinci Ermənistan** ideyası onu sakit dayanmağa qoymurdu. Və Türkiyənin belə bir addımı onu təbdən çıxarmaya bilməzdi.

STEND AP Moskva ilə sövdələşmənin, ingilis qoşunlarına verdiyi siqnalların bir nəticə vermədiyini görəndə Şaumyan növbəti avantüraya əl atdı. 1918-ci il 6 iyun tarixində Bakı soveti ordu və hərbi dəniz işləri üzrə Xalq komissarı Korqanov tərəfindən Qızıl orduya aşağıdakı əmrin verilməsinə nail oldu: «Gəncədə bəylər və xanlar Azərbaycanın müstəqilliyini elan ediblər. Onlar Azərbaycandakı Sovet hakimiyyətini devirmək istəyirlər. Türk qoşunları QARS, Ərdahan, İrəvan və Axalkələkini tutublar. İndi də türk generalları Gəncədən Bakıya yolun açılmasını tələb edirlər. Qızıl ordunun əsgərləri Bakı ordusunu xilaskar kimi gözləyirlər. Kömək Şimali Qafqazdan gələcək». Qızıl ordu 12 iyun tarixində Gəncə üzərinə hücuma keçdi.

1918-ci ilin mart ayında bolşevik rusların dəstəyi ilə ermənilərin törətdikləri Azəri Türk qətliamından sonra hökumət Gəncəyə köçmüşdü. Azərbaycanın Bakıdan sonra ikinci mühüm şəhəri olan Gəncə çar Rusiyasına, onun müstəmləkəçiliyinə qarşı mərdliklə mübarizə aparan ilk qəhrəman və şəhid tarixli şəhər idi. Mayın 25-də qərargah zabitləri ilə birlikdə Gəncəyə gələrək «Qafqaz İslam Ordusu»nu qurmağa başlayan Nuru paşa qısa zaman içində milli Azərbaycan Ordusu meydana gətirmək üçün ciddi işlər görürdü. Nuru paşa Azərbaycanda olan erməniləri öldürmək yox, itaət altına almaq üçün onların silahlarının toplanması əmrini vermişdi. Lakin ermənilər silahlarını təhvil etmək istəmirdilər. Onların müqavimətini ancaq güc yoluyla qırmaq olardı. Yeni qurulan Azərbaycan Cümhuriyyətinin ayaqda dura biləcək nizamlı və silahlı gücü olacaqdı. Mühüm şərt zabitlərin müsəlman millətindən olması idi. Əvvəl batalyon, alay və diviziya komandirləri Osmanlı zabitləri olsa da, sonra onların yerinə yetişəcək azəri türk zabitləri olacaqdı. Mövcud zaman kəsiyində isə erməni hücumları istisna deyildi. Gəncənin yerli əhalisi kimi yaşayan ermənilərin Bakı bolşevikləri tərəfindən silahlandırılması artıq bəlli idi. Onlarla və onların havadarları ilə vuruşmaq üçün isə lazımi qüvvə yox idi. Azərbaycanlı milis qüvvələri ilə ermənilərə qarşı vuruşda uğur əldə etməyin mümkünsüzlüyünü anlayan Nuru paşa, Azərbaycanın vəziyyətini göndərdiyi raportla açıqlayaraq, Ənvər paşadan əlavə qüvvə istədi. Osmanlı hökuməti Azərbaycana bu yardımı da təmin etdi. Azərbaycan xalqı bolşevik, rus, erməni təcavüzünə qarşı müdafiəsiz bir vəziyyətdə idi. Gəncəyə daxil olan bu qüvvələrə «Gəncə dəstəsi» adı verilsə də, artıq «Qafqaz İslam Ordusu» yaradılmasının ilk addımı atıldı. Can, mal təminatlı zəmanət və ermənilərə düşünmək üçün vaxt verildi. Əvvəlcə ermənilər müqavimət göstərsələr də, çox az sonra türklərə qarşı durmağın mənasızlığını dərk edərək itaət etməyi seçdilər. Türklər isə silahların müsadirəsindən sonra erməni məhəlləsində təhlükəsizlik və nəzarəti təmin etdilər. Ancaq Gəncədən Bakıya qədər bu təhlükə hələ vardı.



Qafqaz İslam Ordusuna qarşı RUSİYA Bakını qorumaq üçün əksəriyyəti ermənilərdən olmaqla 30 batalyonluq erməni-rus birləşmiş qoşun formalaşdırdı. Bakıda Şaumyanın başçılıq etdiyi kommunist hökuməti, Gəncə ilə Bakı arasındakı bölgələrdə yaşayan erməniləri türklərdən qorumaq bəhanəsi ilə qərb istiqamətində Azərbaycan torpaqlarının işğalına başladı. Aydındır ki, bu işğalın əsas səbəbi müstəqilliyini təzəcə elan etmiş Azərbaycan Cümhuriyyətini məhv etmək, Azərbaycandakı türk əhalisini qətl, köç və buna bənzər yollarla azaldaraq əsas əhalinin ermənilərdən ibarət olduğunu fakta çevirib, Sovet Rusiyasından ayrılması məqamını əldən verməmək idi.

Bakıdan irəliləyən erməni və ruslardan ibarət bolşevik qüvvələri qarşısına çıxan azəri milis dəstələrini dağıdaraq, Kürdəmirə qədər irəliləyərək, buranı da işğal etdilər. Daha güclü bir qüvvə ilə bolşeviklər Şamaxı və Ağsunu işğal edərək Göyçaya yaxınlaşırdı.

Gəncəyə hücumun səbəbi də aydın idi. Gəncədən gələn Türk qoşunları ilə bolşeviklərin toqquşması isə Göyçayda oldu və bizim məğlubiyyətimizlə nəticələndi. Türk ordusundan 200 nəfər itki, 2 top, 2 pulemyot əldə edən ermənilər ruh yüksəkliyi ilə əsir etdikləri türkləri vəhşicəsinə öldürdülər. 50-dən çox kəndi yandırdılar.

Göyçayda yaşayan və ətraflardan gələn ermənilərin köməkliyi ilə bolşevik adlanan qüvvələr 28–30 minlik orduya çevrildi. Bu qədər qüvvəyə qarşı Qafqaz diviziyası ilə durmağın mümkün olmadığını görən Nuru paşa fasiləsiz olaraq Baş komandirlikdən, Şərq orduları qrupundan kömək istəyirdi. Nəticənin əldə edilmədiyini görən Nuru paşa 17 iyun məğlubiyyətini yerində araşdırmaq üçün getdiyi Göyçay qəsəbəsində xalq qarşısında nitq söyləyərək «Azərbaycan və azərbaycanlıları düşməndən xilas etmək üçün Osmanlı ordusu məmləkətimizə gəldi. Bu orduya can-başla xidmət etməniz gərəkdir. Silahla yardım edilə bilmirsinizsə, heç olmasa əsgərə ərzaq və su daşıyınız. Bu şiddətli istidə müharibə edən zabit və əsgərlərin çoxu susuzluqdan ölmüşlər» – deyərək məmləkətləri üçün qan axıdan əsgərlərə dəstək olmamaqda onları qınamışdır.

Erməni bolşeviklərin Azərbaycanın hər tərəfində törətdikləri azğınlıqların, vəhşiliklərin böyük vüsət aldığını, dinc əhali qırğınının həddi və səddi ötdüyünü görüncə, Nuru paşa israrla Ənvər paşadan, Qafqaz İslam Ordusundan yardım istəməsinə baxmayaraq, heç bir kömək gəlmirdi. Azəri türklərinin orduda mühüm yer tuta bilmədiyinə əmin olan Nuru paşa birlikləri dağıtmayaraq toplum halında vuruşmağı qərara aldı. Şərq Orduları qrupu Komandiri Baş komandirlik Nazirliyinə 1918-ci il 27 iyun tarixli raportunda deyirdi: «Yerli təşkilatdan heç bir nəticə əldə edilmədi. Gənclərdən silah altına 30 000 adam gözləyirkən, cəmisi 37 nəfər gəlmişdir. Bunlardan istifadə edilə bilməməyimiz anlaşılmışdır. Bakı məsələsini özümüzün tələsik həll etməmiz üçün bölgəyə daha bir diviziya göndərilməsi lazımdır». Azərbaycanlılar orduya gəlmək istəmirlər. Bu da Osmanlı komandirlərinin ruhdan düşməsinə gətirib çıxarırdı. Azərbaycan və azərbaycanlıları erməni və rus qətllərindən qurtarmaq isə artıq cümhuriyyətin ayaq üstə durması demək idi. Xalqın verdiyi dəstək isə çox az idi. Və artıq bolşeviklər ciddi qüvvə ilə Osmanlı qüvvələrinin Azərbaycana göndərilməsinə mane olmağa çalışırdılar. Bir tərəfdən də Almaniya, İngiltərə sevdalaşmaları… Cəbhədə isə NURU PAŞA, nəhayət ki, Azərbaycan milislərini bir araya yığıb 25-ci batalyonu ilə birlikdə Göyçaya, ona bəlli olan səhər tezdən bolşeviklərin edəcəyi hücum nöqtələrini darmadağın etmək üçün göndərdi. Qoşun bolşeviklərin şimaldan irəliləyən ən vacib qolunu məhv etdi. 13-cü Qafqaz alayı Göyçay məğlubiyyətindən sonra Qaraməryəmə çəkilən bolşevikləri izləyərək növbəti şiddətli zərbə vurdu. Artıq hücuma qarşı dura bilməyən düşmən tərəfi çoxlu miqdarda silah, sursat qoyub şərq istiqamətində qaçmağa məcbur oldu. Türk Qafqaz ordusu yenə də erməniləri öldürməyərək, itaət altına alıb, Gəncəni və Göyçayı rus-erməni bolşeviklərindən təmizlədilər. Ehtimal etmək çətin deyil ki, bolşeviklərin Gəncəni işğal edəcəyi halda, yerli ermənilərin iştirakı ilə burda azəri türklərinin məhvi labüd idi. Əgər Azərbaycana Osmanlı müdaxiləsi olmasaydı, Bakı ilə Ermənistan arasındakı maneə – ərazi və xalq aradan götürüləcəkdi. Ermənilərin ən böyük arzusunun həyata keçməsi mütləq idi. LAKİN…



Türk birliklərinin təqibi altında bolşeviklər Kürdəmir–Ağsu xəttinə çəkildilər. 1918-ci il iyulun 5-də Qafqaz İslam Ordusu komandiri cəbhədə olsa da, 10–13-cü Qafqaz alayları düşmən üzərinə hücuma keçdi. Bölgədə istiliyin çox olması, içməli su problemi, yoluxucu xəstəlik… məsələni qəlizləşdirirdi. Dizenteriya, vəba alayda yayılırdı. Qafqaz diviziyasının təchizat rəisi mayor Fuad bəyin vəbadan ölməsi də həyəcan yaratmışdı. Hücumlara ara verməyən

türk ordusu bolşevikləri qaçmağa məcbur etdi. Düşmən Ağsuda geri çəkilə-çəkilə ərazini yandırırdı. Qafqaz alayı onlara çatıb növbəti son zərbəni vurdu. Bolşeviklərdən 1 səhra topu, 5 ağır pulemyot, 1sursat maşını, 15 nəqliyyat maşını və 1 xəstəxana çadırıyla birlikdə tibbi ləvazimatlar qaldı. Bolşeviklərin əlində zirehli qatar, zirehli avtomobillər, sursatın bol olması türkləri məyus etsə də, döyüş davam edirdi. Raportlar vaxtında verilmədiyi kimi, əmrlər də vaxtında alınmırdı. 10 iyulda 13-cü Qafqaz alayına 1 dağ topçu dəstəsi və 46-cı batalyonun gəlməsi 3 gün 2 gecə davam edən döyüş aparmağa imkan verdi. Şərq istiqamətində geri çəkilən erməni və rusların təqibi isə davam edirdi. 18-ci ilin Qara 30–31 martı təkcə Bakıda deyil, Azərbaycanın bir çox bölgələrində də həyata keçirilmişdi. Daşnakların törətdiyi vəhşiliyin öz pik, affekt zirvəsi Şamaxıda olmuşdu. Şəhər adlı ərazidə ancaq tüstülənən xarabalıqlar qalmışdı. Əmirov, Lalayev adlanan Əmiryan və Lalayan adlı erməni quldurları Şirvan torpağında ŞAUMYAN göstərişlərini artıqlaması ilə yerinə yetirdilər. Böyük Ermənistanın yox, Azərbaycanın adını daşıyan bu ərazi və onun türk sakinlərini ucdantutma məhv etmək daşnak əqidəli hər bir ermənininin birinci borcu, daha sonra vəzifəsi idi. Bu elə nəticə oldu ki, hətta sonralar bolşevik mətbuatı yazacaqdı: «...dinc əhaliyə qarşı müəyyən ədalətsizliyə də yol verilmişdir». Yandırılıb əhalisi ilə külə döndərilmiş kəndlər, sağ qalmaq ümidi ilə kiçikyaşlı körpələriylə qədim tarixi abidə olan Cümə məscidinə pənah aparmış qızgəlinlər müqəddəs yerdə təhqirlə qətlə yetirilərək, yerlə yeksan edilmiş allah evləri, müsəlman hamilə qadınların qeyri-insani işgəncələr verilərək dəhşətli şəkildə öldürülməsi ədalətsiz addımlar kimi qiymətləndirilir. Azərbaycana yiyələnib, ona sahiblik etmək isə daşnaklar üçün norma idi. ŞAMAXIDA ermənilərin törətdikləri qətliamlar hələ uzun illər yaddaşlardan çıxmayan, tarixdən isə pozulması mümkün olmayan səhifələr oldu...



19 iyul tarixli əmrlə «Qafqaz İslam Ordusu»nun 13-cü alayına Şamaxı istiqamətində hücuma keçərək qəsəbəni zəbt etmiş düşməni məhv etmək əmri verilmişdi. Leysan yağışlar altında döyüşlərə ara verilmirdi. 19 iyul saat $11^{00}$-da bolşeviklər artıq dayana bilmədikləri üçün geri – malakan rus kəndlərinə çəkildilər. Tarixin çox gec açılmış səhifələrindən bizə aydın oldu ki, Şamaxının yerli əhalisi ilə çox mehriban yaşayan malakanlar da müharibədə ermənilərə dəstək olaraq bizə qarşı vuruşmuşlar. Qafqaz İslam Ordusu komandiri Nuru paşa başda olmaqla, müharibədə düşmən mühasirəyə alınıb məhv edilirdi. Şamaxı küçələrində müharibə dayanmırdı. 20 iyulda ordunun Şimal və Cənub qrupları birlikdə hücuma keçib bolşeviklərin Şamaxı müdafiəsini qırdılar. Türk birlikləri qəsəbəni ermənilərdən azad etdilər. 21 iyulda Şamaxıdan çıxan bolşevik erməni və rus birləşmələri Bakı istiqamətində qaçmağa davam etdilər. **Bu müharibədə 28-ci batalyon komandiri kapitan İZZƏT əfəndi şəhid oldu. Bakı istiqamətinə 10 000-ə qədər erməni və rus əhalisi ilə birgə qaçan bolşeviklər, bu dəfə 2 top, 1 zirehli avtomobil, 6 yük maşını, 30-a qədər nəqliyyat maşını, 6 mətbəx maşını, 1 minik avtomobili və bir qədər də sursat qoyub getdilər.** Türk birliklərinin Bakıya yaxınlaşdığını görüb almanlar **Türk Baş Qərargahına** təzyiq edərək, Osmanlılar tərəfindən hərəkatın dayandırılmasını tələb edirdilər. Ənvər paşa bu tələblərə müsbət yanaşdığını deyib, hərəkatın dayandırılması əmrini versə də, gizli əmrlərlə hücumun davam etdirilməsi və Bakının zəbt edilmək qorxusu üçün tez-tez xəbərdarlıq edilirdi. İyulun 23-də türk birlikləri Bakıya 70 km-ə qədər yaxınlaşmışdılar. Almaniya Osmanlı qüvvələrinə bu hərəkata görə davamlı təzyiqlər edirdi. Ənvər paşa vəzifəsindən istefa vermək həddinə çatsa da, Azərbaycanın, onun paytaxtı Bakının xilasına böyük önəm verirdi. Amma dəyişik siyasi manevrlərdən xali olmamaq, rəsmi sənədlərdə geri çağrılmaq əmri verməklə yanaşı, Qaf-

qaz İslam Ordusuna əsgər, silah, sursat göndərilməsi əmrini də vermişdi. 1918-ci il avqustun 5-də birinci Bakı hücumu müvəffəqiyyət qazanmadı. Səbəb sursat çatışmazlığı olsa da, şəhəri qoruyan ingilislərin, almanların bolşeviklərə necə kömək etməsi də aydın görünür. İkinci cəhd isə alındı. Müxtəlif istiqamətlərdən hücum edərək bolşevikləri Bibiheybətə, Volçivorota, Qobu tərəfdən sıxaraq şimala tərəf çəkilməyə məcbur etdilər. Şiddətlənən türk hücumu, Qafqaz İslam Ordusunun davamlı döyüşləri, hər dəqiqə yanğının qarşısını almaq nəzarəti, düşməni təlaş və dəhşətdən çıxmağa qoymamaq şəhərin zərərsiz xilas edilməsi üçün idi. Erməni və rus birləşmələri general Denstervilin əmri ilə möhkəmlənərək avqustun 6-dan etibarən Bakıda əli silah tutan 16–65 yaşında kişilərin məcburi əsgər çağırılmasına qoşulmaq istəməyən müsəlmanlardan 600 nəfəri edam etdilər. Yenidən hücuma başlayan türk birlikləri uğursuzluğun nəticəsi kimi ingilislərin əsaslı hücumu ilə Qafqaz İslam Ordusunun azad etdiyi bütün Azərbaycan torpaqlarını işğal edərək QARA dənizə qədər irəliləməsi faktorunu bilirdilər. 14 sentyabra qədər hər iki tərəf cəbhəsini möhkəmləndirmişdi. 13 sentyabr QAFQAZ İSLAM ORDUSU komandanlığı diviziyalara göndərdiyi əmrdə də Bakıya hücumunun başlayacağını bildirdi. Böyük qəhrəmanlıq və rəşadətlə, bəlkə də, ən çətin ərazinin – **Bakının** xilası da mümkün oldu. Nuru paşa Bakı hücumundakı qayət və fədakarlığına görə, həmçinin bütövlükdə inadlı mübarizə üçün zabit və əsgərlərə təşəkkür etdi. Şəhərə girən hər bir türk erməni və rusların aylardan bəri türk əhalisini hansı vəhşətlərə məruz qoyduğunu gördülər. Bir də, artıq şəhərdə azəri türkü çox az qalmışdı. Məhəllələrdə cəsədlərdən təpəciklər, körpələri nizələrdə, qadınları divarlarda mıxlardan asılı, müəyyən nahiyələrdən bıçaqlanmış, süngü üstündə qurumuş halda görən əyilməz, məğrur türk zabit və əsgərləri bu mənzərələrdən göz yaşlarını saxlaya bilmirlərmiş. Nuru paşanın Ənvər paşaya gön-



dərdiyi raportda deyilirdi: «Bakının zəbti əsasında öldürülən erməni və rusların sayı 18 martda öldürülən müsəlmanlardan yüzdə birini belə təşkil etmir».

Nəsir Yücəər «Hərb Tarixi» əsərində yazır: «Xəlil və Nuru paşalar şəhərə girdiklərində xilaskar qəhrəman qazilər sifətilə coşqu və sevgilərlə qucaqlandılar. Onların sayəsində Azərbaycan türkləri öz paytaxtına və istiqlalına qovuşdular. Bakı, tarixinin ən həyəcanlı, ən xoşbəxt günlərini yaşayırdı». 29 yaşlı Nuru paşa Azərbaycanın xilası yolunda, «Türkün türkdən başqa dostu yoxdur» məhəbbətini bir daha aşıladı. Daha sonra, Andronikin Naxçıvanda, Zəngəzurda, Qarabağda törətdiyi dəhşətlər bu sevinc və rahatlığı unutdurdu. Yenə türk ordusunun köməkliyi ilə, böyük müqavimətlərdən sonra Andronik qoşunları ilə birlikdə Naxçıvan ərazisindən çıxarıldı. Türklərin və onun qüdrətli sərkərdələri Ənvər paşanın, Nuru paşanın bu hərəkətləri ermənilər bir tərəfə, Rusiyanı da qəzəbləndirməyə bilməzdi. Rusiya rahat istifadə etdiyi Bakı nefti üzərindəki hədsiz mülkiyyət haqqını itirmişdi. Mənafe öz yerində, keçmişləri də xatırlasaq, hər halda, ruslar Böyük Turanın bir hissəsi kimi bu ərazilərin də məhz türklərdən təmizlənməsində maraqlı idilər. Pyotru xatırlayaq... Ancaq o zaman ermənilər də, ruslar da bu istəklərinə nail ola bilmədilər...

## *EPİLOQ*

Baş verən, daha doğrusu, bizə edilən QƏTLİAMLARDAN nəticə kimi biz əxz etməliyik ki, güclülərlə hesablaşırlar, məğlubiyyətə heç kim şərik çıxmır. Böyük Azərbaycanı düşünən, onu bərpa etmək istəyən BİZİ – TÜRK millətini 200 ildir ki, erməni qırır, qanını tökür, ərazisini əlindən alır. Biz dözürük, gözləyirik, yoxsa bacarmırıq? Qətliamları bir-birinin ardınca düzüb tarixləri qeyd edə bilirik,

amma onların əvəzini çıxıb, içimizdə bərabər işarəsi qoya bilmirik. 200 ildir ki, öz evimizdə həyatımızı cəhənnəmə döndərən erməninin haqsız, bizim isə haqlı olduğumuza dünyanı inandırmaq istəyirik. Artıq sonunda biz də nə isə etməliyik...NƏ?

Yiyəlik hissini tapaq, sonra hər şey tanış gələcək...



# Kürəkçay müqaviləsi

1805-ci il may ayının 14-də Gəncə yaxınlığında (20 verstlikdə) Kürəkçay sahilindəki düşərgədə knyaz Sisianov Qarabağ xanlığının rus imperatoruna sədaqət andını qəbul etdi. Xəlil xanın Rusiya təbəəliyinə keçməsi haqqında TRAKTAT imzalanmamışdan bir neçə gün əvvəl bayram, şənlik və qonaqlıq oldu. Sonra traktat və əhdnamə yazıldı. Andlı əhdnamə adlanırdı bu əhdnamə. Qarabağ xanlığını Azərbaycanın tərkibində tanıyan və vassal asılılığına qəbul edən Rus İmperiyasının bu addımı çox böyük uzaqgörənliklə atılmışdı. Sonralar bu faktı az qala nailiyyət kimi qiymətləndirən tədqiqatçılar, əslində məhz bu addımla bütövlükdə QARABAĞA yiyələnmək istəyini həyata keçirən ermənilərin daha münbit zaman şərtlərindən ustalıqla istifadə etdiyini görməli idilər... Beləliklə, «QARABAĞ işğalı faciəsinin ssenarisi» ən azı, məhz bu tarixdən yazılmağa başlandı. 14 MAY 1805-ci ildən.

XVIII əsrin I yarısında isə Azərbaycanın siyasi həyatı TARİXİ coğrafiya baxımdan belə idi:

1. Səfəvilərin hakimiyyətinin sonuna 1736-cı ilə kimi Azərbaycan ərazisi 4 bəylərbəyiliyə bölünmüşdü.

2. Şirvan 1721–1735-ci illərdə İRAN əsarətindən azad olub, müstəqilliyə nail olsa da, Osmanlı imperiyasının asılılığında qalırdı.

3. 1722–1735-ci illərdə Azərbaycanın Xəzəryanı əraziləri çar Rusiyasının tərkibinə daxil edilmişdi.

4. İstanbul müqaviləsinə əsasən 1724-cü ildə Azərbaycan ərazisi Osmanlı imperiyası ilə RUSİYA arasında bölünmüşdü.

5. 1722-ci il RƏŞT və 1735-ci il GƏNCƏ müqavilələrinə görə Xəzəryanı ərazilər Rusiyanın nüfuz dairəsindən İranın nüfuz dairəsinə keçdi.

6. 1736-cı ildə Səfəvilər dövründəki bəylərbəyilik sistemi ləğv edilərək, 4 bəylərbəyiliyi birləşərək VAHİD AZƏRBAYCAN yaradılmışdı. Qarabağ məlikləri Gəncəyə tabe edilmişdi.

7. Azərbaycanın Borçalı və Qazax əraziləri Nadir şah tərəfindən Kaxetiya çarı Temuraza verilmişdi. Qeyd edək ki, BORÇALI indiyə kimi Kaxetiyanın – gürcülərin əlində qalır.

8. Nadir şahın ölümündən sonra, ölkədə parçalanma prosesi daha da şiddətləndi və... AZƏRBAYCAN 30 hissəyə ayrıldı.

Bu gün bəhs etdiyimiz konkret bu hadisədən 200 il keçir. Artıq bizə aydındır ki, AZƏRBAYCANIN həmin günkü bədnam tarixinin yazılmasını mümkün edən gizli xristian siyasətlərindən birinin – KÜRƏKÇAY müqaviləsinin QARABAĞ ssenarisinin yazılması o zaman başlasa da, bugünkü yaxın tariximizə qədər gətirib çıxarmaqla, nəhayət ki, onu həyata da keçirdilər. Vaxtı ilə Qarabağı məliklər üçün müsəlmanlardan təmizləyərək rahat meydana çevirən Rusiya sonralar onun ermənilərin tərəfindən tam mənimsənilməyi üçün əlindən gələni əsirgəmədi. BU BİR GÜNÜN TARİXİ isə bir az əvvəldən başlayır.

## AZƏRBAYCANIN VƏ QARABAĞIN TALEYİNDƏ KÜRƏKÇAY MÜQAVİLƏSİNİN ROLU

Bəhs etdiyimiz dövrdə də, Cənubi Qafqazla bağlı işğalçı mövqe və məqsəd Rusiyanın xarici siyasətində əsas istiqamətlərdən biri idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirmək, XƏZƏR dənizi üzərində sahiblik etmək, Xəzəri Rusiyanın daxili dənizinə çevirmək cəhdində israrlı idi. Azərbaycanın təbii sərvətləri, yeraltı yataq və faydalı qazıntıları rus elminə bəlli olduğundan idi ki, II Yekaterina bu sərvətlərə yiyələnməyi ərazinin istilası ilə mümkün olduğunu söyləmişdi. Həmçinin siyasi və hərbi-strateji əhəmiyyəti haqqında Pyotrun vəsiyyəti, üstəlik Qərbi Avropa dövlətlərinin, xüsusilə İngiltərə və Fransanın Cənubi Qafqazla bağlı digər işğalçı planları vardı. Bir tərəfdən də İRAN. QAFQAZA daxil olan rus qoşunları Gürcüstanla əlaqə yaratmağa çalışırdı. 1801-ci ildə Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan edildi. İmperiya rus qoşunlarının baş komandan tərəfindən idarə edəcəyi Tiflis quberniyası yaratdı. Azərbaycan ərazisinin bir hissəsi QAZAX, BORÇALI, ŞƏMŞƏDDİN sultanlıqları Karti-Kaxetiya ilə birlikdə Rusiyanın vassal asılılığını qəbul etdilər. Artıq Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının bir hissəsi də Rusiya himayəsinə daxil oldu. Başqa sözlə, Rusiya Pyotrun vəsiyyətinə sadiq qalaraq və I ALEKSANDRIN xeyir-duası ilə bu ərazilərin istilasına başladı. Beləliklə, əvvəl Car-Balakən, sonra GƏNCƏ xanlığı, daha sonra isə növbə QARABAĞA gəlib çıxdı.



Qarabağ xanlığının təbii-coğrafi sərhədləri bu cür idi:

Şimal-qərb tərəfdən KÜRƏK çayı və QARA çay sərhəd olmaqla Gəncə xanlığı ilə də həmsərhəd idi. Qarabağ xanlığı cənub-qərb tərəfdən Naxçıvan xanlığı, həm də Gəncə və İrəvan xanlığı ilə həmsərhəd olmuşdur. Kür çayı boyunca şimal-qərb tərəfdən ŞƏKİ, yenə KÜR çayı sərhəd olmaqla ŞİRVANLA, cənub-şərq tərəfdən TƏBRİZ və ƏRDƏBİL xanlığı ilə qonşu idi. Qarabağ **Kiçik Qafqazın** orta və son hissəsini əhatə edirdi. Bütövlükdə Qarabağın tərkibində SİSYAN, Demirçi-Aslanlı, Küpara, Bərgüşad, Bahab yurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbörd, Xırda-para Dizaq, Otuziki, İyirmidörd, Qaraçorlu, Vərəndə, Dizaq, Adcan adlı 17 türk mahalı vardı.

Qarabağda ermənilərin məliklər adı ilə mövcudluğu və bu xəmsə məliklərinin, yəni say etibarı ilə beşlik olması bəlli olsa da,

əslində bu termin albanlara məxsusdur. Keçmiş Albaniya ərazisində – indiki Azərbaycanda Qəbələ məlikliyi, Ərəş məlikliyi olub. Araşdırmalar göstərir ki, VIII yüzillikdə bu ərazidəki albanlar ərəblərin işğalından sonra, islamı qəbul etməyərək xaçpərəst qalan, sonrakı dövrdə erməniləşən albanlardır. **1783-cü ildə Şimali Qafqazın GEORGİYEVSK qəsəbəsində Rusiya ilə Gürcüstan arasında bağlanmış müqaviləyə** görə, Gürcüstan Rusiyanın himayəsini qəbul etdi. Bu, həmin o ildə Böyük Qafqaz dağlarından çəkilən HƏRBİ Gürcüstan yolu Şimali Qafqazla Zaqafqaziyanı sıx əlaqələndirirdi. İsrail Orinin fikrincə isə: «Ruslar hücuma başlarsa, Türkiyədə və İranda yaşayan ermənilər də dərhal öz kömək əllərini uzadacaqlar». Qafqazı tutmaq, RUSİYAYA tabe etmək planı I Pyotrun vaxtında verdiyi tapşırıq idi və nə qədər zaman keçməsindən asılı olmayaraq, onu həyata keçirmək mütləqliyi gündəmdə qalırdı. Bu, təbii ki, İRANI ciddi şəkildə narahat edirdi. Belə ki, XVIII əsrin 80–90-cı illərində İranda QACAR tayfasından Ağa Məhəmməd xanın idarəsi ilə mərkəzi dövlət vardı. Onun işğalçı planlarının tərkibində Qarabağ xanlığı mühüm əhəmiyyət daşıyırdı. Qarabağ xanlığında isə məhz Rusiyaya meyil güclü idi.

Bu o zaman idi ki, İBRAHİM xanla AĞA MƏHƏMMƏD şah arasında çoxlu anlaşılmazlıqlar vardı. Qacarın Qarabağ istiqamətindəki savaş və yürüşləri bir nəticə verməsə də, Ağa Məhəmməd şah müharibələrində qələbə çalmağa çox israrlı idi. İBRAHİM xan dəfələrlə siyasi xadim kimi, həmçinin sərkərdə məharətini ONA sübut etməsinə baxmayaraq, QARABAĞI işğal edib, İbrahim xanı məhv etmək Qacarın əsas məqsədlərindən biri idi. Vaxtı ilə Ağa Məhəmməd Şahın yanında öz dəstəsi ilə bələdçi-məsləhətçi işləyən A. Beknazaryanın xatirələrini 1886-cı ildə çap etdirmiş Barxudaryan **«QARABAĞIN SİRRİ»** adlı əsərində qeyd edirdi: «Qarabağa İran yürüşü qüvvətləndikcə məliklərin xəyanəti daha da artırdı».



Rus tarixçisi S.M.Sovolyovun verdiyi məlumata görə, həmin dövrdə erməni siyasətçisi Qafqaz regionunda yaşayan xristianların, xüsusi ilə məliklərin həlledici anda Rusiyaya kömək edəcəyini I PYOTRA məktubla çatdırmışdı. Bəli, bu o erməni siyasətçisi idi ki, hələ 1701-ci ildən I PYOTRA Şərq siyasəti ilə bağlı 3 məktub göndərərək, onun diqqətini cəlb etmişdir. Siyasətin ana xəttini Qafqazı işğal etməyin mütləqliyi, həmçinin müsəlmanlardan təmizlənməsi məsələsi təşkil edirdi. O, rus qoşunlarının Qafqaz yürüşünün marşrut, hərəkət xəttini düşünmüş, hətta konkret plan da tərtib etmişdir. **1701-ci il 22 iyul tarixli məktub** bu planın təqdimidir. İsrail ORİ məktubunda qeyd edirdi ki, Qafqaz rus tərəfindən işğal olunduqdan və hərbi yürüş başa çatdıqdan sonra əlahəzrət və onun qoşunu məhz rusların köməyi ilə yaradılacaq ERMƏNİ KRALLIĞINDA qışlaya bilərlər. Həmin Ori müsəlman torpaqlarında erməni dövlətini qurmaq arzusu ilə, təkcə İRƏVAN torpaqlarında deyil, bütün **Qafqazdan** müsəlmanların qovulması məsələsini gündəmə qoyurdu. I PYOTRUN isə başlıca məqsədi XƏZƏRSAHİLİ vilayətlərə yiyələnmək və Türkiyənin bu yerlərə nəzarətinin qarşısını almaq idi.

Həmin illərdə isə İran şahı Qacarın regionda gücü və səlahiyyəti yetərincə idi. Dəfələrlə QAFQAZA etdiyi viranedici yürüşlərdə onunla hesablaşmamağın nə olduğunu göstərmişdi. Pyotrun ölümündən sonra, 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Azərbaycana və Gürcüstana hücumu zamanı Rusiya hökumətinin Cənubi Qafqaza məhz Suvorovun başçılığı ilə qoşun yeritmək planı da erməni siyasətçilərinin təhrikilə idi. Niyə SUVOROV? Arzumanyanın fikirlərinə istinad etsək, Suvorovun ermənipərəst mövqeyi Rusiya – Türkiyə müharibəsində artıq özünü büruzə vermişdi. Onu əhatə edən erməni sərkərdələrinin köməyinə arxalandığı XASTOV yetər idi ki, Suvorov bu din qardaşı adlanan erməninin mövqeyini qorusun. Ağa Məhəmməd şahla sülh danışığı isə qeyri-mümkün idi.

Ağa Məhəmməd şahın İrakliyə göndərdiyi ultimatum çox məsələlərə aydınlıq gətirir. ULTİMATUMDAN göründüyü kimi, İRAN şahı gürcüləri və ermaniləri rusporəstlikdə ittiham edir. Onları cəzalandırmaq üçün Cənubi Qafqaza hücum edəcəyini deyir. O, **Ultimatumda II İrakliyə** bildirir:

«...sən ruslara qoşulmusan. O ruslara ki, iş- peşələri İranda alver etməkdir. Sən yaşı 90-ı haqlamış adamsan, amma bağışlanılmaz səhvlərə yol vermisən. Mənim kafir adlandırdıqlarımı torpağına buraxaraq, onlarla birləşmisən. Sən bizə öz sadiqliyini sübut etməlisən, ruslarla əlaqəni tamam kəsməlisiz. Əgər bu göstərişə əməl etməsən, çox qısa müddətdə Gürcüstana hücum edəcək, ruslarla bərabər, gürcüləri də qılıncdan keçirib qanınızı KÜR çayına bənzər bir çay kimi axıdacağıq».

Beləliklə, İRAN şahına qarşı 1795-ci il müharibəsi Qarabağla Gürcüstanı qardaşlaşdırdı. Hələ 1783-cü ildə İBRAHİM xan II YEKATERİNAYA müraciət edərək, Peterburqa elçilər göndərərək Rusiya təbəəliyinə keçmək niyyətini bildirmişdi. **1784-cü ildə knyaz Potyomkinin II Yekaterinadan aldığı fərmanda** «İbrahim xana gəlincə, onun Rusiya təbəəliyinə qəbulunda çətinlik, maneə yoxdursa, İRAKLİYƏ qarşı yürütdüyümüz siyasəti əldə rəhbər tutmaq olar. Onun Rusiya taxtına tabe olması, mənim və xələflərimin onun və xələflərinin üzərində ali hakimiyyətini tapması deməkdir. General poruçik Potyomkinə tapşırıq verməyi yaddan çıxarmayın» – sözləri yazılmışdı. Bu sənəddən bəlli olur ki, Yekaterina hələ 1783-cü ildə bütün Zaqafqaziyanı Rusiyaya tabe etməyə hazır idi. XVIII əsrin 80-ci illərindən başlayaraq Qarabağ xanlığı ilə Rusiyanın hərbi-siyasi əlaqələrinə daha çox diqqət yetirilirdi. Çar Rusiyası isə, əslində Qafqazın bütün iqtisadi, hərbi-strateji əyalətlərini zəbt etmək üçün müxtəlif planlar hazırlayırdı.



Kiçik bir haşiyə: İbrahim xan bilmişdi ki, knyaz POTYOMKİN Asiyada xristian dövləti yaratmaq istəyir. Bu məqsədlə də Qarabağdakı məliklərə arxalanmaq fikrindədir. Bu isə ən azı İbrahim xan üçün hakimiyyətin itməsi demək idi.

Ən böyük sual da elə burdan yaranır. Necə olur ki, İSLAMI guya güc, qılıncla qəbul etdirən ərəblər çox az sayda dinin dəyişməyən alban, sonra ermənilşən xristianlara toxunmadı? Cavab versiyaları çox olsa da, inandırıcı deyil. Tək tanrıçılıq, müxtəlif təriqətlər... E.ə. II əsrdən 387-ci ilə qədər Albaniya çarlığının ərazisi – Kür çayının sağ sahilindəki Dağlıq QARABAĞ və Düzənlik QARABAĞ daxil olmaqla, digər sərhədi müasir Ağsuya qədər Kür çayının sol sahilini tuturdu. Strabonun yazdığına görə, Albaniyanın ərazisində 26 tayfa vardı və hər bir tayfa öz dilində danışırdı. V əsrin 10-cu ilində mükəmməl olaraq ALBAN əlifbası yarandı. II əsrdən yaranmış ALBANİYA kilsəsi VIII əsrin əvvəllərində ermənilərin istifadəsinə keçdi və bütünlüklə erməniləşdi. Və artıq Kürün sağ sahilindəki əhalinin də erməniləşdirilmə prosesi başa çatdı. Ermənilər böyük uzaqgörənliklə ərazidəki alban mədəniyyəti və alban ədəbiyyatını ömürlük, tamam-kamal yerlə-yeksan etdilər. Çox az sayda qayan aborigen əhali – albanlar erməniləşmə və gürcüləşmədən qurtulmaq üçün ərəblərin dinini qəbul etdi. Sonralar isə ərazidəki qədim türk tayfalarına qarışaraq müasir AZƏRBAYCAN xalqına çevrildi. Ermənilər isə özlərini yerli əhali statusunda görmək arzusunda idilər. Elə bu arzularına çatmağa daim böyük maneə də həmişə TÜRKLƏR olmuşdu.

Təsadüfi deyil ki, XVIII yüzilliyin başlanğıcında Pyotr XƏZƏR ətrafı ilə maraqlanarkən çar Rusiyasının himayəsində müstəqilliyə can atan, özlərini alban erməniləri adlandıran məliklər Qarabağda daha çox maraqlı idilər. Ulubabyanın yazdığına görə: «Qarabağ dünənki köçərilərin vəhşi qəddarlığına məruz qaldı». O, Pənah

Əli xanı gəlmə, vəhşi despot adlandırır. Çox təəssüf ki, Pənah Əli xan da, İbrahim xan da məlikləri özünə tabe etsə də, onlarla çox xoş rəftar edir, elə həmin artan-çoxalan ermənilərin gizli səyləri ilə hətta onların qızları ilə evlənirdilər. Vaxtı ilə **I Pyotrun 10 noyabr 1724-cü ildə imzaladığı fərmanda** da ruslar tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsinə, müsəlmanların sayının mümkün qədər azaldılmasına, şübhələnən müsəlmanların bu ərazidən çıxarılmasına, həmçinin münbit torpaqların ermənilərə verilməsinə xüsusi səyin artırılması qeyd edilir. I Pyotr vəfat etdikdən sonra bu müddəalar **Rusiya Xarici İşlər Nazirliyi kollegiyasının 11 fevral 1725-ci il tarixli qərarı və II Yekaterinanın 22 fevral 1726-cı il tarixli fərmanı** ilə təsdiq olundu. I Pyotrun Rusiya mənafeyi naminə ermənilərə belə diqqət göstərməsi təsadüfi deyildi. İmperiya Xəzəryanı əyalətlərdə, xüsusi ilə müsəlmanlar yaşayan regionlarda ermənilərin məskunlaşmasına gələcəkdə həyata keçirməsi nəzərdə tutulan ŞƏRQ SİYASƏTİNİN tərkib hissəsi kimi baxırdı.

Pyotr böyük strateji əhəmiyyət daşıyan **Qafqazı** ələ keçirməklə YAXIN ŞƏRQƏ yol açmaq, daha sonra vəsiyyətində qeyd etdiyi kimi, TÜRKİYƏ, sonra Hindistanla bağlı məqsədinə çatmaq planını düşünmüşdü. Erməni siyasətbazları PYOTRUN ölümündən sonra imperator sarayına müxtəlif nümayəndələr göndərir, ayrı-ayrı məmurlarla əlaqələr quraraq QAFQAZIN böyük var-dövlət, zəngin sərvət mənbəyi olduğunu bildirməklə, onun mütləq işğalının xristian dünyası üçün önəmli olduğunu bilərək yolurmadan iş görürdülər. Həmişə də türklərin – osmanlıların bu məsələlərdə böyük təhlükə olduğunu da xüsusi vurğulayırdılar. İbrahim xan isə **Qarabağdakı** bu məliklərin əl-qol açmasına imkan vermirdi. Bu isə artıq ermənilərin gizli niyyətlərinə çox böyük maneə idi. Və erməniləri özünə bələdçi – məsləhətçi seçən İran şahının bir-birinin ardınca



hücum və hədələri, üstəlik, Qacardan sonra hakimiyyətə gələn Fətəli ŞAHIN erməni qızından olan oğlu Əbülfət bəyi onun yanına sifarişlə göndərməsi İbrahim xanı təbdən çıxarmışdı. ŞAHIN ismarıcı bu idi ki, İbrahim xan oğlu Əbülfət bəydən izinsiz və məsləhətsiz heç bir iş görməsin. Qarabağ xanlığı yaranan gündən ilk dəfə idi ki, İBRAHİM xana belə təhqiranə bir təklif edilirdi. Fətəli şahın məqsədi aydın idi. O, Qarabağın – İbrahim xanın suverenliyini pozmaq istəyirdi. Anası erməni olan Əbülfət xan qohumluq əlaqələrinə baxmayaraq, həm Fətəli şaha, həm də məliklərə xidmət göstərərək İbrahim xanın əleyhinə fəal mübarizədə idi. İbrahim xan tarixi şəraitlə hesablaşaraq Rusiyanın itaət şərtlərini müəyyənləşdirmək təklifini seçdi. Beləliklə, 1805-ci ilin mayında, xanlığın sərhəddində, KÜRƏKÇAY sahilindəki düşərgədə knyaz Sisianov Qarabağ xanlığının rus imperatorluğuna sədaqəti haqqında **andını** qəbul etdi.

Bağlanmış **Kürəkçay müqaviləsi** İRAN şahının qəzəbinə səbəb oldu.

## TRAKTIN LAYİHƏSİ

**Qadir ALLAH naminə**

Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi kn. Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator Əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla ALLAHIN köməyi ilə Şuşalı və QARABAĞLI İbrahim xanın bütün ailəsi, nəsli, ölkəsi ilə Böyük Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük İ.Ə. ALEKSANDR Pavloviç və onun yüksək varisinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq.

### Birinci maddə

Mən, Şuşalı və QARABAĞLI İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür asılılığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Böyük Rusiyanın böyük İMPERATOR ƏLAHƏZRƏTLƏRİNƏ və onun yüksək varislərinə və vəliəhdlərinə, həmin taxt- taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs QURANA and içməliyəm.

### İkinci maddə

İmperator Əlahəzrətləri zati-aliləri həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan, onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç bir vaxt əsirgəməyəcəklər. Buna sübut olaraq İmperator Əlahəzrətləri zati-alilərinin, xanın və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.

### Üçüncü maddə

Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura



aldıqdan sonra, Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasimi Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran infanteriya generalı knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.

### Dördüncü maddə

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim varislərim Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları **Baş Hakimə** göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanlar haqda isə məlumat verməyə və Gürcüstan Baş Hakimi tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

### Beşinci maddə

İ.Ə. Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir:

1) Həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən, az da olsa ayırmayaraq öz təbəələri sayacaqlar.

2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin arxasının QARABAĞ xanlığı üzərində hakimiyyəti dəyişməz saxlanacaqdır.

3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı, ölkədən yığılan gəlir zati-alilərin səlahiyyətində qalacaqdır.

4) Zati-alilərin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, habelə toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş Hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərin ölkəsini Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

**Altıncı maddə**

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq Söz verirəm:

1) İstər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür.

2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odun ilə təmin edəcəyəm.

3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm.

4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

**Yeddinci maddə**

İ.Ə-nin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Böyük Rusiya imperiyasının gerbi olan bayraqla



təltif edir. Bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

**Səkkizinci maddə**

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İ.Ə-nin yüksək razılığı ilə özümün gəlirimdən, həmişəki kimi, istifadə etməyə icazəm olduğundan İ.Ə-nin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram. Bac iki müddətə, yəni bir hissəsi fevralın 10-da, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktın İ.Ə. tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa, Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məmmədhəsən ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

**Doqquzuncu maddə**

İmperator Əlahəzrətləri Özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri xanın nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

**Onuncu maddə**

Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.

**On birinci maddə**

Bu traktın İmperator Əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır. Yuxarıda-

kıların həqiqətə uyğun olduğunu bildirmək üçün aşağıda imza edənlər YELİZAVETAPOL dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular.

Xeyli zaman keçəcəkdi... 1945-ci ildə M.C.Bağırovun 27 noyabr tarixli məktubunda «...Biz, bəlkə də, Qarabağla bağlı hansısa mübahisəni davam edə bilərik, amma ŞUŞA haqqında heç bir cəhd etməyi düşünməyin. ŞUŞA heç bir vaxt ermənilərin müzakirəsinə verilməyəcək!» – deməsi, 1973-cü ildə DQMV-nin 50 illik təntənəli yubileyində Xankəndində nitq söyləyən H.ƏLİYEV Qarabağda ayaq tutan antitürk əhvalının ən qaynar vaxtında birdən-birə hamıya tam aydın şəkildə «Belə şayiələr gəzir ki, Qarabağ Azərbaycanın tərkibindən çıxarılmalıdır və Qarabağ Ermənistanın tərkibində olmalıdır... Mən isə birmənalı şəkildə bəyan edirəm ki, QARABAĞ heç bir vaxt Ermənistanın tərkibində olmayacaq. Qarabağ AZƏRBAYCANIN tarixən qədim torpağıdır... Bu dəyişilməz olaraq qalacaq. Buna tam əmin olun» – deyə konkret münasibət bildirməsi, zaman-zaman erməni cəhd və səylərini bir qədər səngitsə də, tam dayandıra bilmədi. Konkret şəxsiyyətlərə olan qorxu, ehtiyat onları daha da tədbirli davranmağa, daha münasib zaman gözləməyə vadar etdi. İndiki əqidəmizdə nəticə olaraq gətirdiyi dərin məyusluqla bərabər, heç də həmişə birmənalı qarşılanmayan, bu gün bəhs etdiyimiz KÜRƏKÇAY müqaviləsindən tarixi fakt kimi qidalanmağımız da gərəkdir. Tək səhvlərdən yox, İbrahim xanın diplomatik gediş adlandıracağımız siyasi dərsini də əxz etməliyik.

Müqavilədəki iki mühüm maddə-fakta bir də işıq salaq. Müqavilənin 2-ci bəndindəki «zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç bir vaxt əsirgəməyəcəklər. Buna sübut olaraq İmperator Əlahəzrətləri zati-aliləri xanın və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir».



Burda diqqət yetirməli olduğumuz məqam da, əslində beynəlxalq hüquq normalarına müvafiq olaraq, ölkənin ona məxsus bütövlüyünə Azərbaycanın Qarabağının bütövlüyünü tanıyan İmperiya həm onu tanıyır, həm də onun qorunmasına zəmanət verir. Rusiya, nəticə etibarı ilə, öz vədini yerinə yetirmədi demək olmaz. Xanlıq da müəyyən dəyişiklik etsə də, hakimiyyəti varislərlə saxladı, xanlığı o biri xanlıqlar kimi ləğv etmədi. Azərbaycanın ən böyük xanlığı olan QARABAĞ xanlığını işğal və vassal asılılığı yox, rəsmi olsa da, müqavilə bağladığı bərabər statusda olan bütöv və azad ərazi kimi tanımaqda davam etdi. Burda **azad, müstəqil** sözü qüsurludur. Amma sənəd faktdır. Başqa bir məqam, bütün hakimlər, bütün zamanlarda hakim sülalələri üçün hakimiyyətin qorunması, varislərin hakimiyyətdə qalması, hakimliyin bərpası məsələsi olub. İbrahim xan bağladığı müqavilədə İmperator özü ona diqqət yetirir: Müqavilənin beşinci maddəsində İ.Ə. Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin arxasının QARABAĞ xanlığı üzərində hakimiyyəti dəyişməz saxlanacaqdır.

Bu İmperiyanın AZİAT adlandırdıqları xalqa «söz yox, güc göstərmək mütləqliyi» münasibətinin tüğyan etdiyi bir vaxt kəsiyində İbrahim xana verdiyi vəd idi. Halbuki, bizə bəllidir ki, çar Rusiyası onsuz da Azərbaycan adlı ərazini işğal etməkdə israrlı idi, necə ki, etdi. Şuşalı və Qarabağlı İbrahim xana olan bu münasibətdə ancaq və ancaq xanın o biri xanlardan bir diplomat kimi siyasi şüur baxımından kəskin fərqi, həmçinin ona münasibətdə qarşı tərəfin yetərincə ehtiyatlı olduğu da görünür. Özü də, xüsusi vurğulanan

ŞUŞALI və QARABAĞLI İbrahim xan ifadəsi...QIZILBAŞLARIN – İran qoşunlarının heç bir vaxt ala bilmədikləri ŞUŞAYA mütləq istinad! Halbuki Qarabağın xanı olan İbrahim xan ŞUŞALI ifadəsində israrlı deyildi.

Daha bir başqa məqam... Tarixdə ALTERNATİVLİK məsələsi. Konkret bu tarixi prosesə – Rusiyanın işğal siyasətinə münasibət birmənalı olsa da, xanlıqların bu işğala yanaşması isə heç də birmənalı deyil. Azərbaycanın hissə- hissə işğalında birgə müdafiənin mütləq olmasından danışmağa artıq lüzum olmadığı üçün, variantlara nəzər salaq:

1-ci Təbii ki, döyüş meydanında öz azadlığı uğrunda mübarizə aparmaq idi.

2-ci Diplomat kimi müəyyən manevrlər edərək, məmləkəti, yaxud xanlığı saxlamaq yolu idi.

3-cü Daima müasir olan QAÇMAQ – ancaq öz canını və varislərini qorumaq.

Əgər biz daha sıx diplomat İbrahim xanı qəhrəman və ŞƏHİD Cavad xanla müqayisə etsək, onda onun da döyüşməyini, müqavimət göstərməyini məqbul bilərik. Müttəfiq, kömək yox idi (bunu Cavad xanın təkbaşına apardığı kamikadze mübarizəsi də təsdiq etdi).

Nə qədər qüdrətli olsa da, gücünün imperiya qoşunlarının gücü ilə müqayisəyə gəlməzliyini aydın görən və illüziyaya qapılmadan, nəyin bahasına olursa-olsun QARABAĞIN bütövlüyünü saxlamaq cəhdi İBRAHİM xanı məhz bu seçimə yönəltdi. Və əgər biz, Sisianovun CAVAD xana yazdığı məktublarla İbrahim xana etdiyi müraciətləri, daha sonra traktı yanaşı qoysaq, Rusiyanın İbrahim xanı, sözdə olsa da, bərabər statusda qarşı tərəf kimi qəbul etdiyini görəcəyik. Bu, indiki diplomatiya və demokratiya şəraitində bir o qədər təəccüb doğurmasa da, o zaman üçün heyrətamiz fakt idi.



Azərbaycanın ən böyük xanlığı olan QARABAĞDA 40 ildən çox xanlıq edən İbrahim xanın bu son cəhdlərindən indi də qidalanmaq olar. İndiki Rusiya İmperiyasına, belə Tarixi məsələlərə həssas yanaşan QƏRBƏ, həmçinin Ermənistan adlanan qarşı tərəfə Qafqazı həmişə nəzarətində saxlayan, daima sahiblik iddiasında qalan Böyük Rus İmperiyasının, məhz Azərbaycanın **Qarabağının** bütövlüyünü tanıması və **yadelli işğalçılardan və daxildəki xəyanətkar məliklərdən** qorumağa söz verməsini «TARİXİ FAKT», Böyük İmperiyanın müdrik addımı kimi xatırlatmalıyıq.

17 il qüvvədə olan Traktatın müəyyən maddələri üzərində xüsusi dayanmaq gərəkdir. Diqqət yetirməli olduğumuz məqam isə odur ki, xüsusi olaraq 1-ci maddədə göstərilən hər hansı təbəəliyi rədd edən xan guya ki, tam azad olaraq özünün və varislərinin üzərində Rusiyanın böyük İMPERATOR ƏLAHƏZRƏTLƏRİNƏ, onun yüksək varislərinə və vəliəhdlərinə həmin taxt-taca sədaqət vəd edərək, onun sadiq qulu olduğuna müqəddəs QURANA and içməsidir...

«Aziatlar» adlanan bizlərin sözünə inanmayaraq, inanc qorxusu ilə alver edirlər. Daha sonra isə 4-cü maddədə bir şərt kimi göstərilən «hər hansı tutarlı məktub, ya ki xəbəri BAŞ HAKİMƏ göndərməyə və ondan icazə istəməyə söz verdiyi», lakin əməl etmədiyinə görə (belə bir ehtimal vardı ki, xan Qızılbaşlarla əlaqədədir. Yəni İran şahı ilə) cəzalandırıldı. Halbuki elə traktın 2-ci bəndində qeyd edilirdi ki, İmperator Əlahəzrətləri zati-aliləri özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verirdi ki, onlar zati-aliləri Şuşalı və QARABAĞLI İbrahim xandan, onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç bir vaxt əsirgəməyəcəkdir. Lakin çox az sonra, heç bir il belə ötməmiş, şayiə kimi səslənən fikirləri saf-çürük belə etmədən nəinki havadar, heç ədalətli düşmən də olmadı. Nəinki özünü, ailə-

si və bütün əqrabasını vəhşicəsinə qətliam etdi... böyük imperatorun varisləri...Bəlkə də, İbrahim xan, ancaq xanlığını xilas etmək üçün kafirə açdığı qucağı üçün elə inancından yıxıldı. Nə girov etdiyi oğlu onun qisasını aldı, nə onun taxtında əyləşib atasının xanlığında rusların tapşırığını yerinə yetirməklə məşğul olan vəliəhdi, nə də başı daşdan daşa dəyəndən sonra, hələ də düşmənlərinə tərəddüdlə baxan din qardaşları... Onlara da, mənafe daha maraqlı idi, axı. Vətəni, yurdu, torpağı qorumaq, özümüzdən sonrakılara ötürmək heç o vaxt da bizim əxlaq kredomuzda olmayıb. Buna – VƏTƏN ƏXLAQI deyirlər.

Yenə keçmişə qayıdaq. Bu əhdnamə İbrahim xan üçün xilas yolu idi, amma bunu bizim başa düşməyimiz çox çətindir. Çünki sonrakı nəsil, yəni bizlər nə qədər əlimizdə bayraq etsək də ki... Rus imperiyası bir tərəf kimi hansısa erməni ilə yox, QARABAĞ xanı ilə bərabər statusda ərazi alveri edib və xanlığının özündən sonra da varislərinə ötürülməsində imperator himayəsini saxlayıb, çox az müddətdə olsa da... Ancaq bizə bu da bəlli olacaqdı ki, bunların heç biri Qarabağı xilas etmədi. Əksinə, QARABAĞIN, bütövlükdə Azərbaycanın tarixinin daha da bədnam şəkildə yazılmasına xidmət etdi. İndisə, bütün bu xristian siyasətini daha da aydın dərk etmək üçün 1781-ci ilə geri qayıdaq... Qarabağda İbrahim xanın əleyhinə çox az sayda olan məliklər onu taxtdan salmaq, türkü xanlıqdan uzaqlaşdırmaq məqsədilə POTYOMKİNƏ israrla bildirirdilər ki, Qarabağda xanlıq devrilərsə, onlar Rusiyanın himayəsi altında burda xristian dövləti yaratmaq arzusundadırlar. Hansı yollarlasa, bundan xəbər tutan İBRAHİMXƏLİL xan diplomatik bir addım ataraq II YEKATERİNAYA – onun hökumətinə bildirdi ki, O, Qarabağ xanı, Rusiya himayəsini qəbul etməyə hazırdır. Bəli, Yekaterina da bu məktuba biganə qalmadı. O, Qafqazda fəaliyyət göstərən POTYOMKİNƏ yazdı ki: «Türklərdən və İranlılardan fərqli olaraq, Qarabağ xanı çox nəzakətli təsir bağışlayır. Onun haqqında mənə məlumat verin».



İbrahim xan Fətəli xanın hücumlarını dəf etdi. Xaçın məliyi və Vərəndə məliyi onunla müttəfiqliyini bildirdilər. 1781-ci ildə İbrahimxəlil xan Xaçın və Vərəndə məliklərinin dəstələri ilə Tuğ qalasını mühasirəyə aldılar, Dizaq məliyi Yesayı hakimiyyətini çevirərək, qardaşı oğlu Bahtamı məlik təyin etdilər. Bu və ya digər halda Yekaterina İbrahim xana hərbi yardımla kömək etməyə tələsmirdi. Səbəb isə: Şuşa qalasında həbsdə olan məliklərin zindandan qaçıb Tiflisə getmələri üçün yaranan imkan idi. Həmin dövrdə bir başqa fakt da vardı ki, Rus qoşunlarının komandiri BURNAŞOV hər hansı səbəbdən Qarabağa hücum etmiş, lakin başlanan rus-türk müharibəsinə görə Tiflisə qayıtmağa məcbur olmuşdur. Təbii ki, bunları İbrahim xan bilirdi. Bu həmlələrin nə vaxtsa qaçılmaz olduğunu da dərk edirdi. Buna görə, özü israrla Rusiya ilə əlaqə yaratmaq üçün işlər görməyə başladı. İllah da ki, o illərdə Naxçıvan xanlığı, Qaradağ, Ərdəbil, Xoy və digər xanlıqlar İbrahim xana tərəfdar olmuşdular. Ancaq nə şəkili Hacı Çələbi xan, nə urmiyalı Fətəli xan Əfşar, nə qubalı Fətəli xan, nə də ki, qarabağlı İbrahim xan dağınıq, pərən-pərən düşmüş Azərbaycanı birləşdirib vahid düşmənlə bir səngərdə vuruşa bilmədilər. Ərazilərin birləşdirilməsi naminə atılan hər bir addım, uğur qazanan hər hansı bir xan digərlərinin müqavimətinə, şəxsi mənafe toqquşmasından əks təsirlə qarşılanırdı. Nə isə...

1805-ci ilin sonu başlasa da, 1806-cı ilin əvvəllərində RUS–İRAN müharibəsi daha da geniş miqyas aldı. Əvvəlcə, bu müharibədə QARABAĞI Rusiya himayəsindən çıxarmaq məqsədini daşıyırdı. Məhz elə bu tarixdən Qarabağa ermənilərin kütləvi şəkildə köçməsi başlanır. Sisianovun Bakıda öldürülməsi xəbərindən sonra İbrahim xan həm Rusiya ilə bağlanmış müqavilə ilə bağlı, həm də qızılbaşların davamlı mübarizəsinə tərəddüdlə yanaşmağa başladı. Tərəddüd: hər iki tərəfi Qarabağa bağlayan məhz işğalçı məqsədli olmaları idi. Üstəlik, daxili münaqişə və müharibələr, çəpəri sər-

həddən üstün tutan, mənafeyini gözləyən feodallar zahirən ona tabe, əslində isə həmişə ona qarşı çıxan, xəyanət edən Qarabağ məlikləri ilə gizli, ya ki aşkar vuruşmaq İbrahim xanı yormuşdu. Nəinki qonşularıyla, qardaş xanların da rəqabəti, həmçinin daima fürsət gözləmələri onu təbdən çıxarırdı. Bir tərəfdən də cənub sərhədlərindən İRAN qoşunları. İbrahim xan yorulmuşdu…

İbrahim xan rusların əsas məqsədini təzə-təzə anlayırdı ki, qızılbaşlar İbrahim xanla danışıqlar aparmağa cəhdlər göstərməyə başladılar. 1806-cı ilin yazında Qızılbaş qoşunları yenidən Qarabağa hücum etdi. İran ordusunun qarşısında daha davam gətirə bilməyəcəyini hiss edən LİSANEVİÇ öz batalyonu ilə ŞUŞAYA çəkildi. Ermənilərə müraciət etdi: «Doğrudanmı, bu günə kimi qəhrəmanlıqla mübarizə aparan Qarabağ erməniləri, siz arvad kimi qorxaqsız? Cəsarətinizi qaytarın. Qələbəyə hazır olun. Hamıya cəsur Qarabağ ermənilərinin kim olduğunu göstərin».

Təbii ki, Lisaneviç ermənilərin Gəncə xanı CAVAD xana qarşı vuruşmasını və İbrahim xanın əleyhinə gördüyü işləri nəzərdə tuturdu. İbrahim xan çox böyük tərəddüd içində idi. Qızılbaşların növbəti hücumu zamanı İbrahim xan öz ailəsi ilə birlikdə Şuşanı tərk edərək XANKƏNDİNƏ gəldi. Çox zaman bu məkan Xan bağı da adlanır. Lisaneviçin dostluq etdiyi məlik Cümşüd Şahnəzərov İbrahim xanın köhnə düşməni idi. O, Lisaneviçi inandıra bilmişdi ki, İbrahim xan İranla gizli əlaqə saxlayır, ruslara xəyanət edir. Məlik Cümşüd çarın Qarabağ casusu idi, xüsusi təqaüd alırdı. O, Qarabağda erməni ağalığına nail olmaq istəyirdi, bununçün də əlindən gələni edirdi. 1806-cı il martın 30-da Cəmşid Şahnəzərov, yəni Şahnəzəryan Rusiyaya göndərdiyi məktubunda yazırdı: «Qarabağ varlı yerdir. Buranın xristianların hakimiyyətində olması çox vacibdir». Digər məktubunda isə o, «Qarabağda xristianların hakimiyyətini qurmaq üçün gözləmə siyasətindən əl çəkmək lazımdır. Qarabağda ruslar daimi olmalıdır» – sözlərini yazırdı. Ən təəccüblüsü isə odur ki, İbrahimxəlil xanın bütün sədaqətinə rəğmən həmin o Şahnəzərov, Lisaneviçi inandırmışdı ki, İbrahim xan İrana meyil edir. Əslində Türkə – müsəlmana qənim olan Lisaneviçi inandırmağa çox da ehtiyac yox idi. Əlləri Cavad xanın qanına bulaşan LİSANEVİÇ 14 iyun tarixində 300 nəfər rus əsgəri ilə qaladan çıxıb İbrahim xanın 30–35 nəfərlə yerləşdiyi düşərgəsinə qəflətən hücum edərək xanı, arvadını, qızını, kiçik oğlunu, qohumları ilə birlikdə 17 nəfəri də öldürdü. Xüsusi amansızlıqla qətliam törətdi. Bu gün bizə bəlli olan, o zaman üçün isə gizli bildiyimiz danoslarda qızılbaşlarla əlaqədə günahlandırılan İbrahim xan olsa- olsa Qarabağın ruslar və farsların ayağı altında qalması tərəddüdünü keçirirdi. Bütövlükdə xilas yolunu düşünürdü… REAL həyata isə erməni hökmü keçdi. İbrahim xanın və ailəsinin belə qəddarlıqla öldürülməsi Mirzə Camalın «QARABAĞNAMƏ»də qeyd etdiyi kimi, «Qarabağ bəylərinin narazılığının baş qaldırmasına səbəb olsa da, İbrahim xanın xələfləri KÜRƏKÇAY əhdnaməsinə sadiq qaldılar. Rus dövlətinə olan səmimiyyətlərini poza biləcək hərəkət etmədilər». Lisaneviç İbrahim xanı, oğlu Mehdiqulu istisna olmaqla, bütün nəslini məhv etdikdən sonra 1807-ci ildə general Nessvetayevə raport yazmışdı. Bunun əsasında ona imperator ALEKSANDRIN fərmanı ilə QARABAĞIN xanı adı, hakimiyyət bayrağı və cəvahirə tutulmuş qılınc verildi. 1806-cı ildə SİSİANOVUN ölümündən sonra Qafqaza təyinat alan İvan Vasilyeviç QUDOVİÇ Tiflisə gələrək Ali Baş Komandan vəzifəsini icra etməyə başladı. Yeni baş komandan Bakının mühasirə edilməsi və hücum ilə bağlı plan işlədi. O, general Sisianovun ölümünü bəhanə edərək Azərbaycanda yaşayan müsəlmanlara cəza vermək istəyirdi. Peterburqa göndərilən bu plan şəxsən imperatorun yüksək qiymətini alaraq təsdiqləndi. Əslində bu plan təkcə Bakının yox, bütövlükdə Azərbaycanın işğalı idi. Bu plan da Pyotrun vaxtında verilən vəd idi ki, sonradan bu vədi Yekaterina da verdi, Nikolay da, hətta Lenin və Stalin də.

General Qudoviç bu planla yanaşı, imperatorun adına yazdığı raportda bildirirdi: «İmperator həzrətlərinə bildirməyi vacib bilirəm ki, gözləməyin vaxtı keçmişdir. Azərbaycan xanları könüllü tabe olmayacaq. Burda güclü təzyiq lazımdır. Belə olarsa, Azərbaycanın müstəqilliyinə son qoyulacaqdır».

Baş komandan Qudoviç erməni fitvasından çox güclü qidalanaraq «Ermənistan və Dağıstan» dövləti yaratmaq planı da hazırlamışdı. Bu planda Azərbaycanı xəritədən tamam silmək nəzərdə tutulurdu. Lakin yerli əhali olan azəri türklərinin ermənilərlə müqayisəyəgəlməz sayda çoxluq təşkil etməsi generalı və təbii ki, erməniləri narahat edirdi. Bu məqsədlə də o, imperatora müraciət etməli oldu: «Rusiyada yaşayan ermənilərin siyahısı tərtib olunmalı, onların harada yaşamasından asılı olmayaraq, Azərbaycana gəlmələrinə imkan yaradılmalıdır. Ermənistan və Dağıstan dövləti yaratmaq üçün Azərbaycanda ermənilərin sayı kifayət qədər olmalıdır. Başqa imkan yoxdur. Xristianlıq naminə bu işi sürətləndirmək vacibdir». Rusiya imperatoru bu məktuba biganə qalmadı. Xüsusi sərəncam verərək ermənilərin siyahısını tərtib etdirdi. Hətta xaricdə yaşayan ermənilərə də müraciət olundu:

***«İmperator ermənilərə qayğı göstərmək istəyir. Ermənilər bir ərazidə olmalıdırlar. Onların vətəni isə artıq Azərbaycandır».***

Tezliklə ermənilər müxtəlif yerlərdən axışaraq Azərbaycana – QARABAĞA gəlməyə başladılar. Təkcə Şuşaya 1 ay içində 390 erməni ailəsi köçürüldü. Rus süngüsünə, rus dəstəyinə arxayın olduqları üçün ermənilər istədikləri özbaşınalıqları da etməyə çəkinmirdilər. Bütün bunlardan bərk narazı olan MEHDİQULU xan bu narazılığını yazılı şəkildə general Qudoviçə bildirdi. Qudoviç nəinki ona məhəl qoymadı, hətta erməni məliklərinin məsləhəti ilə, onu hakimiyyətdən də uzaqlaşdırdı.

Kürəkçay müqaviləsindən daha səmərəli bəhrələnən isə Qarabağ məlikləri ilə Ali Baş Komandan arasında əlaqənin möhkəmlən-



məsində xüsusi rolu olan general Madatov idi. O məhz QARABAĞIN tam erməniləşməsi layihəsinin müəllif hüquqlarını daşıyırdı. Qarabağın Tuğ kəndindən olan, milliyyətcə erməni olan Valerian Qriqoryeviç Madatyan Peterburqda hərbi təhsil almışdı. Madatov əvvəlcə orda hərbi xidmətə başlamış, general-leytenant rütbəsinə qədər yüksəlmişdi. Madatov Rusiya–Türkiyə müharibəsinin iştirakçısı olmuşdu. Qafqazda xidmət etmək arzusu üçün müəyyən cəhdlər etdi və 1823-cü ildə sərəncam almağa müvəffəq oldu. Və mahiyyət etibarı ilə hansı tapşırığı yerinə yetirməsindən asılı olmayaraq, MADATOV onu tərk etməyən «Böyük Ermənistan» ideyasına xidmət edirdi. Azərbaycan torpaqları hesabına həyata keçirilməsi nəzərdə tutulan bu plan təkcə ərazi əldə etmək deyildi. Uşaqlıqdan Qarabağda gördüyü, onlara öz torpaqlarında yaşamağa imkan vermiş ərazisinin əsl sakinləri olan TÜRKLƏRİN kökünü kəsmək arzusu çox güclüydü. Onların yanında bu ərazilərdə ev sahibi olmaq çətin idi. XRİSTİANLAR ilkin mərhələyə kimi məhz Qarabağ, sonra Naxçıvan ərazilərini hədəf götürdülər. Mədətovun türklərə – müsəlmanlara nifrəti o qədər çox idi ki, o bütün Qafqazdan bizim kökümüzü kəsmək istəyirdi. Sonralar onun Qarabağda, Gəncədə tökdüyü günahsız qanlara, kəsdiyi başlara, xüsusi nifrətə cavab olaraq Abbasqulu Ağa Bakıxanov Qafqaz Baş İdarəsində hərbi qulluqda olan bütün **Madatovlar** barədə çara xüsusi şikayət məktubu göndərmişdi. Təsiri isə belə oldu ki, 1826-cı il dekabrın 1-də Şəkidə belə missiyalardan birini həyata keçirən Madatovun adına sərəncam gəlir. Sərəncamda deyilirdi: «Qarabağda vəziyyət ciddidir. Rus imperiya siyasətinə qarşı narazı qüvvələr baş qaldırıb. Vəziyyət gərginləşə bilər. Təcili Qarabağa hərəkət etmək lazımdır». Madatovun ürəyindən olan bu sərəncam onun arzularının reallaşmasına xidmət edirdi.

Böyük qüvvə ilə QARABAĞA daxil olan Madatovun ermənilər tərəfindən «URA» qışqıraraq xilaskar kimi qarşılanması çox

mətləbləri açır. MADATOV öz nəsli üçün Qarabağda böyük bir ərazi zəbt edir. İşğal etdiyi ərazinin ümumi sahəsi 103 desyatinə çatırdı. Bütövlükdə erməni generalının xidmətindən razı qalan Peterburq ağaları bu torpaqları onun adına rəsmiləşdirdilər. O isə həmin torpaqlarla bağlı Peterburqa yazmışdı:

«Nəslən Qarabağ məliklərindənəm. Son zamanlar türklər (azərbaycanlılar) bizim torpaqları zəbt etmişlər. Qanuni torpağımın adıma yazılması barədə razılıq verməyinizi ƏLAHƏZRƏT İMPERATORDAN xahiş edirəm». Rusiya–Türkiyə müharibəsi başlayana qədər ermənilərin Qarabağda məskunlaşmasını İmperiyanın əli ilə həyata keçirən Madatov Türkiyəyə qarşı müharibədə döyüş zamanı öldürüldü. Yəqin ki, yaxşı axtarsaq, onun xüsusi qanlı izlərini Türkiyədə də tapmaq olar.

**BELƏLİKLƏ:**

QARABAĞ xanlığı (1747–1822) Pənah Əli xan və İbrahim Xəlil xanın hakimiyyəti dövründə (1747–1806) öz suverenliyini saxlaya bilən Azərbaycan feodal dövləti idi. Onun paytaxtı Şuşa şəhəri yarım əsrdən çox Zaqafqaziyanın xarici istilalardan mühafizəsində əsas dayaq mərkəzi olmuşdur. Qarabağ xanlığının daxili və xarici siyasətinə qarşı xəmsə məlikləri daima gizli müxalifətdə olmuşdur. Daha sonra ruslarla əvvəl xəlvət, sonra aşkar ittifaqa girərək xristianlara kömək əli uzadılmasını digər xristian qardaşlarının boynuna qoymaqla QARABAĞIN sonrakı taleyində böyük iz qoydular. Qarabağ xanlığı Rusiyaya birləşərkən 14 may 1805-ci ildə regionda ermənilər yerli əhalinin beşdə birini təşkil etdiyi halda, 1890-cı illərdə Qarabağın dağlıq hissəsinə köçürmələr nəticəsində ermənilərin sayı artıq 58%-ə gəlib çıxmışdı. 1804–1813 və 1826–1828-ci illərdə Rus–İran müharibələrinin gedişində, həmçinin sonralar ermənilərin Rus İmperiyasının xristian qardaşlarına yardımı



nəticəsində Zaqafqaziyaya – Qarabağa ermənilərin kütləvi köçməsi aydın görünür.

**Kürəkçay müqaviləsindən** sonra...

1807–1828-ci illərdə QARABAĞ ərazisində baş verən hadisələr, xüsusi ilə RUSİYA və İRAN dövlətləri arasında bağlanan müqavilələrə, (1813-cü ildə Gülüstan müqaviləsi 1828-ci ildə Türkmənçay müqaviləsinə) yəni AZƏRBAYCANIN iki yerə: İRAN və RUSİYA arasında bölünməsinə gətirib çıxardı.

ŞAVROV N.N. «Новая угроза русскому делу в Закафказье» əsərində yazır: «Biz 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox fars, 84 min TÜRK ermənisi köçürmüşük. Onları erməni əhalisinin az olduğu Yelazavetpol (yəni GƏNCƏ) və İrəvan quberniyalarındakı ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik. Bu məqsədlə 200 min desyatin dövlət torpağı ayrılmış, müsəlmanlardan 2 milyon manatlıqdan çox torpaq satın almışdıq. Bu ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsində və GÖYÇƏ gölünün sahillərində yerləşdirilmişdir. Köçənlərin sayı rəsmi məlumatda 124 min olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdir». Sonralar Şavrov erməni əhalisinin köçürülməsi ilə bağlı qeyd edir: «... köçənlər içində çoxluq ermənilərə məxsusdur. Belə ki, Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfərin 1 milyonu yerli sakinlər deyil və bizim tərəfimizdən köçürülmüşdür».

Daha mühüm bir məqam... XIX əsrin II yarısında Şuşada erməni kilsələri meydana gəldi. Çox qəribədir ki, bu kilsələr ermənilərin QRİQORYAN kilsələri kimi qotik üslubda deyil, qədim ALBAN kilsələrinin memarlığı üslubunda tikilirdi. Bu fakt isə o zaman üçün çox sonralar, yəni bizim yaşadığımız tarixdə özünü göstərdi.

Kürəkçay müqaviləsinə gəldikdə isə, elə bircə bunu demək kifayətdir ki, indiyə qədər bir çox tədqiqatçılarımız az qala uğur kimi

qiymətləndirdiyi Rus imperiyasının Azərbaycan torpaqları kimi Qarabağı tanıması heç də tariximizin müsbət səhifəsi deyil. Rusiya imperatorluğunun QARABAĞI vassallığa alaraq işğal etməsi bütövlükdə Azərbaycan işğalına aparırdı. Və ancaq bu müqavilədən sonra ruslar erməni qardaşlarının Qarabağda yerləşməsini mümkün etdilər. Bu Türkmənçay müqaviləsinə qədər, sonradan İrəvan və Naxçıvan torpaqlarında Erməni vilayəti yaranana qədər Qarabağda ermənilərin kök salmasına əsas səbəb oldu. Kütləvi köçürmələr bütövlükdə Şimali Azərbaycanın çar Rusiyasının işğalına məruz qaldığı zamanlar həyata keçirildi. Ermənilərin Azərbaycan işğalının və türklərin bu ərazidəki soyqırımının ən azı 200 ildən çox yaşı var. Biz Kürəkçay müqaviləsi ilə Rus imperiyasının Azərbaycan adlanan bu ərazidə xristian qardaşları üçün onlarla birgə hansı fədakarlığı etməsindən bəhs etdik. Təkzibedilməz fakt isə odur ki, ermənilər uzun illər sığınacaq tapdıqları türk torpaqlarında gizli-gizli yaşadıqları əraziləri hansı yolla olur-olsun mənimsəmək haqqında düşünüb. Fürsət tapan kimi müxtəlif yollarla ərazini yerli millətdən, azəri türklərindən təmizləyərək onu mənimsədilər. Kürəkçay müqaviləsindən sonra isə bu fəaliyyəti daha açıq şəkildə həyata keçirdilər.

Bunu isə tarixdən pozmaq, çox təəssüf ki, düzəltmək də mümkün deyil.

Əsaslı şəkildə ermənilərin Qarabağda yerli əhali sayında, təbii ki, yerli əhali statusunda yaşamasına səbəb KÜRƏKÇAY müqaviləsi oldu. Könüllü şəkildə tabe olmaq, xristian mərhəmətinə inanmaq... Bu heç bir vaxt Qarabağın xilası ola bilməzdi. Nə xalqı üçün, nə də taxt-tacını qorumaq üçün seçimi düzgün etmədi İBRAHİM xan. Məsələ bunda idi ki, İbrahim xan zamanın xristian siyasətini axıracan dərk edə bilməzdi. Dərk edəndə isə çox gec idi. Artıq QARABAĞDA xanlıq onun olsa da, xalq və səlahiyyət onun deyildi...

Kürəkçay müqaviləsi QARABAĞ xanlığının Rusiya hakimiyyətinə keçməsi haqqında Qarabağ xanı İbrahim xanla Rusiya imperiyasının 1805-ci ildə imzaladıqları traktat açıq-aydın göstərir ki, imperiya qədim Azərbaycan torpaqlarını işğal etmişdir. Və xüsusi qərarla bu əraziyə, hətta dünyanın müxtəlif yerlərindən ermənilərin köçürülməsində məxsusi rol oynadı. Heç bir sənəddə ermənilərə, yəni məliklərə aid ərazi, ya ki torpaq qeydə alınmamışdır.



Biz də səhv elədik... biz ondan da gec dərk etdik. Biz Qarabağı tamam itirdik. Bütöv Azərbaycanın üçdən biri olan Şimali AZƏRBAYCANIN 20%-ni də biz güdaza verdik. Mənimsəyən İŞĞALÇI tərəf isə məqsədli şəkildə, dəyişilmədən iri addımlarla irəliləyir.

Və nə vaxtsa, bizim nəsil üçün deyəcəklər ki, «...təəssüf ediləsi tarix olsa da, zaman vardı ki, əcdadlarımız – 50 milyonluq azəri türkləri «Bütöv AZƏRBAYCANIN» 80%-ni itirib, bununla barışmışdı».

## *EPİLOQ*

Erməni milli şüurunun sonrakı inkişafında sələflərinin yolunu davam etdirən Şaumyan əsrin əvvəllərində «HNÇAK»dakı, daha sonra «Daşnaksütyun»dakı ermənilərdən fərqli olaraq, millətinin siyasi şüurunun inkişafındakı sonrakı mərhələni rus bolşevizmi ilə bağladı. ŞAUMYAN həmişə erməni–müsəlman qırğınlarında müqəssir panislamist türklərin günahkar olduğunu bildirirdi. O, «erməni xalqı heç bir zaman öz səltənətini yaratmaq arzusunda olmamışdır» fikrini nə qədər təkrar etsə də, əslində «erməni xalqı heç vaxt öz səltənətini yaratmaq arzusundan əl çəkməmişdir» işini gördü. Və indi... onun xələfləri bu yolu müxtəlif bayraqlar altında görməyə davam edirlər.

## MÜNDƏRİCAT

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
H.Əliyev və Azərbaycanın Milli Hərbi strategiyası . . . . . . . . . . . 7
Azəri türklərinə edilən növbəti qətliam . . . . . . . . . . . . . . . . . . 29
Azərbaycandakı Xocalı soyqırımı. . . . . . . . . . . . . . . . . . . . . . . 63
Tariximizin 31 Mart adlı soyqırım günü. . . . . . . . . . . . . . . . . . 73
Kürəkçay müqaviləsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 97

*Mehriban Zaur qızı Ələkbərzadə*

**TARİXİN BİR GÜNÜ**
**VƏ YA BİR GÜNÜN TARİXİ**

**Bakı, «Təhsil», 2005**

Elektron resurs

Redaktoru *Məsudə Əvəz qızı*
Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompyuterçi dizayner *Arif Həsənov*
Korrektoru *Sevinc Hacıyeva*

Çapa imzalanmış 16.08.2005. Kağız formatı 60x90$^1/_{16}$.
Fiziki çap vərəqi 8,0. Sifariş 75. Tirajı 500.
Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Təhsil Nazirliyi
«Təhsil» nəşriyyatı
Bakı, 370073, Şəhriyar küçəsi, 6.

Ar 2005/1485



*Mehriban Zaur qızı Ələkbərzadə* 1965- ci ildə anadan olmuş, orta təhsilini başa vurduqdan sonra əvvəl Azərbaycan Dövlət İncəsənət İnstitunu, sonra isə Bakı Dövlət Universitetini bitirmişdir.

Azərbaycan Milli Dram Teatrında, Azərbaycanfilm Kinostudiyasında, Azərbaycan Dövlət Teleradio Şirkətində, SPACE-də çalışmışdır. Hazırda SPACE TV Şirkətində Müəllif proqramları departamentinin müdiridir.

Mehriban Ələkbərzadə Azərbaycan televiziyasında ilk müəllif proqramlarının yaradıcısıdır. O, teart, kino, televiziya rejissoru kimi fəaliyyət göstərmiş, Azərbaycan tamaşaçılarının dərin rəğbətini qazanmış «İnsan- fövqəlinsan», «Həqiqət anı və ya Aporiya», «Telebenefis», «Xalq düşmənləri və onların qadınları», «Sınmış miflər», «Dünən... Bu gün... Sabah», «Persona», «Məxfi əməliyyatlar», «Azərbaycan və azərbaycanlılar», «13 dəqiqə» və s. müəllif proqramlarını; «O, Heydər Əliyevdir», «İstiqlal günü», «Qırmızı terror və ya Mir Cəfər Bağırov», «Azərbaycan xanlıqları», «Tarixin bir günü və ya Bir günün tarixi» filmlərini yaratmışdır.

M.Ələkbərzadə 3 dəfə «Humay», «Qızıl Dərviş», «Sara Xatun», H.Zərdabi, Y.Məmmədəliyev, «Ən yaxşı film», «Tamaşaçı rəğbətinə görə ən yaxşı proqram» və s. mükafatlarına, «İlin ən yaxşı jurnalisti» adına layiq görülmüşdür. «Azərbaycan xanlıqları» filminə orta və ali məktəblərdə əyani dərs vəsaiti kimi nümayiş hüququ verilmişdir.

Naxçıvan MR- in əməkdar incəsənət xadimidir.